

Azərbaycan Respublikasında
# milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin
2017-2020-ci illər üzrə
# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ HESABATI

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

“STRATEJİ YOL XƏRİTƏLƏRİNİN İCRASI İLƏ BAĞLI MƏLUMAT VERİLDİ VƏ İKİ İL ƏRZİNDƏ YOL XƏRİTƏLƏRİNİN İCRASI 52 FAİZ TƏŞKİL EDİR. BU, DEMƏYƏ ƏSAS VERİR Kİ, BU ÖNƏMLİ PROQRAM 2020-Cİ İLİN SONUNA QƏDƏR İCRA EDİLƏCƏK VƏ BELƏLİKLƏ, BİZ BÜTÜN SAHƏLƏRDƏ İRƏLİLƏYİŞƏ NAİL OLACAĞIQ. ÇÜNKİ ARTIQ MƏRUZƏ EDİLƏN MƏSƏLƏLƏR GÖSTƏRİR Kİ, HƏR BİR SAHƏ ÜZRƏ ÇOX CİDDİ ADDIMLAR ATILIR. BÜDCƏ GƏLİRLƏRİMİZ ARTIR, MAKROİQTİSADİ VƏZİYYƏT SABİTDİR, İSLAHATLAR ÖZ NƏTİCƏSİNİ VERİR, BİZNES MÜHİTİ YAXŞILAŞIR. YƏNİ, BİZ BÜTÜN SAHƏLƏRDƏ İSLAHATLARIN UĞURLU NƏTİCƏLƏRİNİ GÖRÜRÜK.”

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti,**
Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında



# MÜNDƏRİCAT


- QISA İCMAL 5
  - Strateji Yol Xəritələri məqsədinə nail oldu ..... 6
  - Makroiqtisadi sahədə əldə olunmuş nəticələr ..... 8
  - Strateji Yol Xəritələrinin 2017-2020-ci illər üzrə icra vəziyyəti ..... 9
- ƏSAS SOSİAL-İQTİSADİ İSTİQAMƏTLƏR ÜZRƏ GÖRÜLMÜŞ İŞLƏR VƏ ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR 10
  - Maliyyə xidmətləri sahəsində əldə olunmuş nəticələr ..... 11
  - Biznes mühitinin yaxşilaşdirilmasi sahəsində əldə olunmuş nəticələr ..... 13
  - Gömrük sahəsində güzəştlərə dair məlumat ..... 17
  - Vergi sahəsində güzəşt və azadolmalar 2016-2021 ..... 19
  - Qeyri-neft sənayesində görülmüş işlər ..... 25
  - 2016-2021-ci illərdə kənd təsərrüfati sahəsində əldə edilmiş əsas nailiyyətlər ..... 28
  - Kommunal xidmətlər sahəsində əldə olunmuş nəticələr ..... 30
  - İnsan kapitali və təhsilin inkişafi sahəsində görülmüş tədbirlər ..... 31
  - 2016-2021-ci illər ərzində həyata keçirilmiş institusional islahatlar ..... 33
  - Vətəndaşlarin mənzil əlçatanliği, maddi rifahi, sosial sahədə islahatlar ..... 35

# MÜNDƏRİCAT


- MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİYYATIN ƏSAS SEKTORLARI ÜZRƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNİN 2017-2021-Cİ İLLƏR ÜZRƏ TƏFSİLATLI İCRA VƏZİYYƏTİ ..... 47
  - Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi ..... 48
  - Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi ..... 55
  - Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi ..... 59
  - Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi ..... 67
  - Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi ..... 75
  - Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi ..... 89
  - Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi ..... 93
  - Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi ..... 99
  - Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi ..... 102
  - Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi ..... 106
  - Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi ..... 111

# QISA İCMAL

# STRATEJİ YOL XƏRİTƏLƏRİ MƏQSƏDİNƏ NAİL OLDU

- Prezident İlham Əliyevin rəhbərliyi altında **Strateji yol xəritələri özünün əsas məqsədlərinə çatmışdır**: Azərbaycan iqtisadiyyatı 2015-2016-ci illərdəki xarici şokların mənfi təsirindən çıxaraq **qısamüddətli dönəmdə sabitləşdi, ortamüddətli dönəmdə isə inkişaf xətti bərpa edildi**. Məhz bunun nəticəsində 2020-ci ildə aşağı neft qiymətləri, quraqlıq, pandemiya və Vətən Müharibəsinin təsirlərinə baxmayaraq Azərbaycan iqtisadiyyatının qazandığı immunitet böhranın təsirlərini minimuma endirməyə imkan verdi.

- 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artımı təmin etmək məqsədinin də əsası qoyuldu: Belə ki, **bu il ölkədə ÜDM-in real artımı 5,1 faiz**, o cümlədən qeyri-neft ÜDM-in artımı 6,0 faiz, **gələn il isə iqtisadi artımın 3,9 faiz** təşkil edəcəyi proqnozlaşdırılır.

- Strateji yol xəritələrinin uğurlu icrası nəticəsində qeyri-neft sektoru üzrə ixracın **2015-ci ildəki adambaşına 170 ABŞ dollarından bu il 260 ABŞ dollarına çatması deməyə əsas verir ki, 2025-ci ildə 450 ABŞ dolları hədəfinə** nail olunması mümkündür.

- 2016-ci il 6 dekabr tarixində təsdiq olunmuş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri çərçivə sənədi olub, Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi iqtisadi islahatların təşkili və koordinasiyasının parametrlərini müəyyənləşdirir.

- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin hazırlanmasına 400 nəfər mütəxəssis cəlb olunmaqla, 29 müxtəlif tədbir, 150 görüş keçirilmiş, cəmiyyətin bütün təbəqələri, kənd rayonları, ali təhsil müəssisələri, akademik dairələr, biznes nümayəndələri, qeyri-hökumət təşkilatları bu işə cəlb olunmuşdur.

- 2016-2021-ci illərdə həyata keçirilən **bütün institusional islahatlar Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Birinci vitse-prezidentinin** tapşırığı ilə hazırlanmış və həyata keçirilmişdir.

# STRATEJİ YOL XƏRİTƏLƏRİ MƏQSƏDİNƏ NAİL OLDU

- 2017-2021-ci illərdə həyata keçirilən **sosial islahatlar Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Birinci vitse-prezidentinin rəhbərliyi** ilə aidiyyatı qurumlar tərəfindən hazırlanaraq həyata keçirilmişdir.

- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrində göstərilən bütün işlər **Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına** əsasən, onun tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Nazirlər Kabinetinə daxil olan qurumlar və digər dövlət qurumları tərəfindən əlavə dövlət proqramları, tədbirlər planları və digər sənədlər də hazırlanaraq koordinasiya olunmaqla icra edilmişdir.

- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri çərçivəsində, 2016-2020-ci illər üzrə tədbirlər planı hazırlanmış və təsdiq edilmiş, habelə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-dən sonrakı dövr üçün hədəf baxış müəyyən edilmişdir. Pandemiya səbəbindən yeni tədbirlər planı hazırlığı başa çatmadığına görə Milli iqtisadiyyat və **iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin icrası 2021-ci ildə də davam etmişdir**.

- Hal-hazırda 2022-2026-cı illər üzrə ölkənin sosial-iqtisadi inkişaf strategiyası və tədbirlər Planı Hökumət tərəfindən hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir və yaxın dövrlərdə təsdiqi gözlənilir. Yeni strateji sənədin və tədbirlər planının təsdiqi ilə Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə **Strateji Yol Xəritələrinin icra müddəti 2022-ci il 1 yanvar tarixindən bitmiş hesab olunur**.

- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin hazırlanmasına, icrasına, monitorinq və qiymətləndirməsinin aparılmasına dövlət büdcəsindən **heç bir əlavə maliyyə vəsaiti ayrılmamış**, dövlət qurumları bütün tədbirləri onlara ayrılmış büdcə çərçivəsində həyata keçirmişlər.

# MAKROİQTİSADİ SAHƏDƏ ƏLDƏ OLUNMUŞ NƏTİCƏLƏR

| Göstəricinin adı | 2016-cı ilin yanvar-dekabr ayları, faktiki | 2021-ci ilin yanvar - dekabr ayları*, (faktiki) | Nominal artım, azalma | |
|---|---|---|---|---|
| | | | Məbləğ | Faizlə |
| **Ümumi daxili məhsul, milyon manat** | **60,425.20** | **90,275.10** | **29,849.90** | |
| *o cümlədən qeyri neft-qaz ÜDM* | *39,975.80* | *57,049.60* | *17,073.80* | |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **6,269.60** | **9,011.50** | **2,741.90** | **143.7** |
| **Sənaye məhsulu, milyon manat** | **32,300.20** | **52,251.50** | **19,951.30** | **161.8** |
| *o cümlədən qeyri neft-qaz sənayesi* | *8,800.60* | *15,029.90* | *6,229.30* | *170.8* |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **5,632.40** | **9,196.30** | **3,563.90** | **163.3** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1,623.40** | **2,361.00** | **737.60** | **145.4** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **30,190.30** | **44,047.60** | **13,857.30** | **145.9** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **17,505.68** | **26,401.00** | **8,895.32** | **150.8** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **17,751.3** | **28,543.00** | **9,448.93** | **149.5** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **45,395.10** | **57,175.00** | **11,779.90** | **125.9** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **4,710.10** | **5,707.30** | **997.20** | **121.2** |
| **İstehlak qiymətləri indeksi** | **12.40** | **6,2**** | **X** | **X** |
| **Əhalinin banklardakı əmanətləri, 2021-ci il 01 dekabr vəziyyətinə, milyon manat** | **7,448.7** | **8,880.90** | **1,448.79** | **119.5** |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **498.60** | **724.00** | **225.40** | **145.2** |
| **Qeyri-neft ixracı (milyon ABŞ dolları) (Faktiki qiymətlərlə)** | **1,237.10** | **2.526,73***** | **1,289.63** | **2 dəfə** |
| **Strateji valyuta ehtiyatları** | **37,939** | **53,144** | **15,205** | **40,1** |

** Gözlənilən* *** 2021-ci il yanvar-noyabr ayları üzrə* **** 2021-ci il 15 dekabr tarixinə*

# STRATEJİ YOL XƏRİTƏLƏRİNİN 2017-2020-Cİ İLLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# ƏSAS SOSİAL-İQTİSADİ İSTİQAMƏTLƏR ÜZRƏ

# GÖRÜLMÜŞ İŞLƏR VƏ ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR

# MALİYYƏ XİDMƏTLƏRİ SAHƏSİNDƏ ƏLDƏ OLUNMUŞ NƏTİCƏLƏR

- 2016-cı il 15 iyul tarixində Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası yaradılmış və iqtisadi qurumların koordinasiyası təmin olunmuşdur. 2020-ci il 9 sentyabr tarixindən Şuranın mandatı genişləndirilərək Azərbaycan Respublikasının İqtisadi Şurası kimi fəliyyəti davam etdirilir.

- Borc strategiyası, **ortamüddətli xərclər çərçivəsi** qəbul edilərək, fiskal dayanıqlılığın gücləndirilməsi təmin olunmuşdur.

- Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərinin dövlət büdcəsinə köçürülməsi ilə bağlı **büdcə qaydaları ("qızıl qayda")** təsdiq edilmişdir ki, bu qaydalar həmçinin neft gəlirlərindən səmərəli istifadəni, büdcədə qeyri-neft gəlirlərinin payının artırılmasını nəzərdə tutur.

- Bankların kapitallaşdırılması üzrə tədbirlər başa çatdırılmış, **bank sektorunun dayanıqlılığı** təmin edilmişdir.

- Problemli banklar sistemdən kənarlaşdırılmış, bu banklarda **qorunan əmanətlər üzrə əhaliyə 1,493 milyard manat məbləğində kompensasiya** ödənilmişdir.

- "Azərbaycan Respublikasında **fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında"** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli Fərmanına əsasən, əhalinin xarici valyutada olan kreditlərinin devalvasiya nəticəsində manatla artmış hissəsi kompensasiya edilərək **640 milyon manat məbləğində vəsait** vətəndaşlara geri ödənilmişdir.

- 2018-ci il 15 yanvar tarixində ölkənin 8 bankının təsiçiliyi ilə Azərbaycanın **ilk özəl kredit bürosu "Azərbaycan Kredit Bürosu"** MMC (AKB) yaradılmış və onun bütün aidiyyəti təşkilatlarla, o cümlədən banklarla və digər maliyyə institutları ilə, eləcə də kommunal təchizatçılarla inteqrasiyası təmin edilmişdir. Yarandığı tarixdən 2021-ci il 30 noyabr tarixinədək Büroya borcalanlar barədə ümumilikdə 35,1 milyon sorğu daxil olmuşdur ki, bu da kreditlərin daha az risklə və daha sürətlə verilməsini təmin etmişdir.

- Əhalinin və xüsusilə KOS subyektlərinin maliyyə vəsaitlərinə əlçatanlığını yaxşılaşdırmaq və onların daşınar əmlakı girov qoyaraq kredit almaq imkanlarını artırmaq məqsədilə **“Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestri”** yaradılmışdır ki, bununla da borcalanların təkcə daşınmaz əmlaklarını deyil, o cümlədən daşınar əmlaklarını da girov qoymaqla kredit əldə etməsinə imkan yaranmışdır.

- Dünya Bankının **“Doing Business”** hesabatında Azərbaycan **“Getting Credit (Kreditlərin alınması)”** indikatoru üzrə 190 ölkə arasında 2018-ci ildəki 122-ci yerdən 2019-cu ildə 21-ci, **2020-ci ildə 1-ci yerə irəliləmişdir**.

- “2018-2020-ci illərdə Azərbaycan Respublikasında **rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”** qəbul edilmişdir. Nəticədə, 2021-ci il 1 noyabr tarixinə **nağdsız əməliyyatların həcmi** 2016-cı ilin sonu müqayisədə 4,6 dəfə artaraq 2,151 milyard manatdan **9,832 milyard manata çatmışdır**. Həmçinin, 2021-ci il 1 noyabr tarixinə **debet və kredit kartları ilə aparılan əməliyyatların həcmi** 2016-cı ilin sonu müqayisədə 2,3 dəfə artaraq 12,781 milyard manatdan **29,353 milyard manata çatmışdır**. Bank sistemi üzrə dövriyyədə olan ödəniş kartlarının sayında da əhəmiyyətli artım müşahidə olunmuşdur. Belə ki, 1 noyabr tarixinə dövriyyədə olan ödəniş kartlarının sayı 2016-cı ilin sonuna nəzərən 2 dəfə, yəni 5 milyon 339 min ədəd artaraq 10 milyon 673 min ədəd təşkil etmişdir.

- Yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi istiqamətində **Ani Ödənişlər Sistemi** yardılmışdır.

- Ölkədə sığorta bazarı genişləndirilmiş, **icbari tibbi sığorta** sisteminin tətbiqinə başlanılmışdır.

- **Aqrar sığorta** sisteminin tətbiqinə başlanılmışdır.

- **İpoteka və Kredit Zəmanət Fondu** yaradılmış və ölkəmizdə ilk dəfə olaraq kreditlərə ixtisaslaşmış Fond tərəfindən zəmanət verilməyə başlamışdır.

- **İşsizlikdən Sığorta Fondu** yaradılmışdır.

## BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI SAHƏSİNDƏ ƏLDƏ OLUNMUŞ NƏTİCƏLƏR

- Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır.
- Dövlət-biznes dialoqu qurulmuş, 2016-cı ildə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya yaradılmış və Komissiyanın internet portalı (https://azranking.az/) istifadəyə verilmişdir.
- "İqtisadi İslahatların İdarəedilməsi Modeli" İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən nümunəvi innovativ model kimi qəbul edilərək "OPSI" platformasında yayımlanmışdır.
- 2017-ci ildə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, 2020-ci ildə KOB evləri və 2018-ci ildə "Enterprise Azerbaijan" portalı yaradılmaqla kiçik və orta sahibkarlığın inkişafı dəstəklənmişdir.
- Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakı təşviq olunaraq genişləndirilmişdir.
- 2019-cu ildə "Mediasiya haqqında" Qanun qəbul edilmiş və 2020-ci ildə Mediasiya Şurası yaradılmışdır.
- Sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmləri daha da təkmilləşdirilmiş, Azərbaycan Biznesinin İnkişafı Fondu (Sahibkarlığın İnkişafı Fondu) tərəfindən bu günədək 40 minə yaxın sahibkara ümumilikdə 2,65 milyard manat dövlətin güzəştli krediti verilmişdir.
- İnvestorların maraqlarının qorunması, biznesə başlama, tikinti icazələri, elektrik şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış və əmlakın qeydiyyatı, müflisləşmə sahəsində əhəmiyyətli islahat tədbirləri həyata keçirilmiş, yeni elektron sistemlər (2016-cı ildə **"Elektron məhkəmə sistemi", 2019-cu ildə "Tikintiyə icazə üzrə elektron müraciət sistemi", "Elektrik şəbəkəsinə qoşulma üzrə elektron sistem"** və **"Dövlət satınalmalarının vahid internet portalı"** və s.) istifadəyə verilmişdir.

# BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI SAHƏSİNDƏ ƏLDƏ OLUNMUŞ NƏTİCƏLƏR

- 2016-cı ildə **“Azexport.az”** və **2017-ci ildə Rəqəmsal Ticarət Qovşağı platformaları** yaradılmış, ticarət nümayəndəlikləri, onlayn ixrac ərizəsi, ixrac missiyaları, ticarət evləri və ixrac subsidiyaları kimi təşviq metodları istifadə edilmişdir.

- Səmərəli vergi islahatları aparılmış və biznesin dəstəklənməsi üçün əhəmiyyətli vergi güzəştləri verilmişdir. KOB subyektləri, KOB klaster şirkətləri və KOB klaster iştirakçılarına dair münasibətdə stimullaşdırıcı vergi güzəştləri və azadolmaları Vergi Məcəlləsinə əlavə edilmişdir.

- Gömrük islahatları aparılmış, o cümlədən, **“Yaşıl Dəhliz” sistemi tətbiq edilmişdir**.

- Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin ən üst səviyyəyə qaldırılması təmin olunmuşdur:

- Dünya Bankının **“Doing Business 2020”** hesabatında Azərbaycan 190 ölkə arasında **28-ci yerə layiq görülmüş** (2017: 65-ci yer), **iki il ardıcıl “Ən islahatçı ölkə”** adı qazanılmışdır;

- **"İqtisadi Azadlıq İndeksi 2021”**ə əsasən ölkəmiz 38-ci yerə layiq görülmüş (2016: 91-ci yer), “Orta dərəcədə azad (“Moderately Free”)” ölkələr kateqoriyasından **“Əsasən azad (“Mostly Free”)” ölkələr kateqoriyasına yüksəlmişdir**;

- Dünya İqtisadi Forumunun **"Qlobal Rəqabətlilik Hesabatı 2019"**-a əsasən Azərbaycan **141 ölkə arasında 58-ci yerdə** qərarlaşmışdır (2018: 69);

- 2018-ci ildə **“Ələt Azad İqtisadi Zonası haqqında” Qanun** qəbul olunmuş, 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə təməlqoyma mərasimi keçirilmişdir.

# DÜNYA BANKININ “DOING BUSINESS” HESATINDA AZƏRBAYCANIN MÖVQEYİ

Doing Business
THE WORLD BANK

2020-ci il üzrə mövqe --- 34

2021-ci ildə mövqe --- 28

## İNDİKATORLAR ÜZRƏ QLOBAL MİQYASDA LİDERLİK

1
Kreditin əldə olunması üzrə

9
Biznesə başlama üzrə

# “HERITAGE FONDU” TƏRƏFİNDƏN HAZIRLANAN “İQTİSADİ AZADLIQ İNDEKSİ” HESABATINDA AZƏRBAYCANIN MÖVQEYİ



# GÖMRÜK SAHƏSİNDƏ GÜZƏŞTLƏRƏ DAİR MƏLUMAT

| № | Qısa məzmunu |
|---|---|
| I | **Gömrük sahəsində ümumi islahatlar** |
| 1 | **“Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə - qısa idxal bəyannaməsi əsasında malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılmasının yaşıl, mavi, sarı və qırmızı dəhliz buraxılış sistemlərinin tətbiqi:** Mallar və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilməzdən əvvəl gömrük orqanlarına elektron formada qısa idxal bəyannaməsi göndərilməklə müvafiq risk təhlilindən keçirilir. Müvafiq meyarlara cavab verildikdə gömrük ərazisinə gətirilən mallar və nəqliyyat vasitələri gömrük ərazisinə buraxılış zamanı və gömrük ərazisinə buraxıldıqdan sonra fiziki yoxlanılmadan azad edilir. |
| 2 | **Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə gömrük idxal rüsumlarının dərəcələrinin təkmilləşdirilməsi:** Gömrük idxal rüsumlarının dərəcələrinə təklif edilən dəyişikliklər gömrük idxal rüsumlarının çoxpilləli sistemdən (0%, 0,5%, 1%, 3%, 5%, 10%, 15%) azpilləli sistemə (0%, 5%, 15%) keçirilməsini təmin etmişdir. Bununla da idxal mallarına münasibətdə gömrük-tarif mexanizminin daha da təkmilləşdirilməsi, idxal yönümlü malların istehsalı sahələrinin xarici rəqabətin mənfi təsirindən qorunması məqsədi ilə istehsal prosesində istifadə olunan və ölkədə tələbata adekvat həcmdə istehsal potensialı olmayan xammal, aralıq məhsul (yarımfabrikat) və istehsal vasitələri üzrə dərəcələrin azaldılması təmin edilmişdir. Bununla yanaşı, ölkədə istehsal olunan və istehsal potensialı yüksək olan məhsullar üzrə rüsumların artırılması və ya spesifik rüsumların tətbiq edilməsi təmin edilmişdir. |
| 3 | Qısa idxal bəyannaməsinin və ona əlavə olunmuş baytarlıq, fitosanitar, gigiyenik və ya digər sertifikatın (şəhadətnamənin), qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatının, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın və mülki dövriyyəsi məhdudlaşdırılmış malların dövriyyəsinə verilən **xüsusi icazənin əvvəlcədən yoxlanılmasını və gömrük nəzarətinin həyata keçirilməsinin nəticəsi əsasında malların gömrük ərazisinə buraxılışının təmin edilməsi** |
| 4 | Məmur-vətəndaş təmasının minimuma endirilməsi və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası **Gömrük Məcəlləsində nəzərdə tutulmuş bütün bəyannamələrin gömrük orqanlarında elektron formada qəbulu** |
| 5 | Sahibkarlıq subyektlərinin və istehlakçıların hüquqlarının müdafiəsi və qida məhsullarının idxal-ixrac mərhələsində gömrük sərhəd buraxılış məntəqələrində keçidinin sürətləndirilməsi məqsədi ilə **“Bir pəncərə” prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan qida məhsullarının təhlükəsizlik baxımından yoxlanılması** zamanı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin təmin edilməsi |
| 6 | Beynəlxalq təcrübədə qəbul olunmuş və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalentlik prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlar (şəhadətnamələr), qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatı, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarış, sənədlər əsasında malların gömrük sərhədindən keçirilməsi |

| II | "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu | | |
|---|---|---|---|
| **№** | **Qısa məzmunu** | **Güzəştin bitmə tarixi** | **Tam və yaxud qismən azadolma** |
| **20.0.17.** | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə gömrük rüsumlarından azad edilmişdir; | **müddətsiz** | **Tam** |
| **20.0.18.** | müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı gömrük rüsumlarından azad edilmişdir;; | **müddətsiz** | **Tam** |
| **20.0.19.** | müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 7 il müddətinə gömrük rüsumlarından azad edilmişdir;; | **müddətsiz** | **Tam** |
| **20.0.20.** | müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı – 2016-cı il mayın 1-dən 5 il müddətinə gömrük rüsumlarından azad edilmişdir;; | **5/1/2021** | **Tam** |
| **20.0.21.** | Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) təsdiqedici sənəd əldə edən həmin oyunlarda iştirak edən və ya oyunların təşkilinə və ya keçirilməsinə cəlb olunmuş şəxslər tərəfindən həmin oyunlarla bağlı malların idxalı gömrük rüsumlarından azad edilmişdir; | **8/1/2021** | **Tam** |
| **III** | **"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 1998-ci il tarixli, 91 nömrəli Qərarı** | | |
| **1** | Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 iyun tarixli 1255 nömrəli Sərəncamına əsasən yaradılmış Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı - 2016-cı il mayın 1-dən 5 il müddətinə gömrük rüsumlarından azad edilmişdir; | **5/1/2021** | **Tam** |
| **2** | Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar gömrük rüsumlarından azad edilmişdir; | **1/1/2023** | **Tam** |
| **3** | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiqedici sənədi əsasında yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinlərin və həmin vaksinlər üçün nəzərdə tutulmuş şprislərin idxalı - 2021-ci il yanvarın 1-dən 2 il müddətinə gömrük rüsumlarından azad edilmişdir; | **1/1/2023** | **Tam** |

# VERGİ SAHƏSİNDƏ GÜZƏŞT VƏ AZADOLMALAR 2016-2021

| Vergi Məcəlləsinin müvafiq maddəsi | | Qısa məzmunu | Tam azad olma | Qismən azad olma | Güzəştin qüvvəyə minmə tarixi | Güzəştin bitmə tarixi | Güzəşt və azadolma nəticəsində ildə dövlət büdcəsinə hesablanmayan məbləğ (min.manat) |
|---|---|---|---|---|---|---|---|
| | | **Vergi sahəsində güzəşt və azadolmalar üzrə CƏMİ (illik)** | | | | | **1,297,050.1** |
| | | **Muzdlu işlə əlaqədar vergi üzrə CƏMİ** | | | | | **758,770.0** |
| Muzdlu işlə əlaqədar vergi | 101.1-1 | Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi | - | + | 1/1/2019 | 1/1/2026 | 741,700.0 |
| Muzdlu işlə əlaqədar vergi | 102.1.33 | "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) haqqı ödənilən ictimai işlərə cəlb etdiyi işçilərinin bu fəaliyyətlə əlaqədar gəlirləri. | + | - | 2018-11-30 | Müddətsiz | 17,070.0 |
| | | **Fərdi sahibkarın gəlir vergisi üzrə CƏMİ** | | | | | **122,200.2** |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.30 | mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən gəlirinin 75 faizi | - | + | 2018-11-30 | Müddətsiz | 118,130.7 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.31 | mikro və ya kiçik sahibkarlıq subyekti olan və fərdi sahibkar kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir – 3 il müddətinə | - | + | 2018-11-30 | Müddətsiz | 3,283.4 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.23 | investisiya təşviqi sənədini almış fərdi sahibkar həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin 50 faizi - 7 il müddətinə | - | + | 2016-01-19 | Müddətsiz | 459.9 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.27 | vergi ödəyicisinin azı 3 (üç) il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi | - | + | 2018-11-30 | Müddətsiz | 197.9 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.32 | KOB klasterin iştirakçısı olan fərdi sahibkarın KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi – 7 il müddətinə; | - | + | 2018-11-30 | Müddətsiz | 62.2 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.14.13 | Ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri və fondları tərəfindən verilən maddi yardımlar | - | + | 2020-11-20 | 2022-11-20 | 40.9 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.25 | qanuna uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir | + | - | 2018-11-30 | Müddətsiz | 12.8 |
| Fərdi sahibkarın gəlir vergisi | 102.1.24 | Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan fərdi sahibkar tərəfindən büdcəyə ödənilməli olan gəlir vergisinin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi gəlirdəki xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır. Bu güzəştin alınması hüququ müəyyən edilərkən vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır; | - | + | 2019-01-01 | 2022-01-01 | 12.4 |

| Vergi Məcəlləsinin müvafiq maddəsi | | Qısa məzmunu | Tam azad olma | Qismən azad olma | Güzəştin qüvvəyə minmə tarixi | Güzəştin bitmə tarixi | Güzəşt və azadolma nəticəsində ildə dövlət büdcəsinə hesablanmayan məbləğ (min.manat) |
|---|---|---|---|---|---|---|---|
| **Ödəmə mənbəyində vergi üzrə CƏMİ** | | | | | | | **32,662.8** |
| Ödəmə mənbəyində vergi | 102.1.22 | 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri | + | - | 2016-02-01 | 2023-02-01 | **30,690.0** |
| Ödəmə mənbəyində vergi | 102.1.22-1 | Bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan fiziki şəxslərin dividend gəlirləri | + | - | 2018-11-30 | Müddətsiz | **1,972.8** |
| **Mənfəət vergisi üzrə CƏMİ** | | | | | | | **39,315.3** |
| Mənfəət vergisi | 106.1.20 | mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi | - | + | 2018-11-30 | Müddətsiz | 34,623.2 |
| Mənfəət vergisi | 106.1.17 | investisiya təşviqi sənədini almış hüquqi şəxsin həmin sənədi aldığı tarixdən əldə etdiyi mənfəətin 50 faizi - 7 il müddətinə. | - | + | 2016-01-19 | Müddətsiz | 2,409.3 |
| Mənfəət vergisi | 106.1.18 | paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. | - | + | 2019-01-01 | 1/1/2029 | 1,495.3 |
| Mənfəət vergisi | 106.1.23 | mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəəti – 3 il müddətinə; | - | + | 2018-12-01 | Müddətsiz | 392.3 |
| Mənfəət vergisi | 106.1.19 | vergi ödəyicisinin azı 3 (üç) il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi; | - | + | 2018-11-30 | Müddətsiz | 214.7 |
| Mənfəət vergisi | 106.1.22 | KOB klasterin iştirakçısı olan hüquqi şəxsin KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi – 7 il müddətinə; | - | + | 2018-11-30 | Müddətsiz | 79.4 |
| Mənfəət vergisi | 106.1.21 | KOB klaster şirkətinin mənfəəti – KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə | + | - | 2018-11-30 | Müddətsiz | 56.4 |

| Vergi Məcəlləsinin müvafiq maddəsi | | Qısa məzmunu | Tam azad olma | Qismən azad olma | Güzəştin qüvvəyə minmə tarixi | Güzəştin bitmə tarixi | Güzəşt və azadolma nəticəsində ildə dövlət büdcəsinə hesablanmayan məbləğ (min.manat) |
|---|---|---|---|---|---|---|---|
| Mənfəət vergisi | 106.10 | aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan hüquqi şəxslərin dividend gəlirləri vergidən azaddır. | + | - | 2018-11-30 | Müddətsiz | 44.2 |
| Mənfəət vergisi | 106.1.24 | “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi orqanın (qurumun) haqqı ödənilən ictimai işlərin təşkili ilə bağlı fəaliyyətdən əldə etdiyi gəlir. | + | - | 2018-11-30 | Müddətsiz | 0.6 |
| **Əlavə Dəyər Vergisi üzrə CƏMİ** | | | | | | | **237,908.1** |
| ƏDV | 164.1.27 | buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı | + | - | 2017-01-01 | 2024-01-01 | 67,026.5 |
| ƏDV | 164.1.37 | Heyvan və quş ətinin satışı | + | - | 2020-01-01 | 2024-01-01 | 28,227.7 |
| ƏDV | 164.1.46 | Heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr | + | - | 2020-01-01 | 2024-01-01 | 22,854.5 |
| ƏDV | | Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə | - | + | 2020-11-20 | Müddətsiz | 22,051.2 |
| ƏDV | 164.1.31 | Mineral gübrələrin, pestisidlərin idxalı və satışı | + | - | 2016-05-06 | Müddətsiz | 18,769.9 |
| ƏDV | | Xüsusi iqtisadi zonalar haqqında qanunlar çərçivəsində aparılan əməliyyatlar üzrə | - | + | 2020-11-20 | Müddətsiz | 15,492.7 |
| ƏDV | 164.1.34 | Bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı; | + | - | 2016-05-06 | Müddətsiz | 7,149.7 |
| ƏDV | 164.1.51 | “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi sığorta xidmətlərinin göstərilməsi | + | - | 2020-01-01 | 2022-01-01 | 4,474.3 |
| ƏDV | 164.1.30 | toxum və tinglərin idxalı və satışı | + | - | 2016-05-06 | Müddətsiz | 3,604.5 |
| ƏDV | 164.1.48 | Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi | + | - | 2020-01-01 | 2022-01-01 | 2,742.9 |
| ƏDV | 164.1.43 | kəpəyin istehsalı və satışı | + | - | 2019-03-01 | 2024-01-01 | 2,316.2 |
| ƏDV | 164.1.29 | Damazlıq heyvanların idxalı və satışı | + | - | 2016-05-06 | Müddətsiz | 1,240.3 |

# VERGİ SAHƏSİNDƏ GÜZƏŞT VƏ AZADOLMALAR 2016-2021

| Vergi Məcəlləsinin müvafiq maddəsi | | Qısa məzmunu | Tam azad olma | Qismən azad olma | Güzəştin qüvvəyə minmə tarixi | Güzəştin bitmə tarixi | Güzəşt və azadolma nəticəsində ildə dövlət büdcəsinə hesablanmayan məbləğ (min.manat) |
|---|---|---|---|---|---|---|---|
| ƏDV | 164.1.32 | Toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı; | + | - | 2016-05-06 | Müddətsiz | 1,127.3 |
| ƏDV | 164.1.45 | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2020 Futbol çempionatı ilə əlaqədar UEFA, onu təmsil edən, habelə onun yaratdığı və tərəfindən səlahiyyətləndirilmiş hüquqi şəxslər tərəfindən çempionatla bağlı malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi | - | + | 2019-03-01 | 8/1/2021 | 794.7 |
| ƏDV | 165.1.7 | Müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidentinə podratçı tərəfindən, podratçıya isə onunla birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi | + | - | 2016-05-01 | 2021-05-01 | 663.2 |
| ƏDV | 164.1.42 | "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən haqqı ödənilən ictimai işlərin təşkili ilə əlaqədar işçi qüvvəsinin təqdim edilməsi üzrə əməliyyatlar. | + | - | 2018-11-30 | Müddətsiz | 264.9 |
| ƏDV | 164.1.47 | Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binanın yaşayış və qeyri-yaşayış sahələrinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi üzrə dövriyyələr | + | - | 2019-11-29 | Müddətsiz | 145.7 |
| ƏDV | 164.1.49 | Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışları ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında mal, iş və xidmətin təqdim edilməsi | + | - | 2018-01-01 | 2024-01-01 | 42.2 |
| ƏDV | 164.1.44 | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası tərəfindən verilmiş təsdiqedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu ilə əlaqədar UEFA, onun yaratdığı qeyri-rezident hüquqi şəxslər və qeyri-rezident futbol klubları (assosiasiyaları) tərəfindən həmin oyunla bağlı malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi | - | + | 2019-03-01 | 8/1/2021 | 7.4 |
| ƏDV | 164.1.50 | Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslərin mülki aviasiya fəaliyyəti çərçivəsində hava gəmilərinin və hava gəmilərinin mühərriklərinin rezident hüquqi şəxslərə icarəyə və ya lizinqə verilməsi | + | - | 2019-11-29 | Müddətsiz | 4.5 |
| ƏDV | 164.1.36 | Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi, habelə bankın iflas proseduru çərçivəsində aktivlərinin təqdim edilməsi | + | - | 2017-01-01 | 2022-01-01 | 1.9 |
| ƏDV | | Digər güzəşt və azadolmalar üzrə | - | + | 2020-11-20 | Müddətsiz | 38,905.7 |

| Vergi Məcəlləsinin müvafiq maddəsi | | Qısa məzmunu | Tam azad olma | Qismən azad olma | Güzəştin qüvvəyə minmə tarixi | Güzəştin bitmə tarixi | Güzəşt və azadolma nəticəsində ildə dövlət büdcəsinə hesablanmayan məbləğ (min.manat) |
|---|---|---|---|---|---|---|---|
| **Əmlak vergisi üzrə CƏMİ** | | | | | | | **11,629.6** |
| Əmlak vergisi | 199.14 | Mikro sahibkarlıq subyekti olan şəxslər əmlak vergisini ödəməkdən azaddırlar (mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər istisna olmaqla). | + | - | 2018-11-30 | Müddətsiz | 4,778.6 |
| Əmlak vergisi | 199.16 | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) qərarına əsasən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi və onun mülkiyyətində (balansında) olan əmlaka görə 2019-cu il yanvarın 1-dən 5 il müddətinə əmlak vergisini ödəməkdən azaddır. | + | - | 2019-01-01 | 2024-01-01 | 3,217.9 |
| Əmlak vergisi | 199.11 | İnvestisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən müvafiq investisiya layihəsi çərçivəsində investisiya vəsaiti hesabına əldə edilmiş (alınmış, gətirilmiş, istehsal edilmiş, tikilmiş və ya quraşdırılmış) əmlakına görə 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddır. Bu maddə ilə müəyyən edilmiş azadolma investisiya təşviqi sənədi alınan tarixədək əldə edilmiş və hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən sahibkarlıq fəaliyyətində istifadə edilmiş əmlaklara tətbiq edilmir. Bu maddə ilə müəyyən edilən azadolma investisiya layihəsi çərçivəsində sahibkarlıq fəaliyyətinə cəlb edilən və əvvəllər vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilməyən binalara da şamil edilir. | + | - | 2016-01-19 | Müddətsiz | 3,062.9 |
| Əmlak vergisi | 199.15 | KOB klaster şirkətləri KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən KOB klaster fəaliyyətində istifadə olunan əmlaklara görə 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar. | + | - | 2018-11-30 | Müddətsiz | 570.2 |
| **Torpaq vergisi üzrə CƏMİ** | | | | | | | **454.19** |
| Torpaq vergisi | 207.5 | İnvestisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddır. | + | - | 2016-01-19 | Müddətsiz | 439.96 |
| Torpaq vergisi | 207.7 | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) qərarına əsasən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi və onun mülkiyyətində (balansında) olan torpağa görə 2019-cu il yanvarın 1-dən torpaq vergisini ödəməkdən azaddır. | + | - | 2019-01-01 | Müddətsiz | 13.04 |
| Torpaq vergisi | 207.6 | KOB klaster şirkətləri KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə mülkiyyətində və ya istifadəsində olan və KOB klaster fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq vergisini ödəməkdən azad edilirlər. | + | - | 2018-11-30 | Müddətsiz | 1.18 |

| Vergi Məcəlləsinin müvafiq maddəsi | | Qısa məzmunu | Tam azad olma | Qismən azad olma | Güzəştin qüvvəyə minmə tarixi | Güzəştin bitmə tarixi | Güzəşt və azadolma nəticəsində ildə dövlət büdcəsinə hesablanmayan məbləğ (min.manat) |
|---|---|---|---|---|---|---|---|
| **Sadələşdirilmiş vergi üzrə CƏMİ** | | | | | | | **94,110.0** |
| Sadələşdirilmiş vergi | 218-1.1.5 | Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə | + | - | 2019-11-30 | Müddətsiz | 87,780.0 |
| Sadələşdirilmiş vergi | 218-1.1.6 | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqların, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqlarının və vətəndaşların bağ sahələrinin təqdim edilməsi | + | - | 2018-11-30 | Müddətsiz | 5,010.0 |
| Sadələşdirilmiş vergi | | Digər güzəşt və azadolmalar üzrə | | | 2019-01-01 | 2022-01-01 | 1,320.0 |

## QEYRİ-NEFT SƏNAYESİNDƏ GÖRÜLMÜŞ İŞLƏR

- Qeyri-neft sənayesində məhsul buraxılışı 2016-cı ilə nisbətən **2021-ci ildə 74.8% artmış** və **15 milyard manatdan** artıq məbləğ təşkil etmişdir;

- Qeyd olunan dövrdə qeyri-neft sənayesində **əsas kapitala yönəldilmiş investisiyalar 55.6% artaraq** (sabit qiymətlərlə) 2 milyard manatı keçmişdir;

- Qeyd edilməlidir ki, 2018-ci ilə qədər qeyri-neft sənayesinin illik artım templəri 10%-dən aşağı olmuşdursa, 2018-ci ildən sonra stabil olaraq 10%-dən artıq olmuş, **2021-ci ilin 11 ayına əsasən isə 20.7% təşkil etmişdir**;

- Qeyd olunan dövrdə **qeyri-neft sənaye məhsullarının ixracı təqribən 2.1 dəfə artmışdır**;

- Sənaye parkları və sənaye məhəllələri yaradılmış, sənaye zonalarına 6.3 milyard manata yaxın investisiya qoyulmuş, sənaye zonalarında **5 milyard manatdan artıq məhsul istehsal edilmiş**, o cümlədən **1.4 milyard manata yaxın məhsul ixrac edilmişdir**. Sənaye zonalarında **9500-ə yaxın faktiki iş yeri** yaradılmışdır;

- Hesabat dövründə 430 sahibkarlıq subyektinə 513 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi sənədləri ilə əhatə olunan layihələrin ümumi investisiya dəyəri 4.6 milyard manatdan çox olmuşdur. Bu layihələr çərçivəsində **34770 nəfərdən artıq şəxsin işlə təmin olunması** proqnozlaşdırılır;

- 2016-2021-ci illərdə qeyri-neft sənayesində çalışan sahibkarlara və muzdlu işçilərə geniş həcmdə və müxtəlif səpkidə güzəşt və azadolmalar tətbiq edilmişdir;

# QEYRİ-NEFT SƏNAYESİNDƏ GÖRÜLMÜŞ İŞLƏR

- Sənaye parklarının rezidentləri 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunmuşdurlar;

- İnvestisiya təşviqi sənədi əldə etmiş sahibkarlara mənfəət və ya **gəlir vergisindən 50% azadolma**, torpaq və əmlak vergisindən tam azadolma, layihə çərçivəsində idxal olunan texnikanın gömrük rüsumundan və ƏDV-dən azadolması qanunvericiliklə təsbit olunmuşdur;

- **Fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərinə**, ictimai işlərə cəlb edilən işçilərinin bu fəaliyyətlə əlaqədar gəlirlərinə **vergi azadolmaları tətbiq edilmişdir**;

- İctimai (elm, təhsil, səhiyyə və digər), xeyriyyə məqsədilə verilən vəsaitlərə, nağdsız qaydada aparılan pərakəndə satışdan gəlirlərə, dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlirlərə azadolmalar tətbiq edilmişdir;

- Mikro sahibkarlar üçün **sahibkarlıq fəaliyyətindən gəlirin və ya mənfəətin 75%-nə azadolma tətbiq edilmişdir**;

- Startapların **"Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir və ya mənfəəti 3 il** müddətinə vergidən azad edilmişdir;

- KOB klasteri iştirakçılarının əldə etdiyi gəlirin və ya mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi 7 il müddətinə vergidən azad edilmişdir.

## QEYRİ-NEFT SƏNAYE MƏHSULLARININ İXRACI



- Dövlət büdcəsindən kənd təsərrüfatına ayrılan vəsaitin məbləği 2016-cı ildə 585,4 milyon manat, 2021-ci il üzrə 943,0 milyon manat təşkil etmiş, 2016-cı illə müqayisədə ayrılmış vəsaitin məbləği **1,6 dəfə artmışdır**.
- 2020-ci il yanvarın 1-dən başlayaraq **subsidiyalar vahid mexanizm tətbiq edilməklə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS)** vasitəsilə verilməsinə başlanılmışdır. Müəyyən edilmiş 200 manat baza məbləğinə əmsallar tətbiq edilməyə başlanılmışdır.
- **"Aqrar sığorta haqqında"** Qanun qəbul edilmiş, **"Aqrar Sığorta Fondu"** yaradılmış, **"Aqrar sığorta Qaydaları"**, "Aqrar sığorta predmetinin Tərkibi", "Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi" təsdiq edilmiş və bu da ölkədə aqrar sığortanın stimullaşdırılmasına imkan vermişdir.
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması nəticəsində **qida təhlükəsizliyi sahəsində** 5 ayrı dövlət qurumunun **həyata keçirdiyi funksiyalar vahid dövlət qurumunda** cəmləşmişdir.
- **Pambıqçılığın**, **tütünçülüyün**, **baramaçılığın**, **ipəkçiliyin** və **çayçılığın inkişafına dair dövlət proqramları** təsdiq edilmişdir.
- Ölkədə intensiv meyvə bağlarının salınmasına (fındıq, nar, zeytun, limon, portağal, naringi) dəstək məqsədilə hər hektara **birdəfəlik subsidiyanın verilməsinə başlanılmışdır**.
- Meyvə və giləmeyvə bağlarının ümumi sahəsi 2016-cı ildəki 171,8 min hektardan 2020-ci ildə 213,8 min hektara çatmış, müvafiq olaraq istehsal 882,8 min tondan 1133,1 min tona, hər hektardan məhsuldarlıq 65,7 sentnerdən 70,3 sentnerədək artmışdır. Üzüm istehsalı 1,5 dəfə artaraq 2016-cı ildəki 136,5 min tondan 2021-ci ildə 208,0 min tona çatmışdır.

# 2016-2021-Cİ İLLƏRDƏ KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ ƏSAS NAİLİYYƏTLƏR

- İstixanaların sahəsi 2017-ci ildəki 3,3 min hektardan 2021-ci ildə 4,1 min hektara çatmışdır.
- Ölkədə özəl baytarlıq fəaliyyətinin yaradılması və genişləndirilməsi məqsədilə pilot layihənin icrasına başlanılmışdır. 2022-ci ilin sonunadək Nazirliyin tabeliyindəki baytarlıq idarələrinin strukturuna daxil olan sahə baytarlıq məntəqələrinin mərhələli şəkildə ləğvi və özəl xidmətə keçməsi nəzərdə tutulur.
- Aqrar Kredit və İnkişaf Agentliyinə kənd təsərrüfatı sahəsində mikrokreditlərin stimullaşdırılması məqsədilə müvafiq səlahiyyətlər verilmişdir. Mikrokreditlər üzrə təminatın verilməsi mexanizmi müəyyən edilmişdir.
- 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 iyul tarixinə kimi Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan **ixrac sifarişlərinin dəyəri 2 milyard 479 milyon ABŞ dolları** təşkil etmişdir. Daxil olan sifarişlər arasında kənd təsərrüfatı məhsullarının **payı 35 faiz** təşkil etmişdir. Eyni zamanda, azexport.az portalı vasitəsilə Azərbaycanda istehsal olunan məhsullara Sərbəst Satış Sertifikatı verilməyə başlanılmışdır ki, bunun da nəticəsi olaraq 2018-ci ildən etibarən Azərbaycandan Okeaniya, Körfəz, Asiya və Amerika Qitəsi ölkələrinə emal olunmuş kənd təsərrüfatı məhsullarının ixracında artım müşahidə olunmuşdur.
- İxrac üçün ənənəvi olmayan çəyirdəkli meyvələr, bostan məhsulları və çiyələyin ixracı artmağa başlamışdır.
- Kənd təsərrüfatı və emal məhsullarının ixracı 2016-cı ildə 565,095.4 min ABŞ dolları təşkil etdiyi halda, bu rəqəm 2020-ci ildə 1,6 dəfə artaraq 926,216.1 min ABŞ dollarına çatmışdır.
- Azərbaycanın xarici ölkələrdəki səfirliklərində ticarət nümayəndəliyinin yaradılması ixrac potensialımızın artmasına şərait yaratmışdır. Ticarət nümayəndəliklərinin 4-ü artıq fəaliyyətə başlamış, 1-i isə təsis edilmşdir.
- Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələri əsasında dövlət aqrar inkişaf mərkəzləri, bir neçə tabeli qurumlarının birləşməsi nəticəsində Nazirlik yanında **Aqrar Xidmətlər Agentliyi yaradılmışdır**.

- Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində **Enerji Məsələlərini Tənzimləmə Agentliyi** publik hüquqi şəxs yaradılmışdır.

- Elektroenergetika və qaz təchizatı sahəsində fəaliyyət göstərən dövlətə məxsus hüquqi şəxslər arasında qarşılıqlı borc və ödəniş məsələlərinin tənzimlənməsi, habelə daxil olmuş vəsaitlərdən səmərəli istifadə məqsədilə xüsusi hesab yaradılmış və qarşılıqlı ödənişlərin avtomatik rejimdə aparılması təmin edilməklə, **uzun illər ölkədə mövcud olan qarşılıqlı ödəməmə probleminə son qoyulmuşdur**.

- Ölkədə elektrikə əlçatanlığın təmin olunması məqsədilə vətəndaşların və sahibkarların elektrik şəbəkəsinə qoşulması ilə bağlı qanunvericilik təkmilləşdirilmiş və onlayn qoşulma sistemi istifadəyə verilmişdir. Vətəndaşlar və sahibkarlar olduqları məkanı tərk etmədən "Enerji təchizatı şəbəkəsinə qoşulmaq üçün Elektron Müraciətlərin İdarə Olunması Sistemi"ndən istifadə etməklə elektron formada tikinti obyektlərini enerji təchizatı şəbəkəsinə qoşa bilərlər.

- Alternativ və bərpa olunan enerji potensialının qiymətləndirilməsi və investisiya qoyuluşu tələb olunan elektrik stansiyalarının istismar və maliyyələşmə formasının seçilməsi tədbirlərinə uyğun olaraq, "ACWA Power" şirkəti ilə **240 MVt gücündə külək**, "Masdar" şirkəti ilə isə **230 MVt gücündə günəş stansiyalarının tikintisi** barədə müvafiq müqavilələr imzalanmışdır.

- **"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında"** Azərbaycan Respublikası Qanun qəbul edilmişdir.

- **"Qlobal Rəqabətlilik Hesabatı"**na əsasən Azərbaycan 2019-cu ildə elektrik enerjisinin əlçatanlıq əmsalına görə maksimum nəticə əldə edərək **141 ölkə arasında 2-ci pilləyə yüksəlmişdir**.

- Təhsil sahəsində qanunvericilik bazası təkmilləşdirilmiş, **“Məktəbəqədər təhsil haqqında”**, **“Ümumi təhsil haqqında”** və **“Peşə təhsili haqqında”** Qanunlar qəbul edilmişdir.

- Əmək münasibətləri, məşğulluq, sosial təminat sahələrində islahatlar davam etdirilmiş, **“2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”**, **“İşsizlikdən sığorta haqqında”**, **“Məşğulluq haqqında”** Qanunlar qəbul edilmişdir.

- Təhsil Nazirliyi yanında **Peşə Təhsili üzrə Dövlət Agentliyi**, habelə **Peşə Təhsilinin İnkişafı Fondu**, **Təhsilin İnkişafı Fondu** yaradılmışdır.

- Əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə **Təhsil Tələbə Krediti Fondu** yaradılmışdır.

- Əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsini və monitorinqləri həyata keçirən, təhlil və proqnozlar hazırlayan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində **“Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya”** yaradılmışdır.

- **“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”** təsdiq edilərək, ikili diplom proqramlarının icrasına, habelə Azərbaycan vətəndaşlarının xaricdə doktorantura səviyyəsində təhsilinin dövlət tərəfindən maliyyələşdirilməsinə başlanmışdır.

- Son illər ərzində təhsilə investisiyalar artmışdır. Ümumilikdə, ümumi büdcə xərcləmələrində təhsil xərcləmələrinin payının 2016-ci ildə 9,9 faizdən 2021-ci ildə 11,5 faizə yüksəldilməsi gözlənilir. **Təhsil xərcləmələrinin ÜDM-də payı** 2016-ci ildə 2,9 faizdən 2021-ci ildə **3.6 faizə qədər artmırılması gözlənilir**.
- Peşə təhsili müəssisələrinin rasionallaşdırılması və optimallaşdırılması ilə bağlı tədbirlər görülmüş, bir sıra peşə təhsili müəssisəsinin bazasında müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış peşə təhsili mərkəzləri yaradılmışdır.
- Pilot peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında tərəfdaşlıq əlaqələri genişləndirilmiş, 2020-ci il ərzində 14 işəgötürən ilə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmış, istehsalat təcrübəsinin təşkilinə ümumilikdə 1189 işəgötürən dəstək göstərmiş və 13269 tələbə cəlb edilmişdir.
- Dövlət peşə təhsili müəssisələrində çalışan müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə 2018-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış **müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılmışdır**.
- Peşə təhsili müəssisələrinin rasionallaşdırılması və optimallaşdırılması tədbirləri davam etdirilmişdir. 2018-ci ildə regionlarda rasionallaşdırma və optimallaşdırma tədbirlərinin davamı olaraq 20 peşə təhsili müəssisəsinin bazasında 10 ixtisaslaşmış Peşə Təhsil Mərkəzi yaradılmışdır. Ümumilikdə 55 peşə təhsili müəssisəsinin bazasında müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış **24 Peşə Təhsil Mərkəzi yaradılmışdır**.
- Seçilmiş pilot peşə təhsili müəssisələrinin qurulması üzrə tədbirlər planı hazırlanmışdır. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi Koreya təhsil standartları əsasında yenidən qurulmuş, 9 istiqamət üzrə texniki peşə, 2 istiqamət üzrə isə yüksək-texniki peşə təhsilinin tədrisi imkanı yaradılmışdır.

# 2016-2021-Cİ İLLƏR ƏRZİNDƏ HƏYATA KEÇİRİLMİŞ İNSTİTUSİONAL İSLAHATLAR

- Makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının **Maliyyə Sabitliyi Şurası** və iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması məqsədilə **Azərbaycan Respublikasının İqtisadi Şurası** yaradılmışdır.

- Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya yaradılmışdır.

- Azərbaycan Respublikasının Prezidenti yanında **Apellyasiya Şurası** və Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır.

- Azərbaycan Respublikasının **Dövlət İmtahan Mərkəzi** publik hüquqi şəxsi yaradılmışdır.

- **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi** yaradılmışdır.

- Azərbaycan Respublikasının **Mənzil İnşaatı Dövlət Agentliyi** yaradılmışdır.

- Təhsil Nazirliyi yanında **Peşə Təhsili üzrə Dövlət Agentliyi** yaradılmışdır.

- “Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 24 noyabr 2016-cı il tarixli 1125 nömrəli Fərmanına əsasən mərkəzi icra hakimiyyəti orqanının statusuna malik və ya bərabər sayılan müvafiq dövlət orqanları əsasında müvafiq publik hüquqi şəxslər yaradılmışdır.

# 2016-2021-Cİ İLLƏR ƏRZİNDƏ HƏYATA KEÇİRİLMİŞ İNSTİTUSİONAL İSLAHATLAR

- Azərbaycan Respublikasının **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi** yaradılmışdır.
- Azərbaycan Respublikasının **Qida Təhlükəsizliyi Agentliyi** yaradılmışdır.
- Energetika Nazirliyinin tabeliyində **Enerji Məsələlərini Tənzimləmə Agentliyi** yaradılmışdır.
- **"Azərbaycan Sənaye Korporasiyası"** Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.
- Azərbaycan Respublikasının **Dövlət Turizm Agentliyi** yaradılmışdır.
- **"Azərbaycan Turizm Bürosu"** publik hüquqi şəxs yaradılmışdır.

- Minimum əmək haqqının məbləği 105 manatdan 300 manata çatdırılmışdır.
- Büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əmək haqqının məbləği orta hesabla 2 dəfə artırılmışdır.
- Orta aylıq əmək haqqı 494 manatdan 723 manata (2021-ci ilin 10 ayı üzrə) çatdırılmışdır.
- Əmək pensiyasının minimum məbləği 110 manatdan 240 manata çatdırılmışdır.
- Təyin olunmuş aylıq pensiyaların orta məbləği 192 manatdan 331 manata (2021-ci ilin 11 ayı üzrə) çatdırılmışdır.
- Yaşa görə aylıq müavinətin məbləği 66 manatdan 180 manata çatdırılmışdır.
- Əlilliyə görə ödənilən aylıq müavinətin məbləği də 2 dəfədən çox artırılmışdır:
    - I dərəcə əlilliyə görə ödənilən sosial müavinətin məbləği 74 manatdan 220 manata çatdırılmışdır;
    - II dərəcə əlilliyə görə 55 manatdan 180 manata;
    - III dərəcə əlilliyə görə 48 manatdan 120 manata.
- Sağlamlıq imkanları məhdud uşaqlara ödənilən aylıq müavinətin məbləği 74 manatdan 200 manatadək qaldırılmışdır.

- Ailə başçısını itirməyə görə müavinət 61 manatdan 100 manatadək artmışdır.
- Beşdən çox uşağı olan qadınlara müavinət - hər uşaq üçün 30 manatdan 70 manata çatdırılmışdır.
- Müddətli hərbi xidmət qulluqçularının uşaqlarına müavinət 61 manatdan 120 manata çatdırılmışdır.
- Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət 55 manatdan 120 manata çatdırılmışdır.
- Uşağın anadan olmasına görə birdəfəlik müavinət 99 manatdan 300 manata çatdırılmışdır.
- Dəfn üçün birdəfəlik müavinət 132 manatdan 350 manatadək artırılmışdır.
- Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələrə verilən Prezident təqaüdü - 165 manatdan 210 manata çatdırılmışdır.
- Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 1300 manatdan 1450 manata çatdırılmışdır.
- Fəxri adlara görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü artırılmışdır:
    - “Xalq” – 100 manatdan 180 manatadək;
    - “Əməkdar” – 60 manatdan 120 manatadək

- Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü 1300 manatdan 1800 manata çatdırılmışdır.
- Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü 01.01.2021-ci il tarixində təsis edilmişdir (2000 manat).
- "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün məbləği 110 manatdan 300 manatadək artırılmışdır.
- Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü – 220 manatdan 500 manata qaldırılmışdır.
- I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü, 01.04.2019-cu ildə təsis edilmiş və 50 manatdan 80 manata çatdırılmışdır.
- Ümumi səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü 01.04.2019-cu ildən təsis edilmişdir və 130 manat təşkil edir.
- Ümumi səbəblərdən I dərəcə gözdən əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü 01.01.2021-dən təsis edilmişdir və 210 manat təşkil edir.

- Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi tədqiqat və ya təhsil müəssisələrində azı 25 il çalışmış elmi dərəcəsi olan işləməyən əmək pensiyası hüququ olan elmlər doktoru elmi dərəcəsinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 01.01.2021-ci ildə təsis edilmişdir:
    - Elmlər doktoru elmi dərəcəsinə görə 200 manatdan 300 manatadək;
    - Fəlsəfə doktoru elmi dərəcəsinə görə 120 manatdan 200 manatadək.
- “Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü artırılmışdır:
    - I dərəcə əlilliyi olan şəxslərə – 165 manatdan 400 manatadək;
    - II dərəcə əlilliyi olan şəxslərə – 143 manatdan 350 manatadək;
    - III dərəcə əlilliyi olan şəxslərə – 110 manatdan 300 manatadək.
- Əhalinin hər nəfərinə düşən gəlirlər 4 710 manatdan 5 707 manata çatmışdır.
- Azərbaycan əhalisinin mənzilə sahib olmaq imkanlarının artırılması və yaşayış səviyyəsinin daha da yüksəldilməsi məqsədilə dövlət başçısının 11 aprel 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi yaradıldı. Agentliyin yaradılması eyni zamanda tikinti sektorunun stimullaşdırılması və ipoteka bazarının daha da inkişafına xidmət etmişdir.

- 2016-cı ilin noyabr ayında isə əhaliyə göstərilən tibb xidmətlərinin keyfiyyətini daha da yüksəltmək və icbari tibbi sığorta sistemini tətbiq etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılmış və icbari tibbi sığortanın tətbiqi üzrə pilot layihələrin həyata keçirilməsinə başlanılmışdır.

- Qeyri-formal məşğulluğun leqallaşdırılmasında şəffaflıq təmin edilməsi istiqamətində nailiyyətlər əldə olunmuşdur. Belə ki, əmək müqavilələrinin sayı 1 250 105-dən 1 672 694-də (2021-ci ilin 11 ayı üzrə) qədər artmışdır.

- Vətəndaşlara verilən ipoteka kreditlərinin həcmi 2006-2015-ci illərdə ümumilikdə 721,9 milyon manat təşkil edirdisə, 2016-2021-ci illərdə verilmiş ipoteka kreditlərinin həcmi 1,4 milyard manat təşkil etmişdir.

# VƏTƏNDAŞLARIN MƏNZİL ƏLÇATANLIĞI, MADDİ RİFAHI, SOSİAL SAHƏDƏ İSLAHATLAR

(2016-cı il ilə müqayisədə 2021-ci ilin sonuna qədər verilmiş qərarlar daxil olmaqla)

## MİNİMUM ƏMƏK HAQQI




## ORTA AYLIQ ƏMƏK HAQQI

* - 2021-ci ilin 10 ayı üzrə




## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN TƏŞKİLATLARDA ÇALIŞAN İŞÇİLƏRİN ƏMƏK HAQQI






## VƏTƏNDAŞLARIN MƏNZİL ƏLÇATANLIĞI, MADDİ RİFAHI, SOSİAL SAHƏDƏ İSLAHATLAR
(2016-cı il ilə müqayisədə 2021-ci ilin sonuna qədər verilmiş qərarlar daxil olmaqla)



## ƏLİLLİYƏ GÖRƏ ÖDƏNİLƏN AYLIQ MÜAVİNƏT




### I DƏRƏCƏ ƏLİLLİYƏ GÖRƏ




### II DƏRƏCƏ ƏLİLLİYƏ GÖRƏ




### III DƏRƏCƏ ƏLİLLİYƏ GÖRƏ



# VƏTƏNDAŞLARIN MƏNZİL ƏLÇATANLIĞI, MADDİ RİFAHI, SOSİAL SAHƏDƏ İSLAHATLAR
(2016-cı il ilə müqayisədə 2021-ci ilin sonuna qədər verilmiş qərarlar daxil olmaqla)

## UŞAĞIN ANADAN OLMASINA GÖRƏ BİRDƏFƏLİK MÜAVİNƏT




## SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARA ÖDƏNİLƏN AYLIQ MÜAVİNƏT



## ŞƏHİD AİLƏSİ ÜÇÜN PREZİDENT TƏQAÜDÜ



## AİLƏ BAŞÇISINI İTİRMƏYƏ GÖRƏ MÜAVİNƏT




## VALİDEYNLƏRİNİ İTİRMİŞ UŞAQLARIN QƏYYUMLARINA ÖDƏNİLƏN MÜAVİNƏT



# VƏTƏNDAŞLARIN MƏNZİL ƏLÇATANLIĞI, MADDİ RİFAHI, SOSİAL SAHƏDƏ İSLAHATLAR

(2016-cı il ilə müqayisədə 2021-ci ilin sonuna qədər verilmiş qərarlar daxil olmaqla)



## MÜHARİBƏ VƏ YA 1990-CI İLİN 20 YANVAR HADİSƏLƏRİ İLƏ ƏLAQƏDAR ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ PREZİDENT TƏQAÜDÜ

I DƏRƏCƏ ƏLİLLİYƏ GÖRƏ

II DƏRƏCƏ ƏLİLLİYƏ GÖRƏ

III DƏRƏCƏ ƏLİLLİYƏ GÖRƏ



# MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİYYATIN ƏSAS SEKTORLARI ÜZRƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNİN 2017-2021-Cİ İLLƏR ÜZRƏ

# TƏFSİLATLI İCRA VƏZİYYƏTİ

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İQTİSADİYYAT PERSPEKTİVİ ÜZRƏ STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. “Qızıl qayda” prinsipi ilə uzlaşdırmanın həyata keçirilməsi | “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1198-VQD nömrəli Qanunu qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı ilə “Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası” təsdiq edilmişdir. |
| 2 | 1.1.2. “Qızıl qayda” mexanizminin və parametrlərinin müəyyənləşdirilərək qəbul edilməsi | |
| 3 | 1.2.1. Ortamüddətli Xərclər Çərçivəsinin yaradılması | "Ortamüddətli xərclər çərçivəsinin icrasının təmin edilməsi ilə bağlı əlavə tədbirlər və “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 4 fevral tarixli 513 nömrəli Fərmanı ilə pilot sektorlar üzrə Ortamüddətli xərclər çərçivəsinin 2021-ci ildən tətbiq olunması nəzərdə tutulmuşdur. Ortamüddətli Xərclər Çərçivəsi (“Təhsil”, “Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” bölmələri üzrə) 2021-ci ilin dövlət büdcəsi layihəsində öz əksini tapmışdır. |
| 4 | 1.2.2. Nəticəəsaslı büdcə mexanizminin təşkil edilməsi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası” təsdiq edilmiş, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 dekabr tarixli 571 nömrəli Qərarı ilə “Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası” təsdiq edilmişdir. |
| 5 | 1.3.1. Makroiqtisadi koordinasiyanın təmin edilməsi | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanı ilə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 iyul tarixli 1565 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının Əsasnaməsi" təsdiq edilmişdir (09.09.2020-ci il tarixdə 995 nömrəli fərman və 12.02.2021-ci il tarixdə 1565 nömrəli fərman ləğv edilmişdir).<br>Azərbaycan Respublikası Prezidentinin 2020-cı il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanı ilə iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması məqsədilə Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 fevral tarixli 1285 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının İqtisadi Şurası haqqında Əsasnamə" təsdiq edilmişdir. |
| 6 | 1.3.2. Yeni alternativ lövbərin hədəflənməsi | Yeni alternativ lövbərin hədəflənməsi üzrə ilkin hazırlıq işləri görülmüş və müvafiq hədəflər müəyyən edilmişdir. |
| 7 | 1.3.4. Banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi | Banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə müvafiq Tədbirlər Planı hazırlanaraq təsdiq edilmiş və həmin Tədbirlər Planı əsasında zəruri tədbirlərin icrası təmin olunmuşdur. Banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə “Banklar haqqında” qanunda və digər normativ hüquqi aktlara əlavə və dəyişikliklər edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1360 nömrəli Fərmanı ilə "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası" təsdiq edilmişdir.<br>"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli 551 nömrəli Fərmanı imzalanmışdır. |
| 8 | 1.3.5. Adekvat iqtisadi gözləntilərin formalaşdırılması və idarə edilməsi | Pul siyasətinin ictimaiyyətə səmərəli çatdırılmasının təmin edilməsi üçün kommunikasiya strategiyası hazırlanaraq təsdiq edilmiş, pul siyasəti gözləntiləri kommunikasiya olunmuş, inflyasiyanın hədəf diapazonu çərçivəsində saxlanılması təmin edilmişdir. |

| | | |
|---|---|---|
| 9 | 2.1.1. Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı normativ bazanın yaradılması | Azərbaycan Respublikasının Nazirlər Kabineti 4 iyun 2019-cu il tarixli 257 nömrəli qərarı ilə “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası”, “Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları” və “Dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvlərinə onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə (“Performance Based Remuneration System”) bonus ödənişlərinin verilməsi qaydası” təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 7 avqust 2020-ci il tarixli 1120 nömrəi Fərmanı ilə “Azərbaycan İnvestisiya Holdinqi” yaradılmış və “Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi” təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2020-ci il tarixli 2210 nömrəli Sərəncamı ilə "Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının tərkibi təsdiq edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2020-ci il tarixli 1174 nömrəli Fərmanı ilə "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı" təsdiq olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında sözügedən siyahıda göstərilən müvafiq dövlət müəssisələri ilkin mərhələdə Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmişdir. |
| 10 | 2.1.1. Dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatın müəyyən edilməsi | Dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatı müəyyən edən meyarlar nəzərə alınmaqla “Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı” yenilənmişdir. |
| 11 | 2.1.2-1. Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması | “Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2016-cı il tarixli 1003 nömrəli Fərmanına uyğun olaraq müvafiq sahədə işlərin sürətləndirilməsi məqsədi ilə zəruri tədbirlər həyata keçirilmiş, Özəlləşdirmə portalı yaradılmış, bir sıra müəssisələrdə müvafiq restrukturizasiya tədbirləri aparılaraq idarəetmə strukturları optimallaşdırılmış, 6 səhmdar cəmiyyətinin səhmləri satılaraq, onların tam olaraq özəlləşdirilməsi təmin edilmişdir. |
| 12 | 3.1.1. Məktəbəqədər təhsillə əhatəolunma səviyyəsinin yüksəldilməsi və təlim-tərbiyə texnologiyalarının təkmilləşdirilməsi | "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 14 aprel 2017-ci il tarixli 585-VQ nömrəli Qanunu qəbul edilmiş, Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq dövlət büdcəsi hesabına ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların məktəbəhazırlığına başlanmışdır. 5 yaşlı uşaqların təhsilə cəlb edilməsi səviyyəsi 2013-cü ildəki 24 faizdən 2020-ci ildə 80%-ə çatdırılmışdır. İcma əsaslı məktəbəqədər təhsil layihəsi çərçivəsində uşaqların sayı isə 9207 nəfərə çatdırılmışdır. |
| 13 | 3.1.2. Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi və təmayülləşmənin inkişaf etdirilməsi | "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli 1532-VQ nömrəli Qanunu qəbul edilmiş, ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi uğurla başa çatdırılmış, ümumilikdə 150 mindən çox müəllimin həftəlik dərs yükü 1.5 dəfə, vəzifə maaşı 2 dəfə artırılmışdır. |
| 14 | 3.1.3. Peşə və orta ixtisas təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması | "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 24 aprel 2018-ci il tarixli 1071-VQ nömrəli Qanunu qəbul edilmiş, peşə təhsili müəssisələrinin optimallaşdırılması çərçivəsində 55 peşə təhsili müəssisəsinin bazasında 24 peşə təhsil mərkəzi yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə “Peşə təhsilinin dövlət standartları” və “Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası” təsdiq edilmişdir. |
| 15 | 3.1.4. Ali təhsil müəssisələrində “təhsil- tədqiqat-innovasiya” formatında inkişafın təşviqi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Ali təhsilin əlçatanlığının artırılması və gənclərin ali təhsilə cəlb olunmasının stimullaşdırılması məqsədilə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu proqnozu və dövlət sifarişi üzrə isə qəbul planı artırılmışdır. “Ali təhsil müəssisələrinə “Tədqiqat universiteti” statusu verilməsi üçün Tələblər” təsdiq edilmişdir. Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti kimi bir sıra universitetlərdə diferensiallaşmış əməkhaqqı və stimullaşdırma sisteminin tətbiqinə başlanılmışdır. |
| 16 | 3.1.6. İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi | 147 ümumtəhsil məktəbində 25 000-dən çox şagirdi birləşdirən STEAM layihəsinin tətbiqinə başlanmış, Riyaziyyat müəllimləri üçün beynəlxalq “PolyUp” platformasından istifadə və hesablama düşüncəsinin artırılması üzrə ixtisasartırma üzrə təlimlər keçirilmişdir. Azərbaycan beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirakını bərpa etmiş və nəticələrini yaxşılaşdırmışdır. |

| | | |
|---|---|---|
| 17 | 3.1.7. İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi | Ölkə üzrə 4140 təhsil müəssisəsinin təhsil sisteminin korporativ İntranet və İnternet şəbəkələrinə çıxışı təmin edilmiş, təhsil müəssisələri 9000 noutbuk, 262 ədəd “Lego Education Mindstorms EV3” robot dəsti ilə təmin olunmuş, Azərbaycan dilli elektron resursların yaradılması davam etdirilmiş, 760 ədəd “Khan Academy” video dərsləri milli kurikuluma uyğunlaşdırılmış və video.edu.az portalında yerləşdirilmiş, Təhsil Nazirliyinin bütün elektron sistemlərinin bir səhifədən əlçatanlılığının təmin edilməsi məqsədilə tmis.edu.az saytı yaradılmışdır. |
| 18 | 3.2.1. Dəstəkləyici sistemin yaradılması | "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 30 iyun 2017-ci il tarixli 765-VQ nömrəli Qanununa uyğun olaraq, peşə təhsili və təlimlərin təşkili məqsədilə hər il üzrə təsdiq edilən İşsizlikdən Sığorta Fondunun büdcəsindən vəsait ayrılır. Eyni zamanda, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1196-VQ nömrəli Qanununa uyğun olaraq ölkədə işaxtaran və işsiz şəxslərin peşə hazırlığı təmin edilir. Dəstəkləyici sistemin yaradılması tədbirləri çərçivəsində "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, işaxtaran və işsiz şəxslərin işəqəbul prosesinin asanlaşdırılması məqsədilə vakansiya bankı yaradılmışdır. |
| 19 | 3.2.2. İstehsalın və investisiyanın təşviq edilməsi | Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli 745 nömrəli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilmişdir. "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2018-ci il tarixli 451 nömrəli Fərmanı imzalanmış, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi” yaradılmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı ilə "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası" təsdiq edilmişdir. |
| 20 | 3.2.4. Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşması | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 1816 nömrəli Sərəncamı ilə "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. |
| 21 | 4.1.2. Səmərəli vergi sisteminin təşviq edilməsi | Səmərəli vergi sisteminin təşviqi məqsədilə ölkədə sahibkarlığın və iqtisadi inkişafın dəstəklənməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, kiçik və orta sahibkarların inkişafının stimullaşdırılması və onların inzibatçılıq yükünün azaldılması ilə bağlı hazırlanmış müddəalar Azərbaycan Respublikasının müvafiq qanunları ilə (30.11. 2018-ci il, 1356-VQD; 29.11.2019-cu il, 1704-VQD və s.) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə daxil edilmişdir. Səmərəli vergi sisteminin təşviq edilməsi ilə əlaqədar vergi inzibatçılığının daha da təkmilləşdirilməsi üzrə kompleks tədbirlər icra olunmuşdur. |
| 22 | 4.1.3. Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyin artırılması | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı ilə "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" təsdiq olunmuşdur.<br>Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2018-ci il tarixli 263 nömrəli Fərmanı ilə “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”, 3 iyun 2019-cu il tarixli 718 nömrəli Fərmanı ilə “Hökumət buludu” (G-cloud) Konsepsiyası" təsdiq edilmişdir.<br>“Elektron məhkəmə” informasiya sistemi daha da təkmilləşdirilmiş və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilmişdir.<br>“Tikintiyə icazə üzrə elektron müraciət sistemi”, “Elektrik şəbəkəsinə qoşulma üzrə yeni rəqəmsal elektron sistem", "Kommersiya hüquqi şəxslərin rəqəmsal elektron qeydiyyat sistemi", "Dövlət satınalmalarının vahid internet portalı" və digər elektron informasiya sistemləri yaradılmışdır. |

| | | |
|---|---|---|
| 23 | 4.1.4. Azad ticarət sazişlərinin bağlanması | Azad ticarət sazişlərinin bağlanması məqsədilə bir sıra ölkənin təcrübəsi öyrənilmiş, həmin ölkələrin bağladığı analoji sazişlər və onların ticarətə qarşılıqlı təsiri ətraflı təhlil edilmişdir. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişinin imzalanmasına dair Anlaşma Memorandumu” imzalanmışdır. |
| 24 | 4.1.5. Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi | Azərbaycan Respublikasının "Texniki tənzimləmə haqqında" 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli və "Standartlaşdırma haqqında" 17 may 2019-cu il tarixli 1587-VQ nömrəli Qanunları qəbul edilmişdir. |
| 25 | 4.2.1. Biznesin təşkilinin asanlaşdırılması üçün mövcud islahatların sürətləndirilməsi və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın fəaliyyəti təşkil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı" təsdiq edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 avqust tarixli 431 nömrəli Sərəncamı ilə "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya haqqında Əsasnamə" təsdiq edilmiş və Komissiyanın İnternet portalı (https://azranking.az/) yaradılmışdır.<br>Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin ən üst səviyyəyə qaldırılması təmin olunmuşdur. Belə ki, Azərbaycan Dünya Bankının “Doing Business” hesabatının ən son iki buraxılışında ardıcıl olmaqla dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuş, 190 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır (2017-ci il üzrə 65-ci yer).<br>"İqtisadi Azadlıq Hesabatı"na əsasən ölkəmizin mövqeyi 2021-ci ildə 38-ci pillədə qərarlaşmışdır (2016-cı ildə 91-ci yer). Həmin hesabata əsasən, Azərbaycan ilk dəfə olaraq 2021-ci ildə “Orta dərəcədə azad (“Moderately Free”)” ölkələr kateqoriyasından Dünyanın və Avropanın inkişaf etmiş ölkələrinin (ABŞ, Böyük Britaniya, Kanada, Yaponiya, Almaniya və s.) də yer aldığı “Əsasən azad (“Mostly Free”)” ölkələr kateqoriyasına yüksəlmişdir.<br>Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı 2019"-a əsasən Azərbaycan 141 ölkə arasında 58-ci yerdədir (2018-ci ildə 69-cu yer). |
| 26 | 4.2.2. Statistika infrastrukturunun təkmilləşdirilməsi | Rəsmi statistikaya dair metodoloji bazanın inkişaf etdirilməsi, statistik alətlər sisteminin təkmilləşdirilməsi, statistika sistemində keyfiyyətin idarə edilməsi və metaməlumatlar sistemlərinin inkişaf etdirilməsi, statistik istehsal prosesində İKT və statistik innovasiyaların tətbiqinin genişləndirilməsi, dövlət statistika orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr potensialının gücləndirilməsi istiqmaətində tədbirlər görülmüşdür. |

| | | |
|---|---|---|
| 27 | 4.3. İnstitusional islahatların həyata keçirilməsi | 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti, AMEA Yüksək Texnologiyalar Parkı yaradılmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır.<br>"Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 24 noyabr 2016-cı il tarixli 1125 nömrəli Fərmanına əsasən mərkəzi icra hakimiyyəti orqanının statusuna malik və ya bərabər sayılan müvafiq dövlət orqanları əsasında müvafiq publik hüquqi şəxslər yaradılmışdır.<br>2017-ci ildə Nəqliyyat Nazirliyi və Rabitə və Yüksək Texnologiyalar Nazirliyi birləşdirilərək, onların əsasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti, “Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. 2018-ci ildə Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi yaradılmışdır.<br>"Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 28 noyabr 2019-cu il tarixli 1616 nömrəli Fərmanına əsasən Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edilərək müvafiq səlahiyyətlər, habelə əmlak Azərbaycan Respublikasının Mərkəzi Bankına verilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli 1245 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsi yaradılmışdır.<br>Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2021-ci il tarixli 1453 nömrəli Fərmanı ilə ""Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı" yaradılmışdır.<br>2021-ci ildə Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Təhsilin İnkişafı Fondu yaradılmış və fondun fəaliyyəti ilə bağlı sənədlər təsdiqlənmişdir. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.3.3. Tam üzən məzənnə rejiminə keçidin təmin edilməsi | Tədbirin icrası istiqamətində müvafiq araşdırmalar aparılmışdır. |
| 2 | 2.1.2-2. İdarəetmənin təkmilləşdirilməsi və səmərəliliyin yüksəldilməsi məqsədilə dövlət mülkiyyətində olan müəssisələr üzrə islahat proqramının icrası | Azərbaycan Respublikasının Nazirlər Kabineti 4 iyun 2019-cu il tarixli 257 nömrəli qərarı ilə “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası”, “Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları” və “Dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvlərinə onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə (“Performance Based Remuneration System”) bonus ödənişlərinin verilməsi qaydası” təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 7 avqust 2020-ci il tarixli 1120 nömrəi Fərmanı ilə “Azərbaycan İnvestisiya Holdinqi” yaradılmış və “Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi” təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2020-ci il tarixli 2210 nömrəli Sərəncamı ilə "Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının tərkibi təsdiq edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2020-ci il tarixli 1174 nömrəli Fərmanı ilə "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı" təsdiq olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında sözügedən siyahıda göstərilən müvafiq dövlət müəssisələri ilkin mərhələdə Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmişdir. |

| | | |
|---|---|---|
| 3 | 2.2.1. Gələcəkdə özəlləşdirməyə açıq elan edilə biləcək bəzi təsnif olunmuş əmlaklara dair özəlləşdirmə gündəliyinin idarə olunması | "Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1527-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 1 aprel 2019-cu il tarixli Fərmanı, "Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 5 mart 2019-cu il tarixli, 1527-VQ nömrəli Qanunu, "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 4 sentyabr 2019-cu il tarixli 381 nömrəli Qərarı qəbul edilmişdir.<br>Dövlət əmlakının özəlləşdirilməsi və idarəyə verilməsi ilə bağlı normativ hüquqi akt layihəsi hazırlanmışdır. |
| 4 | 2.2.2. Prioritet sektorlarda müəyyən edilmiş özəlləşdirmə yanaşmasının tətbiqi | |
| 5 | 2.3.1. Ən uyğun investor profillərinə struktur yanaşmanın tətbiq edilməsi | Ən uyğun investor profillərinə struktur yanaşmanın tətbiq edilməsi ilə bağlı beynəlxalq təcrübə öyrənilmiş və layihə hazırlanmışdır. |
| 6 | 3.1.5. Elmi tədqiqat fəaliyyətinin inkişafı və biliklərə əsaslanan cəmiyyət quruculuğunun dəstəklənməsi | "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 2018-ci il tarixli 363 nömrəli Fərmanı, "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları''nda dəyişiklik edilməsi barədə" və "Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir. |
| 7 | 3.2.3. İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi | "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli 881 nömrəli Sərəncamı imzalanmışdır. |
| 8 | 4.1.1. Azad rəqabət mühitinin inkişaf etdirilməsi | İqtisadi artım üçün əlverişli şəraitin yaradılmasına cavabdeh olan dövlət orqanlarının koordinasiyalı fəaliyyətinin təmin edilməsi məqsədi ilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23.10.2019-cu il tarixli 845 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi dövlət xidməti statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilmişdir. Rəqabət qanunvericiliyinin daha da təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübə öyrənilərək Rəqabət Məcəlləsi layihəsinin təkmilləşdirilməsi üzrə işlər aparılmışdır. |
| 9 | 4.2.3. Yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi | Birbaşa xarici investisiyaların təşviqi ilə bağlı strategiya layihəsi hazırlanması ilə bağlı işlər davam etdirilir. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA AĞIR SƏNAYE VƏ MAŞINQAYIRMANIN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Qənaətli istehsal metodları üzrə təhlil aparılması | Qənaətli istehsal metodları üzrə beynəlxalq təcrübə araşdırılmışdır, layihələr hazırlanmış, qənaətli istehsal metodları ilə bağlı məlumatlandırma məqsədilə analitik və təşviq nəşrləri ("Qənaətli istehsal üsulları: istehsalın “dartıcı” sistemi (“PULL” production)", "Qənaətli istehsal üsulları: Poka-Yoke") çap edilmişdir. |
| 2 | 1.1.2. Özəl investisiya əsasında model müəssisənin (zavodun) yaradılmasının dəstəklənməsi | 2018-ci ilin 29 mart tarixində Neftçala Sənaye Məhəlləsində “Xəzər” avtomobil zavodunun açılışı olmuşdur. 2018-ci ilin 22 may tarixində Bakının Suraxanı rayonunda “ATEF Şirkətlər Qrupu”nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olmuşdur. 2018-ci ilin 16 noyabr tarixində Sumqayıt Kimya Sənaye Parkında “Baku Non Ferrous and Foundry Company” MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışı olmuşdur. |
| 3 | 1.1.3.Sənaye müəssisələrinin kadr təminatının yaxşılaşdırılması | Əmək bazarının tələblərinə uyğun ali təhsilin bakalavriat səviyyəsinin “Metallurgiya mühəndisliyi” və “Maşın mühəndisliyi”, “Mədən mühəndisliyi” və “Neft-qaz mühəndisliyi” ixtisasları üzrə yeni səriştə əsaslı təhsil proqramları hazırlanaraq təsdiq edilmişdir. 2020-2021-ci tədris ilindən həmin təhsil proqramları müvafiq ali təhsil müəssisələrində tətbiq edilir. Eyni zamanda, 2019-cu il ərzində Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin bazasında Koreya təhsil standartları əsasında yaradılmış yeni Peşə Təhsil Mərkəzində tədris olunan 8 ixtisas üzrə kurikulum və modul/dərs vəsaitləri hazırlanmışdır.<br>Peşə təhsili müəssisələri ilə bazar subyektləri arasında əməkdaşlıq əlaqələrinin qurulması davam etdirilmişdir. |
| 4 | 1.1.5. Sahəvi assosiasiyaların yaradılmasının dəstəklənməsi və müntəzəm fəaliyyətinin təmin edilməsi | 2018-ci ilin 28 dekabr tarixində Bakı Biznes Mərkəzində sözügedən sahədə fəaliyyət göstərən müəssisələrin nümayənədlərinin iştirakı ilə “Maşın və avadanlıq istehsalçıları” Assosiasiyasının təsis yığıncağını keçirilmişdir. |
| 5 | 1.2.1. Enerji balansının optimallaşdırılması, tələb və təklifin uzlaşdırılması | Azərbaycan Respublikasının müvafiq illər üzrə yanacaq-enerji balansının proqnoz göstəriciləri layihəsi hazırlanaraq aidiyyəti qaydada təsdiq edilmişdir.<br><br>“Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən 2022-ci il və sonrakı üç il üçün ölkənin yanacaq-enerji balansını hazırlayıb təsdiq edilməsi tapşırılmışdır. |
| 6 | 1.2.2. Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması | Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması məqsədilə Tarif Şurasının müvafiq Qərarı ilə enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan **alüminium sənayesi müəssisələri** üçün elektrik enerjisinin gecə vaxtı (saat 22.00-dan 08.00-a qədər) tarifləri gündüz vaxtı (saat 08.00-dan 22.00-a qədər) tariflərinə nisbətən daha aşağı müəyyən edilmişdir. |

| | | |
|---|---|---|
| 7 | 1.2.3. Strateji müəssisələr üçün güzəştli tariflərin müəyyənləşdirilməsi | Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması məqsədilə Tarif Şurasının müvafiq Qərarı ilə enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan **alüminium sənayesi müəssisələri** üçün elektrik enerjisinin gecə vaxtı (saat 22.00-dan 08.00-a qədər) tarifləri gündüz vaxtı (saat 08.00-dan 22.00-a qədər) tariflərinə nisbətən daha aşağı müəyyən edilmişdir.<br><br>Eyni zamanda, enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan **məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərinin istehlak etdikləri elektrik enerjinin təchizatı (satışı)** “Energetika haqqında” Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə uyğun olaraq **sərbəst, xərclərin azaldılması və bazar qiymətlərinə istiqamətlənmiş qiymətlə** həyata keçirilir. |
| 8 | 1.2.4. Enerji istehlakçılarının enerjidən səmərəli istifadəyə yönləndirilməsi | İstehsal prosesində enerjidən səmərəli istifadəyə dair ən yaxşı beynəlxalq nümunələri əks etdirən “Enerji istehlakçılarının enerjidən səmərəli istifadəyə yönləndirilməsinə dair təcrübələr əks olunmuş bülleten” hazırlanmış, sənaye müəssisələrinə göndərilmişdir. |
| 9 | 1.2.5. Ağır sənaye, xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi | Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması məqsədilə Tarif Şurasının müvafiq Qərarı ilə enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan **alüminium sənayesi müəssisələri** üçün elektrik enerjisinin gecə vaxtı (saat 22.00-dan 08.00-a qədər) tarifləri gündüz vaxtı (saat 08.00-dan 22.00-a qədər) tariflərinə nisbətən daha aşağı müəyyən edilmişdir. |
| 10 | 1.3.1. Sənayedə istifadə olunmayan aktivlərin mərkəzi reyestrinin yaradılması | Sənayedə istifadə olunmayan aktivlərin mərkəzi reyestri yaradılmışdır. |
| 11 | 1.3.1-1. Sənayedə istifadə olunmayan təbii resursların mərkəzi reyestrinin yaradılması | Tədbirin icrası istiqamətində müvafiq işlərin həyata keçriilməsi təmin edilmişdir. |
| 12 | 1.3.2-1. Mərkəzi reyestrə daxil olan təbii resursların qiymətləndirilməsi | Tədbirin icrası istiqamətində müvafiq işlərin həyata keçriilməsi təmin edilmişdir. |
| 13 | 2.1.1. Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması | Regional bazarlara ixrac perspektivi olan malların siyahısı və təhlil hesabatı hazırlanmışdır. |
| 14 | 2.2.1. İdxalı yerli istehsalla əvəzlənə bilən məhsulların müəyyən edilməsi | Ölkəyə daha çox idxal olunan ağır sənaye və maşınqayırma məhsullarının siyahısı təhlil edilməklə, Azərbaycanda mənfəətli şəkildə istehsal oluna biləcək məhsullar müəyyənləşdirilmiş, idxalı yerli istehsalla əvəzlənə bilən məhsulların istehsalına yerli investorlar cəlb edilərək investisiya təşviqi sənədi verilmişdir. |
| 15 | 2.2.3. Maşın və avadanlıq, qoşqu və yarımqoşqular, elektrik avadanlığı və digər nəqliyyat vasitələri istehsalı üzrə sahəvi işçi qrupların yaradılması və fəaliyyətinin təmin edilməsi | Maşın və avadanlıq, qoşqu və yarımqoşqular, elektrik avadanlığı və digər nəqliyyat vasitələri istehsalı üzrə sahəvi işçi qrupların yaradılması təmin edilmiş və müvafiq sahədə tədbirlər icra olunmuşdur. |
| 16 | 2.2.5. Müdafiə sənayesi sahəsində birgə istehsal güclərinin yaradılması | Müdafiə sənayesi sahəsində birgə istehsal müəssisələrinin yaradılması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. |
| 17 | 2.4.1. Dağ-mədən sənayesində xidmətlərin təşviqi | Dağ-mədən sektorunda iş zamanı yerli müəssisələr tərəfindən yardımçı xidmətlər göstərilməsinin artırılması məqsədilə dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması sahəsində lisenziyalar verilmişdir. |
| 18 | 3.1.1. İnvestisiya məlumat bankının yaradılması və mütəmadi təhlillər nəticəsində yenilənməsi | www.enterpriseazerbaijan.com investisiya portalı yaradılmış, mütəmadi yenilənməsi təmin edilmişdir. |
| 19 | 3.1.2. İnvestisiya mühitinin yaxşılaşdırılması | İnvestisiya mühiti və biznes mühitinin daha da yaxşılaşdırılması, ölkədə rəqabət şəraitinin cəlbediciliyinin artırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. |

| | | |
|---|---|---|
| 20 | 3.1.4. Sənaye müəssisələri üçün zəruri infrastrukturun təmin edilməsi | Sənaye zonalarında zəruri infrastruktur ehtiyaclarının ödənilməsi, o cümlədən yeni infrastruktur obyektlərinin yaradılması, mövcud infrastrukturun təkmilləşdirilməsi istiqamətində sənaye parkları və sənaye məhəllələrində “Azərbaycan İnvestisiya Şirkəti” ASC, “Sumqayıt Kimya Sənaye Parkı” MMC və “Təmiz Şəhər” ASC tərəfindən müvafiq infrastruktur işləri həyata keçirilmişdir. |
| 21 | 3.2.3. Şəffaflığın artırılması və onlayn resursların məzmununun gücləndirilməsi | Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fondu “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının qanunu və Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 492 nömrəli qərarı ilə təsdiq edilmiş" Standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi Qaydası" əsasında Azərbaycan Standartlaşdırma İnstitutunun (AZSTAND) nəzdində fəaliyyət göstərir. İnstitutun internet səhifəsində "Dövlət standartlarının kataloqu 2021" təqdim edilmişdir. |
| 22 | 3.2.4. Sənaye müəssisələrində milli brendlərin yaradılmasının təşviq edilməsi | Sənaye müəssisələrində milli brendlərin yaradılması istiqamətində dəstəkləyici tədbirlər görülmüş, milli brendlərin tanıdılması sahəsində müvafiq işlərin icrası təmin edilmişdir. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.1.4. Elmi tədqiqat təşkilatları ilə müəssisələr arasında əlaqələrin gücləndirilməsi | Elmi tədqiqat təşkilatları ilə müəssisələr arasında yeni əlaqələr qurulmuşdur. Azərbaycan Texniki Universiteti, İqtisadi İslahatlar Elmi Tədqqiat İnstitutu və Rusiyanın "İnnovativ inkişaf və sertifikatlaşdırma Mərkəzi - İNNOPROM" kommersiya təşkilatı arasında Rusiya Federasiyası və MDB ölkələrində ən yaxşı texnoloji həllərin təbliği , birgə texnoloji layihələrin həyata keçirilməsi məqsədilə əməkdaşlıq müqaviləsi imzalanmış, AMEA Neft-Kimya Prosesləri İnstitutu, Niderland Krallığının "Eninco Engineering B.V." Şirkəti, "AMEA Yüksək Texnologiyalar Parkı" MMC və "Dəmir Texnika Mərkəzi" MMC arasında laborator, texniki-texnoloji avadanlıq bazasında təcrübi-eksperimental istehsalın həyata keçirilməsində birgə əməkdaşlıq məqsədilə anlaşma memorandumu imzalanmışdır. |
| 2 | 1.3.2. Mərkəzi reyestrə daxil olan aktivlərin qiymətləndirilməsi | Sənayedə istifadə olunmayan aktivlərin mərkəzi reyestrinə daxil olan aktivlərdən sanasiya tədbirlərinə tələb olunan investisiya həcmləri hesablanmışdır. |
| 3 | 1.3.3. Canlandırma fəaliyyətinin həyata keçirilməsi | Potensial rəqabət qabiliyyəti yüksək hesab edilən aktivlər (müəssisələr) üzrə texniki-iqtisadi və maliyyə əsaslandırmaları aparılmaqdadır. |
| 4 | 2.2.2. Milli kontentin normativ bazasının gücləndirilməsi | Yerli maşınqayırma müəssisələrinin məhsullarından istifadə səviyyəsi təhlil edilmiş, milli kontentin inkişafı ilə əlaqədar istehlakçı və istehsalçı əlaqələrinin genişləndirilməsi üzrə bir sır tədbirlər görülmüşdür. |
| 5 | 2.2.4. Neft maşınqayırması sahəsində birgə istehsal sahələrinin yaradılması | Ölkəyə idxal olunan əsas neft maşınqayırması avadanlığının istehsalçıları barədə məlumatlar hazırlanmışdır. |
| 6 | 2.3.2. Əlvan metallurgiyanın inkişaf etdirilməsi | Əlvan metallurgiyanın yerli xammal bazası təhlil edilmiş, alüminiumdan son məhsul istehsal edəcək emal müəssisələrinin yenidən qurulması istiqamətində bir sra işlər görülmüşdür. |
| 7 | 2.4.2. Xidmətlərin ixracı imkanlarının genişləndirilməsinin təşviqi | Maşın və avadanlıqların quraşdırılması və təmiri sahəsində həyata keçiriləcək xidmətlər və həmin xidmətləri göstərən müəssisələr müəyyən edilmişdir. |
| 8 | 3.1.3. Yeni maliyyələşmə mexanizmlərinin tətbiq edilməsi | Yeni maliyyələşmə mexanizmlərinin, o cümlədən startapların, vençur fondların, “mələk investorlar”ın (“angel investor”), etimad fondlarının (“trust fund”) tətbiqi ilə bağlı beynəlxalq təcrübə araşdırılmışdır. |
| 9 | 3.2.1. Beynəlxalq standartlaşdırma sisteminə uyğunlaşmanın təmin edilməsi | Azərbaycan Respublikasının "Texniki tənzimləmə haqqında" 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli və "Standartlaşdırma haqqında" 17 may 2019-cu il tarixli 1587-VQ nömrəli Qanunları qəbul edilmişdir. Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fondu “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının qanunu və Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 492 nömrəli qərarı ilə təsdiq edilmiş" Standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi Qaydası" əsasında Azərbaycan Standartlaşdırma İnstitutunun (AZSTAND) nəzdində fəaliyyət göstərir. İnstitutun internet səhifəsində "Dövlət standartlarının kataloqu 2021" təqdim edilmişdir. |
| 10 | 3.2.2. Sənaye müəssisələrində müasir idarəetmə sisteminin qurulması | Beynəlxalq təcrübə nəzərə alınmaqla, sənaye müəssisələrində müasir idarəetmə sisteminin qurulması üzrə təkliflər hazırlanmışdır. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA KOMMUNAL XİDMƏTLƏRİN (ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, SU VƏ QAZ) İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Kommunal xidmətlər sektorunda vahid tənzimləyici orqanın yaradılmasının nəzərdən keçirilməsi | Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli 1750 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi yaradılmışdır. Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, ötürücülər, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin tənzimlənməsini, müəssisələrin fəaliyyətinin təhlilini, restrukturizasiya tədbirləri ilə bağlı təkliflər verilməsini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlər hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarətin təşkilini həyata keçirən publik hüquqi şəxsdir. |
| 2 | 1.1.2. Kommunal xidmətlər sektorunda məqsədli fondun yaradılmasının nəzərdən keçirilməsi | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 mart tarixli 91 nömrəli qərarı ilə “Elektroenergetika və qaz təchizatı sahəsində fəaliyyət göstərən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər arasında qarşılıqlı ödəniş məsələlərinin tənzimlənməsi və daxil olmuş vəsaitlərdən istifadə Qaydası” təsdiq edilmişdir. Buna müvafiq olaraq, elektroenergetika və qaz təchizatı sahəsində fəaliyyət göstərən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər arasında qarşılıqlı ödənişlərin yeni sxem üzrə avtomatik rejimdə aparılmasına başlanılmışdır. |
| 3 | 1.1.3. Kommunal xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi | "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli 434 nömrəli Fərmanına əsasən müvafiq sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma prosesləri daha da sadələşdirilmişdir.<br>“ASAN kommunal” mərkəzlərinin fəaliyyəti genişləndirilmiş, 2020-ci il 12 fevral tarixində Kürdəmir “ASAN Həyat” kompleksinin, 2020-ci il 4 mart tarixində Tovuz “ASAN Həyat” kompleksinin, 2020-ci il 3 iyun tarixində Ağcabədi “ASAN Həyat” kompleksinin və 2020-ci il 29 iyul tarixində Balakən regional “ASAN xidmət” mərkəzinin açılışları olmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan yeni açılmış komplekslərdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə yaradılmışdır və burada “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən vətəndaşlara kommunal xidmətlərin göstərilməsi üçün bütün imkanlar təmin olunmuşdur. |
| 4 | 1.1.4. Kommunal xidmət haqları üzrə yığımın təkmilləşdirilməsi | Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyənləşdirilmiş idarəetmə formalarına uyğun olaraq, idarəedicilərin fəaliyyətindən istifadənin genişləndirilməsi imkanları təhlil edilmiş, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" 18 dekabr 2018-ci il tarixli 1394-VQD nömrəli və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 18 dekabr 2018-ci il tarixli 1395-VQD nömrəli Azərbaycan Respublikasının Qanunları qəbul edilmişdir. |
| 5 | 1.1.5. Kommunal xidmətlər sektorunda kadr potensialının təkmilləşdirilməsi | Kommunal xidmətlər sektorunda kadr potensialının mövcud vəziyyəti təhlil edilmiş, kommunal xidmətlər sektorunda ən çox tələb olunan peşələr müəyyən olunmuş, həmin peşələr üzrə peşə standartları hazırlanmışdır. |

| | | |
|---|---|---|
| 6 | 1.1.6. Kommunal xidmətlər sektorunda təkmil normativ hüquqi bazanın yaradılması | Energetika sektorunda institusional islahatların sürətləndirilməsi, bu sahədəki fəaliyyətin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, sahənin inkişafına özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi və rəqabət mühitinin formalaşdırılması məqsədi ilə “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamı imzalanmışdır.<br>Həmçinin kommunal xidmətlər sektorunda fəaliyyət səmərəliliyinin yüksəldilməsinə imkan verən mexanizmlərin işə salınması istiqamətində istehsalçı, təchizatçı və istehlakçılar arasında münasibətlərin tənzimlənməsi məqsədi ilə  Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq olaraq  2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı ilə “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”, 2020-ci il 9 yanvar tarixli 2 nömrəli Qərarı ilə “Yanacaq ehtiyatının maliyyələşdirilməsi, yaradılması, qorunması, istifadəsi, həcmi və uçotunun həyata keçirilməsi Qaydası”, 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə “Elektrik qurğularının quraşdırılması Qaydası”, 2020-ci il 11 fevral tarixli 41 nömrəli Qərarı ilə “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”, 2020-ci il 24 fevral tarixli 65 nömrəli Qərarı ilə “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası” təsdiq edilmişdir. |
| 7 | 2.1.1. Elektrik enerjisinə olan ölkədaxili ehtiyacın proqnozlaşdırılması | Elektrik enerjisinə ölkədaxili ehtiyacın proqnozlaşdırılmasına dair geniş hesabat hazırlanmış və elektrik enerjisinə ölkədaxili ehtiyac proqnozlaşdırılmışdır. |
| 8 | 2.1.2. Enerji mənbələri üzrə prioritetlərin müəyyən edilməsi üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması | Alternativ və Bərpa olunan enerji mənbələri olan günəş enerjisi, külək enerjisi, hidroenerji, biokütlə və hidroenerji üzrə araşdırmalar aparılmış, prioritet seçilmiş külək və günəş enerjisinin ilkin iqtisadi göstəriciləri hesablanmış, seçilmiş prioritetlər üzrə texniki-iqtisadi əsaslandırma hazırlanmışdır |
| 9 | 2.1.3. İnvestisiya qoyuluşları üzrə maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi | Gücü 385 MVt olan “Qobu” Elektrik Stansiyası (ES) və 1000 MVA gücündə 330/220/110 kV-luq “Qobu” yarımstansiyasının (Y/St) tikintisi (“Qobu Enerji Layihəsi”) ilə əlaqədar 21 avqust 2020-ci il tarixində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən “Qobu” Elektrik Stansiyasının təməli qoyulmuşdur. |
| 10 | 2.1.4. Əlavə istehsal güclərinin yaradılması | 2400 MVt gücündə 1 ədəd istilik elektrik stansiyası yenidən qurulmuş, 4 ədəd elektrik stansiyasının 7 ədəd enerji bloku və ya hidroaqreqatı, 2 ədəd modul elektrik stansiyasının 5 ədəd aqreqatı, 2 ədəd elektrik stansiyasının 930 MVA gücündə blok transformatorları əsaslı təmir olunmuş, elektrik stansiyalarında 1308 MVt yük məhdudiyyəti aradan qaldırılmışdır.<br>Bərpa olunan güclərin 818 MVt-ı istilik elektrik stansiyalarının, 260 MVt-ı modul elektrik stansiyalarının, 230 MVt -ı su elektrik stansiyalarının payına düşür.<br>Şəbəkələrdə 2020-ci il ərzində 1 ədəd yarımstansiyanın tikintisi başa çatdırılmış, 4 ədəd yarımstansiya əsaslı təmir olunmuş, 14 ədəd transformator yeni quraşdırılmış və ya daha güclüsü ilə dəyişdirilmiş, 3 ədəd yarımstansiyada 255 MVA gücündə transformator əsaslı təmir olunmuş, 104,7 km yeni elektrik verilişi xətti çəkilmiş, 2098,4 km elektrik verilişi xətti təmir edilmişdir.<br>2018-ci ildən Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən ölkə enerji sistemində başlayan yeni islahatlara uyğun olaraq, mövcud generasiya güclərinin potensialı artırılması, elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində irimiqyaslı təmir, bərpa və yenidənqurma işləri həyata keçirilmişdir. 2018-ci ilin sentyabr ayında qəbul edilən “Reabilitasiya Proqramı”nın icrası çərçivəsində görülmüş modernləşmə işləri nəticəsində mövcud elektrik stansiyaların qış rejimində 1000 MVt, yay rejimində isə 800 MVt-dan çox “itirilmiş” generasiya gücləri bərpa edilmişdir. |
| 11 | 2.2.1. Alternativ və bərpa olunan enerji potensialının qiymətləndirilməsi | Ölkənin alternativ və bərpa olunan enerji potensialı qiymətləndirilərək, investisiya potensialının ən böyük olduğu regionlar müəyyənləşdirilmiş, işlərin görülməsi üçün ən böyük istehsal gücü və ən böyük tələbatı olan ərazilər yaxınlığında investisiya qoyuluşlarını prioritetləşdirməklə vaxt qrafiki və planı hazırlanmışdır |

| | | |
|---|---|---|
| 12 | 2.2.2. İnvestisiya qoyuluşu tələb olunan elektrik stansiyalarının istismar və maliyyələşmə formasının seçilməsi | "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin 5 dekabr 2019-cu il tarixli 1673 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələri (külək və günəş) üzrə elektrik stansiyalarının tikintisi ilə bağlı pilot layihələrin həyata keçirilməsi və icrasının əlaqələndirilməsi məqsədilə Komissiya yaradılmışdır. "Qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2020-ci il tarixli 2366 nömrəli Sərəncamı imzalanmış, habelə Azərbaycan Respublikasının Prezidentinin 30 aprel 2021-ci il tarixli 2619 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Hökuməti və “ACWA Power Azerbaijan Renewable Energy” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında Ərazi 1 və Xızı 3 Külək Enerjisi Layihəsi haqqında İnvestisiya müqaviləsi” təsdiq edilmişdir. |
| 13 | 2.2.3. Görülən tədbirlərlə bağlı ictimaiyyətin məlumatlandırılması | Alternativ enerji potensialından istifadə və karbonsuz elektrik enerjisi istehsalı ilə bağlı ictimaiyyətin məlumatlandırılması planı hazırlanmış və icra edilmişdir. |
| 14 | 2.3.1. İxrac imkanlarının araşdırılması | Elektrik enerjisi ixracının əsaslandırılması məqsədilə elektrik enerjisinin istehsalı üçün yanacaq və digər xərclər, gömrük xərcləri, tranzit xərcləri və bazarda iştirak etmək üçün xərclər təhlil edilmişdir. Eyni zamanda, təbii qazın həmin qonşu ölkələrin topdansatış bazarına çıxarılması xərcləri də qiymətləndirilmişdir. |
| 15 | 2.3.2. İxrac potensialının reallaşdırılması üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması | Elektrik enerjisinin ixrac imkanları araşdırılaraq, enerji bazarında inkişaf dinamikası öyrənilmiş, ixrac imkanları üçün infrastruktur və xərclər təhlil edilmiş, ixrac üçün potensial ölkələr müəyyən edilmişdir. İxrac potensialının reallaşdırılması üçün texniki-iqtisadi əsaslandırma hazırlanmışdır. |
| 16 | 2.3.3. İxracla bağlı həyata keçiriləcək tədbirlər üzrə işçi qrupun yaradılması | İşçi qrup yaradılmış, yeni potensial satış imkanlarının aşkarlanması məqsədilə araşdırma aparılmışdır. Qonşu Gürcüstan və İran İslam Respublikası ilə elektrik enerjisi mübadiləsinin yaxşılaşdırılması, ixrac imkanlarının artırılması məqsədilə yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilmiş, 43,4 km məsafədə 330 kV-luq “Ağstafa–Qardabani” EVX tikilərək istismara verilmiş, ixrac gücü iki dəfə (700 MVt) artmışdır. |
| 17 | 3.1.1. Elektrik stansiyalarının potensialından səmərəli istifadənin təmin edilməsi | 2018-ci ilin sentyabr ayında qəbul edilən “Reabilitasiya Proqramı”nın icrası çərçivəsində görülmüş modernləşmə işləri nəticəsində mövcud elektrik stansiyaların qış rejimində 1000 MVt, yay rejimində isə 800 MVt-dan çox “itirilmiş” generasiya gücləri bərpa edilmişdir. Aparılmış modernləşdirmə işləri nəticəsində səmərəlilik artırılmaqla, elektrik enerjisinin keyfiyyət göstəriciləri yüksəldilmiş, itkilərin səviyyəsi azaldılmışdır. Şərti yanacaq sərfinin 2018-ci ildəki 284,0 qr/kVts-dan 262,8 qr/kVts-a enməsi nəticəsində 609,6 mln. m3 təbii qaza qənaət olunmuş, enerjisistem üzrə texniki itkilər 2018-ci ildəki 2,24 %-dən 1,74 %-ə enmişdir. |
| 18 | 3.1.2. Elektrik stansiyalarının özəlləşdirilmə imkanlarının nəzərdən keçirilməsi | Elektrik stansiyalarının özəlləşdirilmə imkanlarının qiymətləndirilmiş, təkliflər hazırlanmışdır. |
| 19 | 3.2.1. Səmərəliliyin artırılması məqsədilə icra mexanizmlərinin müəyyənləşdirilməsi | Aparılmış modernləşdirmə işləri nəticəsində səmərəlilik artırılmaqla, elektrik enerjisinin keyfiyyət göstəriciləri yüksəldilmiş, itkilərin səviyyəsi azaldılmışdır. Şərti yanacaq sərfinin 2018-ci ildəki 284,0 qr/kVts-dan 262,8 qr/kVts-a enməsi nəticəsində 609,6 mln. m3 təbii qaza qənaət olunmuş, enerjisistem üzrə texniki itkilər 2018-ci ildəki 2,24 %-dən 1,74 %-ə enmişdir. |
| 20 | 3.2.2. Modernləşdirmə işləri üçün baş planın hazırlanması | 2018-ci ilin sentyabr ayında qəbul edilən “Reabilitasiya Proqramı”nın icrası çərçivəsində görülmüş modernləşmə işləri nəticəsində mövcud elektrik stansiyaların qış rejimində 1000 MVt, yay rejimində isə 800 MVt-dan çox “itirilmiş” generasiya gücləri bərpa edilmişdir. |
| 21 | 3.2.3. Elektrik enerjisi verilişinin keyfiyyətini izləyən əsas icra göstəricilərinin (ƏİG) tətbiq edilməsi | İstehlakçılar, xüsusən də yük dəyişkənliklərinin baş verdiyi sənaye qurğularına malik polad və alüminium istehsalçıları üçün elektrik enerjisi verilişinin keyfiyyətini izləyən ƏİG-lərin müəyyən edilməsi istiqamətində hazırlanmış “Elektrik enerjisinin əsas keyfiyyət göstəricilərinə nəzarət və elektrik enerjisinin keyfiyyət göstəricilərini təhrif edən mənbənin (mənbəyə istiqamətin) təyin edilməsi üzrə Standart” hesabat dövründə Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən qeydiyyata alınmış (standart institutun 29 dekabr 2019-cu il tarixli əmri ilə təsdiq edilmiş, 02.02.2020-ci il tarixindən qüvvəyə minmişdir) və hazırda ondan irəli gələn işlərin görülməsi üçün “Azərenerji” ASC və “Azərişıq” ASC-yə, eləcə də iri polad və alüminium istehsalçılarına göndərilmişdir. |

| | | |
|---|---|---|
| 22 | 3.2.4. İtkilərin azaldılması üçün sayğacların quraşdırılması | Ötürücü və paylayıcı şəbəkələrin inkişafını nəzərə alaraq, elektrik enerjisinin uçot sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər planı hazırlanaraq icra edilmiş, sayğaclardan əldə edilən məlumatların dəqiqləşdirilməsi üçün monitorinqlər aparılmışdır.<br>2020-ci il ərzində ümumilikdə, 231908 ədəd olmaqla, əhali istehlakçılarına aid 214078 ədəd, qeyri-əhali istehlakçılarına aid 17830 ədəd uçot dəsti bərpa olunmuşdur. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjisinin ümumi yığım səviyyəsi 96%-ə çatdırılmışdır. |
| 23 | 3.2.5. Elektrik enerjisinə yaranacaq tələbatın qarşılanması məqsədilə elektrik şəbəkələrində işlərin aparılması | Elektrik enerjisinə yaranacaq tələbatın qarşılanması məqsədilə hazırlanmış tədbirlər planı icra edilmişdir. Bu məqsədlə, Xəzər rayonunda 110/35/10 kilovoltluq “Buzovna-1”, Yasamal rayonunda 110/35/10 kilovoltluq “Bayramzadə”, Pirallahı rayonunda 110/35/6 kilovoltluq “Pirallahı” yarımstansiyaları müasir üslubda tam qapalı inşa edilərək istismara verilmişdir. |
| 24 | 3.2.6. Elektrik enerjisinin ötürülmə və paylanma sisteminin təkmilləşdirilməsi | Elektrik enerjisinə yaranacaq tələbatın qarşılanması məqsədilə hazırlanmış tədbirlər planı icra edilmiş, Bakı şəhərinin elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisinə artan tələbatın ödənilməsi üçün 110/35/10 kV-luq 2x50 MVA gücündə “Bayramzadə” yarımstansiyası inşa edilmiş, Abşeron yarımadasının elektrik təchizatının dayanıqlığının və etibarlılığının artırılması, növbəti 110 kV-luq dairəvi sxeminin yaradılması və dövlət əhəmiyyətli obyektlərin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə 110/35/10 kV-luq 2x40 MVA gücündə “Buzovna-1” yarımstansiyası istismara verilmiş, Ağcabədi rayonundakı 110/35/10 kV-luq 2x20 MVA gücündə “Ağcabədi-2” və Tərtər rayonundakı 110/35/6 kV-luq 40-25 MVA gücündə “Tərtər” yarımstansiyaları yenidənqurmadan sonra istifadəyə verilmişdir.<br>Regionlarda elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi uçotunun dəqiq aparılması üçün istismar müddətini başa vurmuş 0,4 kV-luq elektrik şəbəkələrində yenidənqurma işləri yerinə yetirilmiş, bu işlər 46 rayonu, 91 kənd və qəsəbəni əhatə etməklə 2020-ci il ərzində 42 kənd üzrə tam yekunlaşdırılmışdır. |
| 25 | 3.2.7. Ötürücü və paylayıcı şəbəkə üzrə məlumat bankının yaradılması | "Azərişıq" ASC tərəfindən Elektron Xəritə üzərində İdarəetmə Sisteminin məlumat bazası genişləndirilərək təkmilləşdirilmiş, Elektron Müraciətlərin İdarə Olunması Sisteminə çevrilmişdir. |
| 26 | 3.2.8. İtkilər barədə ictimaiyyətin məlumatlandırılması | İtkilərin minimuma endirilməsi işlərinin hədəf və nəticələri ictimaiyyətə açıqlanmışdır. 2020-ci ildə “Azərişıq” ASC tərəfindən texniki itkilərin xüsusi çəkisi 8,9%-ə endirilmişdir (2019-cu ildə 9,7%). |
| 27 | 3.2.9. İtkilərin azaldılması layihələrinin prioritetləşdirilməsi | “Azərişıq” ASC-nin balansında olan və gərginliyi 110 kV-dan aşağı olan elektrik paylayıcı şəbəkədəki mövcud itkilər müəyyən edilmiş və mövcud maliyyələşmə imkanları çərçivəsində bu itkilərin prioritetləşdirilməsi həyata keçirilmişdir. |
| 28 | 3.3.3. İstehlakçıların sərfiyyat proqnozlarının nəzərdən keçirilməsi | Tarif dəyişikliklərinin elektrik sərfiyyatına təsiri təhlil edilmiş, gələcək sərfiyyat proqnozları nəzərdən keçirilməklə, daxili tələbatın artımı müəyyənləşdirilmişdir. |

| | | |
|---|---|---|
| 29 | 4.1.1. Mövcud şəbəkənin hərtərəfli qiymətləndirilməsi və inkişaf planının hazırlanması | Qazpaylama infrastrukturu olmayan ərazilərdə qazpaylama şəbəkəsinin yaradılması və ya modernləşdirilməsi üçün baş plan hazırlanmışdır. Dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsünə uyğun olaraq, yaşayış massivlərinin qazlaşdırılması işləri davam etdirilmişdir.<br>2020-ci ilin yanvar-sentyabr ayları ərzində 7214,6 km yeni qaz kəməri quraşdırılmış, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 225 km qaz kəməri əsaslı təmir olunmuşdur. Aparılan tikinti-quraşdırma işləri nəticəsində 158 yaşayış məntəqəsi qazlaşdırılaraq təbii qazla təmin edilmişdir. |
| 30 | 4.1.2. Qazpaylama xətlərinin tikintisi üçün tenderlərin elan edilməsi | Qazpaylama xətlərinin çəkilməsi üçün təchizatçının seçilməsinə və tikinti işlərinin gedişatının izlənilməsinə imkan verən meyarları əhatə edən tender elanlarının verilməsi istiqamətində müvafiq işlər icra olunmuşdur. |
| 31 | 4.1.3. Tikinti fəaliyyəti ilə bağlı əsas icra göstəricilərinin (ƏİG) müəyyənləşdirilməsi | Tikinti fəaliyyəti ilə bağlı əsas icra göstəriciləri hazırlanmış və tikinti işlərinin müəyyən edilmiş əsas icra göstəricilərinə uyğun həyata keçirilməsinə nəzarət təmin edilmişdir. |
| 32 | 4.1.4. Yığım səviyyəsinin maksimuma çatdırılması və təbii qazdan qanunsuz istifadəyə qarşı cərimələrin tətbiqinin nəzərdən keçirilməsi | SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi istehlakçıların təbii qazla təchiz edilməsi, yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində fəaliyyəti davam etdirilməklə, 2020-ci ilin sentyabr ayına ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 1,954,584-ə çatmışdır.<br>Sentyabr ayı ərzində əhali sektoru üzrə 80 598 529 kub metr həcmində təbii qaz satılmış və qarşılığında 135,08 faiz vəsait toplanmışdır. |
| 33 | 4.1.5. Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ mənbələrlə təminatının həyata keçirilməsi | Ucqar yaşayış məntəqələrinin qazlaşdırılmasının səmərəliliyinin təhlili aparılmış, bu sahədə beynəlxalq təcrübə və problemlərin həlli yolları öyrənilmiş, eləcə də qazlaşdırılması texniki-iqtisadi cəhətdən səmərəli olmayan yaşayış məntəqələrinin alternativ enerji təminatı ilə bağlı konkret təkliflər hazırlanmışdır. |
| 34 | 5.1.1. İnfrastrukturun olmadığı ərazilər üzrə qiymətləndirmə aparılması | İçməli və ya tullantı su infrastrukturunun olmadığı ərazilər üzrə, səmərəlilik nəzərə alınmaqla qiymətləndirmə aparılmışdır. |
| 35 | 5.1.2. Sayğaclaşma səviyyəsinin yüksəldilməsi və qeyri-əhali qrupu üzrə tam başa çatdırılması | Sayğacların istifadə səviyyəsinin ölçülməsi, habelə abonent bazası üzrə istismarda olan suölçən cihazlara yerində baxışın keçirilməsi məqsədi ilə "Sudan istifadə qaydaları"na müvafiq qaydada təftiş (monitorinq) aparılır.<br>Görülmüş tədbirlər nəticəsində 2020-ci ildə sayğacı olmayan qeydiyyatlı istifadəçilərin xüsusi çəkisi 14 faizə enmişdir (2015-ci ildə 39 faiz). |
| 36 | 5.1.3. İnfrastruktura investisiya qoyuluşları üzrə tenderlərin elan edilməsi | Tədbirin icrası çərçivəsində təchizatçının seçilməsinə və tikinti işlərinin gedişatının izlənilməsinə imkan verən meyarları əhatə edən tender elanları verilmiş, tender nəticəsində, baş plana uyğun olaraq infrastrukturun təkmilləşdirilməsi ilə bağlı zəruri işlərin həyata keçirilməsi təmin olunmuşdur. |
| 37 | 6.1.2. Su ehtiyatlarından səmərəli istifadə məqsədilə tədbirlər görülməsi | Su və kanalizasiya xidmətləri üzrə mövcud qiymətlərin müqayisəli araşdırılması və optimal tarif səviyyəsinə uyğunlaşdırılması ilə bağlı araşdırma aparılması təmin olunmuş, Su və kanalizasiya xidmətləri üzrə mövcud qiymətlərin araşdırmalar nəticəsində müəyyən edilmiş optimal tarif səviyyəsinə uyğunlaşdırılması ilə bağlı təkliflər hazırlanmışdır.<br>“Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tariflərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 13 may tarixli 6 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Tarif (qiymət) Şurasının 30 yanvar 2021-ci il tarixli Qərarı ilə Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tarifləri dəyişdirilmişdir. |
| 38 | 6.1.3. Su və kanalizasiya xidmətləri üzrə optimal tarif səviyyəsinin nəzərdən keçirilməsi | Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2021-ci il 30 yanvar tarixli 5 nömrəli Qərarı ilə “Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tariflərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 13 may tarixli 6 nömrəli Qərarında dəyişiklik edilmişdir. |
| 39 | 6.1.4. Su və kanalizasiya xidmətlərindən istifadə edən xüsusi istehlakçı qrupları üzrə sosial proqramların hazırlanması | "Azərsu" ASC üzrə uzunmüddətli perspektivdə fasiləsiz və keyfiyyətli su təchizatını təmin etmək məqsədilə proqnoz göstəricilər müəyyən edilmişdir. |
| 40 | 7.1.1. İstilik mənbələrinin yaradılması, bərpası və yenidən qurulması | "Azəristiliktəchizat" ASC tərəfindən rayon istilik qazanxanalarında istehsal edilən istilik enerjisinin paylanması funksiyasını yerinə yetirən istilik məntəqələrinin, tədricən yenidən qurulmaqla, məhəlli qazanxanalara çevrilməsi layihələrinin iqtisadi təhlili aparılmışdır. İstiliklə təmin edilən yaşayış və qeyri yaşayış binalarının sayı 2020-ci ildə 2015-ci ilə nəzərən 39,7 faiz artmışdır. |
| 41 | 7.1.2. Alternativ və bərpaolunan enerji mənbələrindən istifadə edilməsi | Yeni yaşayış tikililərində istilik enerjisi almaq məqsədilə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin tətbiqinin stimullaşdırılması ilə bağlı araşdırma və təhlillər aparılmış, isitmə məqsədilə günəş, külək, bioqaz və geotermal enerjisindən istifadə edilməsi üzrə layihə konseptləri hazırlanmışdır. |

| | | |
|---|---|---|
| 42 | 7.1.3. Enerji səmərəliliyinin və enerjiyə qənaətin yaxşılaşdırılması | Yaşayış və qeyri-yaşayış sahələrinin istilik enerjisi ilə təminatı üçün enerji daşıyıcılarından səmərəli istifadə üzrə monitorinq aparılmış, monitorinqlərin nəticələrinə uyğun olaraq, enerji daşıyıcılarından qeyri-effektiv istifadənin qarşısını ala biləcək tədbirlər müəyyənləşdirilərək icra edilmişdir. |
| 43 | 7.1.4. İstilik enerjisindən istifadə zamanı ətraf mühitin qorunması üçün tədbirlər görülməsi | Ətraf mühitin qorunması məqsədilə "Azəristiliktəchizat" ASC tərəfindən bir sıra qazanxanalar qazlaşdırımaqla, yenidənqurma işləri aparılmış, mazut yanacağından qaz yanacağına keçilmişdir. |
| 44 | 7.1.5. İstilik təchizatı üçün enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi | İstilik təchizatı üçün seçilmiş prioritet enerji mənbələrindən istifadənin stimullaşdırılması və səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatlar aparılmışdır.<br>İstilik təchizatında fəaliyyət səmərəliliyinin yüksəldilməsinə imkan verən mexanizmlərin işə salınması istiqamətində istehsalçı, təchizatçı və istehlakçılar arasında münasibətlərin tənzimlənməsi məqsədi ilə "Elektrik və istilik qurğularının texniki istismar Qaydası", "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası" və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq olaraq  2019-cu il 30 dekabr tarixli 520 nömrəli, 2020-ci il 11 fevral tarixli 41 nömrəli, 2020-ci il 24 fevral tarixli 65 nömrəli qərarları ilə təsdiq edilmişdir. |
| 45 | 7.3.2. İstilik xidməti üzrə büdcə təşkilatları üçün nəzərdə tutulan limitlərin optimallaşdırılması | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 aprel 2019-cu il tarixli 164 nömrəli Qərarı ilə "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası" təsdiq edilmişdir. |
| 46 | 7.3.3. İsti su xidməti tariflərinin liberallaşdırılması | Hazırda isti su tarifləri istehlakçılarla imzalanmış müqavilə əsasında müəyyənləşdirilmişdir. Tənzimlənənlər siyahısından çıxarılmışdır. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 3.1.3. İnvestor seçmək üçün tenderlərin elan edilməsi | Gücü 385 MVt olan "Qobu" Elektrik Stansiyası (ES) və 1000 MVA gücündə 330/220/110 kV-luq "Qobu" yarımstansiyasının (Y/St) tikintisi ("Qobu Enerji Layihəsi") ilə əlaqədar 21 avqust 2020-ci il tarixində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən "Qobu" Elektrik Stansiyasının təməli qoyulmuşdur. |
| 2 | 3.3.1. İstehlakçılarla istehsalçıların maraqlarının uzlaşdırılması üçün optimal qiymətlər müəyyənləşdirilməsinin nəzərdən keçirilməsi | Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" 2021-ci il 16 oktyabr tarixli 14 nömrəli Qərarı ilə elektrik enerjisinin ölkədaxili tarifləri təsdiq edilmişdir. |
| 3 | 3.3.2. Elektrik enerjisindən istifadə modellərinin müzakirə olunması | Elektrik enerjisindən istifadə modellərini və tələbini müəyyənləşdirmək üçün mühüm sənaye tərəfdaşlarının təmsilçiləri ilə müzakirələr aparılmışdır.<br>"Elektrik enerjisi tariflərinin müəyyənləşdirilməsi üzrə tarif metodologiyası" layihəsi hazırlanaraq aidiyyəti qurumların rəy və təklifləri əssında təkmilləşdirilmişdir. |
| 4 | 3.4.1. Elektroenergetika sahəsində əsas tənzimləyici qanunun və digər əlaqəli sənədlərin təkmilləşdirilməsi | "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 4.2-ci bəndinə uyğun olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsi hazırlanmışdır. |
| 5 | 3.4.2. Topdansatış bazarının yaradılması | Elektrik enerjisi üzrə topdansatış bazarının yaradılması ilə bağlı müsbət beynəlxalq təcrübəyə əsaslanan araşdırmalar aparılmış və geniş hesabat hazırlanmışdır. Aparılmış araşdırmalar və təhlillər nəticəsində elektrik enerjisinin istehsalından pərakəndə satışa qədər dəyər zəncirinin bütün həlqələrinin (istehsal, ötürmə, paylama və təchizat) idarəçilik nöqteyi-nəzərindən bir-birindən ayrılması ilə bağlı elektroenergetika sahəsində rəqabətə əsaslanan liberal bazar münasibətlərinə mərhələli keçidlə əlaqədar  təkliflər hazırlanmışdır. |
| 6 | 3.4.3. Özəlləşdirmənin həyata keçirilməsi məqsədilə istehsal aktivlərinin prioritetləşdirilməsi | "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamının 1.3-cü yarımbəndinin icrası məqsədilə hazırlanmış "Elektrik enerjisinin istehsalı sahəsinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihəsi hazırlanmışdır. |
| 7 | 3.4.4. Dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin hazırlanması | "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamının 1.3-cü yarımbəndinin icrası məqsədilə hazırlanmış "Elektrik enerjisinin istehsalı sahəsinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihəsi hazırlanmışdır. |
| 8 | 6.1.1. Şəbəkənin hərtərəfli qiymətləndirilməsi aparılmaqla, itkilərin minimum səviyyəyə çatdırılması | Mövcud su şəbəkəsinin hərtərəfli qiymətləndirilməsi həyata keçirilmiş, itkilərin azaldılması istiqamətində müvafiq tədbirlər davam etdirilmişdir. |

| | | |
|---|---|---|
| 9 | 7.2.1. İstilik təchizatı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi | İstilik təchizatı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə "İstilik enerjisindən istifadə Qaydaları"nın layihəsi hazırlanmışdır. |
| 10 | 7.2.2. İstilik təchizatı sahəsində institusional tədbirlərin həyata keçirilməsi | Özəl və kommersiyayönümlü istilik təchizatı sistemlərinin yaradılması, istilik təchizatı sistemlərinə investisiyaların cəlb edilməsi məqsədilə onların aktivlərinin idarəetməyə verilməsi, istilik təchizatı sistemlərinə investisiyaların cəlb edilməsi məqsədilə onların özəlləşdirilməsi ilə bağlı təhlillər aparılmışdır. |
| 11 | 7.2.3. İstilik təchizatı üzrə tariflərin təkmilləşdirilməsinin nəzərdən keçirilməsi | “İstilik təchizatı xidmətləri ilə bağlı tariflərin müəyyənləşdirilməsi üzrə Tarif Metodologiyası”nın layihəsi hazırlanmışdır. |
| 12 | 7.3.1. İstilik təchizatı sistemində səmərəliliyin təmin edilməsi | "Azərbaycan Respublikasında energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli Sərəncamına müvafiq olaraq qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və istilik təchizatı sistemlərinin səmərəliliyinin artırılması, istehlakçıların tələbatının etibarlı şəkildə ödənilməsinin təmin edilməsi üçün bu sahələrdə islahatların aparılması ilə bağlı təkliflərin hazırlanması məqsədilə beynəlxalq şirkət cəlb edilmiş, Azərbaycan Respublikasında istilik təchizat sisteminin vəziyyəti öyrənilmiş, “Azəristiliktəchizat”ASC-nin və müvafiq təsərrüfatların diaqnostikası aparılmış və mərhələli tədbirlər planını əhatə edən təfərrüatlı hesabat hazırlanmışdır. |
| 13 | 7.3.4. İstilik enerjisinin istehsalına sərf olunan təbii qazın qiymətinin nəzərdən keçirilməsi | İstilik enerjisinin istehsalına sərf olunan təbii qazın qiyməti ilə bağlı təhlillər aparılaraq, təkliflər hazırlanmışdır. Müvafiq tarif dəyişikliyi baş vermişdir. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ SƏVİYYƏSİNDƏ İSTEHLAK MALLARININ İSTEHSALINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Mərkəzləşdirilmiş KOS Agentliyinin yaradılması | "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli 1771 nömrəli Fərmanına əsasən İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" yaradılmışdır. |
| 2 | 1.1.2. KOS agentliyinin strukturunun formalaşdırılması | "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanına əsasən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturu təsdiq olunmuşdur. |
| 3 | 1.1.3. KOS agentliyinin vəzifələrinin müəyyən olunması | Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanına əsasən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi təsdiq edilmişdir. |
| 4 | 1.1.4. KOS evinin yaradılması | Hal-hazırda iki KOB evi fəaliyyət göstərir ("Xaçmaz KOB evi" və "Yevlax KOB evi"). Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanına əsasən KOB evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı təsdiqlənmişdir. |
| 5 | 1.1.5. Vahid məlumat portalının yaradılması | "e-KOB evi" portalı yaradılmışdır (https://e-smb.gov.az/) |
| 6 | 1.3.1. Dövlət-özəl tərəfdaşlığı ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının müvafiq bəndinin icrasından irəli gələrək "Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi haqqında Nümunəvi Əsasnamə" 16 iyul 2019-cu il tarixdə təsdiq edilmiş, eləcə də dövlət-özəl tərəfdaşlığını tənzimləyən normativ hüquqi akt layihələri hazırlanmışdır. |
| 7 | 1.3.3. "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun prioritetləşdirilməsi | Dövlət əsaslı vəsait qoyuluşu hesabına icra ediləcək layihələr hazırlanarkən "Tik–idarə et–təhvil ver" modeli əsasında həyata keçirilməsi mümkün ola biləcək bir sıra layihələr müəyyənləşdirilmişdir. |
| 8 | 1.3.4. Dövlət satınalmalarında KOS subyektlərinin minimum iştirak payının müəyyənləşdirilməsi | Azərbaycan Respublikasının 28 dekabr 2018-ci il tarixli 1433-VQD nömrəli Qanununa əsasən "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakı" adlı yeni fəsil və minimum iştirak payı ilə bağlı müvafiq müddəa "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa daxil edilmişdir. |
| 9 | 1.4.2. İnstitusional islahatların aparılması | Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və KOB evləri yaradılmış, Agentliyin onun strukturuna daxil olan qurumlar təsdiq edilmişdir. |
| 10 | 1.5.1. KOS sahəsində aparılan yoxlamalar üzrə monitorinq və qiymətləndirmə aparılması | Sahibkarlıq sahəsində yoxlamaların dayandırılmasının KOS subyektlərinin fəaliyyətinə təsirinin təhlili aparılmışdır.<br>""Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 9 mart 2021-ci il tarixli 279-VIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti 2022-ci il yanvarın 1-dək uzadılmışdır. |

| | | |
|---|---|---|
| 11 | 1.5.2. Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması | Yoxlamaların optimallaşdırılması məqsədilə qanunvericilik bazası daha da təkmilləşdirilmiş, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli 714-IVQ nömrəli Qanununa uyğun olaraq yoxlamaların risk qiymətləndirilməsi sistemi əsasında aparılması təmin edilmişdir. |
| 12 | 1.5.3. KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi | Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanununa əsasən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə münasibətdə stimullaşdırıcı vergi güzəştləri və azadolmaları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə edilmişdir |
| 13 | 1.5.5. KOS subyektlərinin müvafiq kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi | "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli 434 nömrəli Fərmanına əsasən müvafiq sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma prosesləri daha da sadələşdirilmişdir. |
| 14 | 1.5.6. KOS subyektləri üçün vahid sertifikatlaşdırma sisteminin yaradılması | “Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında” 2015-ci il 31 avqust tarixli 588 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 2-ci hissəsinin və “Lisenziyalar və icazələr” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanının 4.1-ci bəndinin icrası məqsədilə lisenziyaların və icazələrin elektron qaydada verilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə “Lisenziyalar və icazələr” portalı yaradılmışdır. |
| 15 | 1.6.1. KOS subyektləri arasında biznes tərəfdaşlığının inkişaf etdirilməsi | KOS subyektlərinin biznes tərəfdaşlığının imkanları və faydaları ilə bağlı məlumatlılığın artırılmasına dair tədbirlər planı hazırlanmış və icra edilmişdir. |
| 16 | 1.6.3. Sənaye klasterlərinin rezidentlərinə verilən güzəşt və imtiyazların təkmilləşdirilməsi | Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanununa əsasən KOB klaster şirkətləri və KOB klaster iştirakçılarına dair münasibətdə stimullaşdırıcı vergi güzəştləri və azadolmaları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə edilmişdir |
| 17 | 1.7.2. Biznes assosiasiyalarının gücləndirilməsi | İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) tərəfindən biznes assosiasiyaları ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, sahibkarlar arasında biznes assosiasiyalarının yaradılmasının təşviqi istiqamətində tədbirlər davam etdirilmişdir.<br>2020-ci ildə KOBİA-nın dəstəyi ilə üç yeni biznes assosiasiyası - “Qum, çınqıl və daş istehsalçıları assosiasiyası” İctimai Birliyi, “Azərbaycan zərgərlər assosiasiyası” İctimai Birliyi və “Ticarət şəbəkələri” İctimai Birliyi yaradılmışdır. Yeni assosiasiyalar müvafiq sahələrin inkişafına dəstək göstərilməsi, bu sektorlarda təşəbbüslərin irəli sürülməsi və reallaşdırılması, sahibkarların, xüsusilə də kiçik və orta biznes subyektlərinin əlaqələndirilməsi, onlar arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə yaradılmışdır.<br>2020-ci il noyabrın 17-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı “Biznes Assosiasiyalarının fəaliyyətinin gücləndirilməsi” mövzusunda onlayn formatda forum keçirilmişdir. |
| 18 | 1.7.3 Ticarət palatalarının fəaliyyətinin genişləndirilməsi | Ticarət palatalarının fəaliyyətinin genişləndirilməsi məqsədilə qanunvericilik layihəsi hazırlanmışdır. |

| | | |
|---|---|---|
| 19 | 1.8.1. Mediasiya haqqında qanun layihəsinin hazırlanması | "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanunu qəbul edilmişdir. |
| 20 | 1.8.2. Mediasiya Şurasının yaradılması | Mediasiya Şurası 12 fevral 2020-ci ildə təsis edilmişdir. |
| 21 | 1.9.1. KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiqi | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilmişdir. Qeyd olunan meyarların aidiyyəti dəstək tədbirlərində tətbiqi təmin olunmuşdur. |
| 22 | 1.9.2. KOS üzrə statistik məlumatların standartlaşdırılması | "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"na əsasən müvafiq statistik məlumatların standartlaşdırılması təmin edilmişdir. |
| 23 | 2.1.1. KOS subyektlərinin müflisləşməsi məsələlərinə dair ixtisaslaşmış məhkəmələr yaradılmasının nəzərdən keçirilməsi | Beynəlxalq təcrübə və mövcud vəziyyət təhlil edilmiş, müvafiq sahibkarlıq subyektləri üzrə müflisləşməsi məsələlərinin aidiyyəti kommersiya məhkəmələrində baxılması daha məqsədəmüvafiq hesab edilmişdir. |
| 24 | 2.1.2. Müflisləşmə məsələləri ilə bağlı KOS subyektlərinin problemlərinin öyrənilməsi və həyata keçirilən fəaliyyətin monitorinqinin aparılması | Müflisləşmə məsələləri ilə bağlı mövcud problemlər öyrənilmiş və araşdırılmış, müvafiq təkliflər əsasında "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir. |
| 25 | 2.2.1. Kredit zəmanət fondunun yaradılması | "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası", "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası" və "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası" təsdiq olunmuşdur. |
| 26 | 2.2.2. KOS subyektlərinin maliyyə savadlılığının artırılması | Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə savadlılığının artırılması üzrə KOBİA və aidiyyəti dövlət qurumlar tərəfindən zəruri tədbirlərin icrası təmin edilmişdir. |
| 27 | 2.3.1. Daşınar əmlakın yüklülüyünə dair qanunvericiliyin təkmilləşdirilməsi | Azərbaycan Respublikası Prezidentinin "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2 may 2017-ci il tarixli 667-VQ nömrəli Qanunu qəbul edilmişdir. |
| 28 | 2.3.2. Daşınar əmlakın yüklülüyünün reyestrinin yaradılması | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1901 nömrəli Fərmanı ilə "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları" və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği" təsdiq edilmişdir. |
| 29 | 2.3.3. Daşınar və daşınmaz əmlakın satışı üzrə hərracların işinin təkmilləşdirilməsi | Hərraclar zamanı dövlət əmlakının satışının tamamilə şəffaf və ictimaiyyətin bütün təbəqələrinə açıq şəraitdə keçirilməsini nəzərdə tutan müvafiq prosedurların elektronlaşdırılması işinin sürətləndirilməsi ilə əlaqədar hərracların elektron qaydada keçirilməsinin təşkili, daşınar və daşınmaz əmlakın satışı üzrə hərracların işinin təkmilləşdirilməsi üçün "Elektron hərrac" proqram təminatı hazırlanaraq istifadəyə verimişdir |
| 30 | 3.1.1. KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlarının müvafiq maliyyə xidmətləri ilə təmin edilməsi | KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları zamanı müvafiq maliyyə xidmətlərindən istifadə ilə bağlı qarşılaşdıqları ən vacib problemlər barədə hesabat hazırlanmış, KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlar zamanı müvafiq maliyyə xidmətləri (faktorinq, akkreditiv, qarantiya və digər) ilə təmin edilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür. |

| | | |
|---|---|---|
| 31 | 3.1.3. KOS subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi ilə bağlı dəstək göstərilməsi | Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi ilə bağlı dəstək göstərilməsi tədbirləri icra olunmuş, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı ilə "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası" təsdiq edilmişdir. |
| 32 | 3.2.1. İxrac assosiasiyalarının inkişaf etdirilməsi | Azərbaycan Meyvə Tərəvəz İstehsalçıları və İxracatçıları Asssosiasiyası, Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası, Azərbaycan Bal İstehsalçıları və İxracatçıları Assosiasiyası, Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası, Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası, Azərbaycan Çay İstehsalçıları və İxracatçıları Assosiasiyası, Azərbaycan Zeytun İstehsalçıları və İxracatçıları Assosiasiyası da daxil olmaqla bir sıra assosiasiyalar yaradılmışdır.<br>2018-ci ilin 13 noyabr tarixində Xurna İstehsalçıları və İxracatçıları Assosiasiyası, 2019-cu ilin 2 avqust tarixində Ekoloji Təmiz Məhsul İstehsalçıları Assosiasiyası yaradılmışdır. |
| 33 | 4.1.1. KOS subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması | |
| 34 | 4.1.3. Startap layihələrinin dəstəklənməsi | Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanununa əsasən mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs (və ya fərdi sahibkar) kimi fəaliyyət göstərən startaplara münasibətdə müvafiq vergi azadolmaları Vergi Məcəlləsinə əlavə edilmiş, bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarı ilə "Startapın müəyyən olunması meyarları"nın təsdiq edilmişdir.<br>**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarı ilə "İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları" təsdiq edilmişdir.** |
| 35 | 4.2.1. Kiçik və orta sahibkarların tədris və təlim ehtiyaclarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanına əsasən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturunda KOB inkişaf mərkəzləri (KOBİM) fəaliyyət göstərir. KOB subyektlərinin tədris və təlim ehtiyaclarının müəyyənləşdirilməsi üzrə sorğular keçirilmiş və müvafiq təlim materialları hazırlanmışdır. Müvafiq təlim materialları əsasında KOBİM-də müxtəlif istiqamətlər üzrə təlim və seminarlar keçirilir. |
| 36 | 4.2.2. Kiçik və orta sahibkarların əmək bazarı üzrə ehtiyaclarının öyrənilməsi və təkmilləşdirmələr aparılması | KOBİA tərəfindən ixtisaslı kadrlar haqqında məlumatları özündə əks etdirən məlumat bazası yaradılmışdır. Kiçik və orta sahibkarlıq subyektlərinin əmək qanunvericiliyi üzrə maarifləndirilməsi istiqamətində tədbirlər görülmüş, təlimlər keçirilərək yaddaş kitabçaları təqdim edilmişdir. |
| 37 | 4.2.3. KOS subyektləri ilə peşə təhsili müəssisələrinin işinin əlaqələndirilməsi | KOS subyektləri ilə peşə təhsili müəssisələrinin işinin əlaqələndirilməsi sahəsində zəruri işlər icra olunmuşdur. |
| 38 | 4.2.4. KOS subyektləri üçün "ömür boyu öyrənmək" imkanlarının təmin edilməsi | İqtisadiyyatda yaş qrupları üzrə tədris və təlim ehtiyaclarının müəyyən edilməsi üzrə araşdırma aparılmış, bu ehtiyacların qarşılanması məqsədilə tədris materialları hazırlanaraq təlimlər təşkil edilmişdir. |
| 39 | 4.2.5. Mühasibat Uçotunun Beynəlxalq Standartlarının KOS subyektləri tərəfindən tətbiqinin stimullaşdırılması | Mühasibat Uçotunun Beynəlxalq Standartlarının tətbiqi istiqamətində "Kiçik sahibkarlıq subyektləri üçün praktiki mühasibatlıq" və "Orta və iri sahibkarlıq subyektləri üçün praktiki mühasibatlıq" mövzuları üçün təlim modulları və sosial şəbəkələrdə yerləşdirilmiş təlim materialları üzrə təlimlər keçirilmişdir. |

| | | |
|---|---|---|
| 40 | 4.2.6. Korporativ idarəetmə standartlarının tətbiqinin gücləndirilməsi | Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə “Korporativ idarəetmə və səhmdarların hüquqlarının qorunması” mövzusunda vebinar, habelə “Korporativ hüquq” mövzusunda onlayn təlimlər keçirilmişdir.<br>Həmçinin, “Təsərrüfat cəmiyyətlərində korporativ idarəetmə vəziyyətinin təhlili” ilə bağlı sahibkarlar arasında sorğu keçirilmişdir. |
| 41 | 4.3.1. Sahibkar düşüncə tərzinin inkişaf etdirilməsi | KOB inkişaf mərkəzlərində müxtəlif istiqamətlər üzrə təlim və seminarlar keçirilir, məsləhət xidmətləri göstərilir, KOB-ların şəbəkələşməsinə və s. dəstək təmin olunur. |
| 42 | 4.3.2. Peşə və orta ixtisas təhsili müəssisələrində sahibkarlığın əsaslarının tədrisinin təşkil edilməsi | Sahibkarlığın əsaslarına dair gənclərin biliklərinin artırılması məqsədilə ilk peşə və orta ixtisas təhsili müəssisələrində sahibkarlığın əsaslarının tədrisi təşkil edilmiş, təhsilalanların KOS subyektlərinə ekskursiyaları təşkil edilmişdir. |
| 43 | 4.4.1. Qadın sahibkarlığının inkişafı üzrə stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması | Qadın sahibkarlığının inkişafı məqsədilə müxtəlif güzəşt kompaniyaları və digər həvəsləndirici tədbirlər görülmüşdür.<br>Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Xaçmaz KOB İnkişaf Mərkəzinin təlim və məsləhət xidmətlərindən yararlanmış, qiymətləndirmə zamanı biznes planları uğurlu hesab edilən qadın sahibkarlara öz bizneslərini qurmaq üçün maliyyə dəstəyi (qrant) göstərilmişdir.<br>“Visa” şirkəti tərəfindən “WoWoman” və “Nargis” jurnalının tərəfdaşlığı ilə həyata keçiriləcək “She's next qlobal təşəbbüsü” çərçivəsində Azərbaycanda qadın sahibkarlar üçün ödənişsiz onlayn təhsil proqramına start verilmişdir.<br>“Qlobal sahibkarlıq həftəsi” çərçivəsində “Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası” İctimai Birliyinin təşkilatçılığı, müvafiq dövlət qurumlarının və diplomatik korpusun nümayəndələrinin, bir sıra ölkələrdən olan qadın sahibkarların iştirakı ilə “Üfüqdə yeni fürsətlər: Qadın sahibkarlara yaşıl işıq” mövzusunda 3-cü Forum keçirilmişdir. |
| 44 | 4.4.2. Qadın sahibkarlığına informasiya dəstəyinin inkişaf etdirilməsi | Qadın sahibkarlığına dəstək məqsədilə keçirilən tədbirlərə dair məlumatların əlçatanlığının təmin edilməsi məqsədilə KOBİA-nın internet səhifəsində xüsusi bölmə yaradılmış və sərgilər, keçirilən təlimlər və s. barədə məlumatlar yerləşdirilmişdir. |
| 45 | 4.4.3. Qadın biznesi inkubatorlarının yaradılması | 2020-ci ilin fevral ayından Xaçmaz KOB İnkişaf Mərkəzində gənclər və qadınlar üçün Biznes İnkubasiya Mərkəzi fəaliyyətə başlamışdır.<br>Xaçmaz KOB İnkişaf Mərkəzi tərəfindən “Qadın biznes inkubatorlarının yaradılmasının təşviqi” mövzusunda vebinar təşkil olunmuşdur. |
| 46 | 4.4.4. Qadın sahibkarların assosiasiyalarının və peşə təşkilatlarının yaradılması | Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, ölkədə fəaliyyət göstərən qadın sahibkarların təşəbbüsü ilə 2017-ci il oktyabrın 26-da təsis olunmuşdur. |
| 47 | 5.1.2. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması | Mikro və ya kiçik sahibkarlıq subyektlərinin innovasiya fəaliyyəti üzrə müvafiq vergi stimulları Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanununa əsasən Vergi Məcəlləsinə daxil edilmişdir. Eyni zamanda, innovativ sahibkarlığı təşviqinə, KOB subyektlərinin yüksək texnoloji və innovativ imkanlardan faydalanmasına və digər mühüm sahələrə dəstək məqsədilə Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 364 nömrəli Qərarı ilə “Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası” təsdiq edilmişdir. |

| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
|---|---|---|

| | | |
|---|---|---|
| 1 | 1.2.1. Qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi | Qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi üzrə ən yaxşı beynəlxalq təcrübə araşdırılmış və müvafiq normativ-hüquqi akt layihələri hazırlanmışdır. |
| 2 | 1.2.2. Qanunvericiliyin təsiri analizinin tətbiqinin səmərəliliyini artırmaq üçün institusional təsisatın yaradılması | Qanunvericiliyin təsiri analizinin tətbiqinin səmərəliliyini artırmaq üçün institusional təsisatın yaradılması üzrə beynəlxalq təcrübə araşdırılmış və müvafiq normativ-hüquqi akt layihələri hazırlanmışdır. |
| 3 | 1.3.2. Dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması | Dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiya layihəsi hazırlanmışdır. |
| 4 | 1.4.1. Qanunvericiliyin təkmilləşdirilməsi | Rəqabət qanunvericiliyinin daha da təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübə öyrənilərək Rəqabət Məcəlləsi layihəsinin təkmilləşdirilməsi üzrə işlər aparılmışdır. |
| 5 | 1.5.4. Lisenziyaların təkmilləşdirilməsi, beynəlxalq lisenziyaların tanınması mexanizminin formalaşdırılması | “Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında” 2015-ci il 31 avqust tarixli 588 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 2-ci hissəsinin və “Lisenziyalar və icazələr” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanının 4.1-ci bəndinin icrası məqsədilə lisenziyaların və icazələrin elektron qaydada verilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə “Lisenziyalar və icazələr” portalı yaradılmışdır.<br>Ölkə xaricində verilmiş lisenziyaların Azərbaycanda tanınması və ekvivalentliyinin təmin edilməsi mexanizminin yaradılması nəzərdən keçirilmişdir. |
| 6 | 1.6.2. KOS subyektləri üçün özəl investisiyalara əsaslanan yeni özəl sənaye klasterlərinin yaradılması | Yeni yaradılacaq sənaye klasterlərində KOS subyektlərinin əməkdaşlıq ehtiyaclarının və tələbatının öyrənməsi məqsədilə 100-dən çox kiçik və orta sahibkrlıq subyektinin iştirakı ilə xüsusi sorğu keçirilmişdir. Aparılan sorğularla sahibkarlıq subyektləri arasında üfüqi və şaquli klasterləşmə imkanları təhlil edilmiş və klasterləşmə imkanları barədə texniki-iqtisadi əsaslandırma hazırlanmışdır. |
| 7 | 1.7.1. Dövlət-özəl əməkdaşlığı üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi | Dövlət-özəl sektor əməkdaşlığı üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı layihə hazırlanmışdır. |
| 8 | 2.1.3. Müflisləşmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi və iflas reyestrinin yaradılması | Müflisləşmə məsələləri ilə bağlı mövcud problemlər öyrənilmiş və araşdırılmış, müvafiq təkliflər əsasında “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir. |
| 9 | 2.4.1. Lizinq haqqında qanun layihəsinin hazırlanması | Lizinq haqqında qanun layihəsi hazırlanmışdır. |
| 10 | 2.4.2. Lizinq fəaliyyətinin tənzimlənməsi və güzəştlərin tətbiqi | Lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün yeni tənzimləmə mexanizmlərinin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlanmışdır. |
| 11 | 2.4.3. KOS subyektlərinin maliyyələşməsində alternativ maliyyə alətlərindən (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) istifadənin genişləndirilməsi | Beynəlxalq prinsiplərə uyğun olaraq Azərbaycan törəmə maliyyə alətləri bazarının yaradılması üzrə tövsiyələr və qanunvericiliyə dəyişikliklər üzrə təkliflər hazırlanmışdır. |
| 12 | 3.1.2. KOS-un beynəlxalq standartlara və tələblərə uyğunlaşdırılmasına dəstək göstərilməsi | Kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq standartlara və tələblərə uyğunlaşdırılması ilə bağlı bir sıra dəstək tədbirləri görülmüşdür. |

| | | |
|---|---|---|
| 13 | 4.1.2. Biznes inkubatorlarının inkişaf etdirilməsi | 2020-ci il ərzində Xaçmaz və Sumqayıt KOB İnkişaf Mərkəzlərində Biznes İnkubasiya Mərkəzi fəaliyyətə başlamışdır. Biznes İnkubasiya Mərkəzlərində sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması, sahibkarlara göstərilən dövlət dəstəyi tədbirlərinin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə yaradılıb. Burada rezidentlərə biznes layihələrin hazırlanması, maliyyə resurslarına çıxış imkanları və maliyyənin idarə olunması, mentor və digər xidmətlər göstərilir. |
| 14 | 5.1.1. Qanunvericilik bazasının təkmilləşdirilməsi | Milli innovasiya siyasətinin təkmilləşdirilməsi ilə bağlı müvafiq normativ hüquqi aktların layihələri hazırlanmışdır.<br>"Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli 1464 nömrəli Fərmanı qəbul edilmişdir. |
| 15 | 5.1.3. İnnovasiyayönümlü regional klasterlərin yaradılması | İqtisadi cəhətdən daha uğurlu olacaq regional klaster modelləri və klasterlərin yaradılacağı ən uyğun regionlar müəyyənləşdirilmişdir. |
| 16 | 5.2.1. KOS-un inkişafı üçün innovasiya infrastrukturunun təkmilləşdirilməsi | Universitetlərin nəzdində texnopark yaradılmasının genişlənməsi ilə bağlı təkliflər hazırlanmışdır. |
| 17 | 5.2.2. Dövlət əhəmiyyətli və müstəqil elmi tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi istehsalat birliklərinin yaradılması | "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin tərkibində Tədqiqat Mərkəzi yaradılmışdır. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALINA VƏ EMALINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.3.1. Mövcud qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılmış, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Agentlik tərəfindən qida məhsullarının təhlükəsizliyinə dair bir sıra sənədlər (sanitariya norma və qaydaları, habelə gigiyena normativləri) hazırlanaraq təsdiq edilmişdir. |
| 2 | 1.3.2. Qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətində paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılmış, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə Agentliyin əsasnaməsi və strukturu təsdiq edilmişdir. Qida təhlükəsizliyi sahəsində nəzarət və xidmət funksiyalarının ayrılması və bu sahədə səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi məqsədilə "Baytarlıq haqqında" və "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilmiş, həmçinin bununla əlaqədar olaraq digər normativ-hüquqi sənədlərdə uyğunlaşdırma xarakterli dəyişikliklər aparılmışdır. |
| 3 | 1.3.3. Yeyinti məhsullarının istehsalı, emalı, saxlanılması, daşınması və ticarəti üzrə standartların beynəlxalq tələblərə uyğunlaşdırılması | Ölkədə yeyinti məhsullarına dair norma və qaydaların qida təhlükəsizliyinə dair Kodeks Alimentarius tələblərinə, bitki məhsulları üzrə norma və qaydaların Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının tələblərinə, heyvan mənşəli məhsullar üzrə norma və qaydaların Beynəlxalq Epizootik Büronun tələblərinə uyğunlaşdırılması üzrə tədbirlər görülmüşdür. |
| 4 | 1.3.4. Qida təhlükəsizliyi sisteminə daxil olan laboratoriyalar şəbəkəsinin optimallaşdırılması, modernləşdirilməsi və akkreditasiyadan keçirilməsi və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi | Qida təhlükəsizliyi sisteminin vacib komponenti olan laboratoriya infrastrukturunun modernləşdirilməsi üzrə çoxsaylı işlər həyata keçirilmişdir, o cümlədən Cənubi Qafqazda ilk dəfə olaraq Mərkəzi Baytarlıq Laboratoriyasının nəzdində səhra tipli 3-cü səviyyəli biotəhlükəsizlik laboratoriyası və Analitik Ekspertiza Mərkəzinin nəzdində Kompleks Tədqiqatlar Laboratoriyası, Milli Referens Laboratoriyası yaradılmış, özəl laboratoriyalarla əməkdaşlıq əlaqələri qurulmuşdur. |
| 5 | 1.3.5. Qida təhlükəsizliyi sahəsinə ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi | "ARB24" Telekanalı ilə Qida Təhlükəsizliyi Agentliyinin birgə layihəsi olan "Qida Bələdçisi" verilişi yayımlanmış, yeni sanitariya, baytarlıq və fitosanitar norma və qaydaların hazırlanması prosesi ilə bağlı ictimaiyyətə geniş məlumat verilmişdir. Habelə 1003 "Çağrı Mərkəzi"nin fəaliyyəti genişləndirilmiş, sosial şəbəkədə istehlakçıların qida təhlükəsizliyinə ictimai nəzarət prosesinə aktiv qoşulması təmin olunmuş, "Könüllü qida nəzarətçisi" proqramının həyata keçirilməsinə başlanılmışdır. |
| 6 | 1.3.6. Sağlam qidalanmanın təşviq edilməsi | "Sağlam məktəbli" layihəsi çərçivəsində respublikanın müxtəlif regionlarında məktəblilərlə görüşlər keçirilmiş, müxtəlif videoçarxlar hazırlanmış, "Sağlam qida" adlı facebook səhifəsi yaradılaraq düzgün qidalanma ilə əlaqədar əhalini maraqlandıran müxtəlif mövzularda paylaşımlar edilmişdir. |
| 7 | 2.1.1. İntensiv üsulla salınan meyvə bağları (xüsusilə nar, xurma, gilas, alma, fındıq və digər qərzəkli meyvələr) və üzüm plantasiyalarının genişləndirilməsinin təşviqi | Meyvəçilik təsərrüfatlarının texnika, maşın və mexanizmlərlə təminatının gücləndirilməsi, gübrələrlə təminatının yaxşılaşdırılması, kiçik və orta həcmli emal müəssisələrinin yaradılması istiqmaətində tədbirlər görülmüşdür.<br>Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası" təsdiq edilmiş və bu qaydaya müvafiq olaraq intensiv üsulla yeni salınmış meyvə bağlarına birdəfəlik subsidiya verilməsi nəzərdə tutulmuşdur. |
| 8 | 2.1.2. Təzə kartof istehsalının artırılmasının dəstəklənməsi | "Kartof və tərəvəz toxumları istehsalı" kompleksi yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən, faraş kartof istehsalının artırılmasının dəstəklənməsi məqsədi ilə toxumluq kartofun idxal rüsumlarında dəyişiklik edilərək, toxumluq kartofun idxalının gömrük rüsumlarından azad edilməsi bir ay qabağa çəkilir. Əvvəlki qərara əsasən kartof toxumunun idxalı mart, aprel, may aylarında gömrük rüsumundan azad edilmişdi. Dəyişiklikdən sonra isə bu fevral, mart, aprel aylarına şamil edilmişdir.<br>"Ən əlverişli rayonlarda kartof istehsalının dəstəklənməsinə dair inkişaf planı" hazırlanaraq icra edilmişdir. |
| 9 | 2.1.3. Örtülü torpaqlarda, o cümlədən istixanalarda faraş tərəvəz istehsalının artırılmasının dəstəklənməsi | "Örtülü torpaqlarda, o cümlədən istixanalarda faraş tərəvəz istehsalının artırılmasının dəstəklənməsinə dair inkişaf planı" hazırlanaraq icra edilmişdir. |

| | | |
|---|---|---|
| 10 | 2.1.4. Regionlarda kiçik və orta ölçülü meyvə-tərəvəz məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin stimullaşdırılması | “Regionlarda kiçik və orta ölçülü meyvə-tərəvəz məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin stimullaşdırılmasına dair İnkişaf Planı” hazırlanaraq icra edilmişdir. |
| 11 | 2.1.6. Pambıq, tütün və barama istehsalının artırılmasının təşviqi | Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2017-ci il tarixli 3082 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı”, Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2017-ci il tarixli 3163 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017–2021-ci illər üçün Dövlət Proqramı” və Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2017-ci il tarixli 3406 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir və icra olunmaqdadır. |
| 12 | 2.1.7. İxracda ənənəvi olmayan və son dövrlər ixracına başlanılan məhsullar (cins heyvanlar, süd məhsulları, ət konservləri, arpa və s.), eləcə də digər ixrac potensiallı hesab edilən məhsullar (zəfəran, yun, gön-dəri, təbii bal, çaytikanı yağı, qoz yağı, biyan kökü, zəfəran və s.) barədə ixrac imkanlarının dəyərləndirilməsi | Müvafiq sektorlarının inkişafının stimullaşdırılması üzrə İnkişaf planı hazırlanaraq icra edilmişdir. |
| 13 | 2.2.1. İntensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılmasının təşviqi | Qapalı şəraitdə fəaliyyət göstərən iri heyvandarlıq komplekslərinin təşkilinin təşviq edilməsi məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən heyvandarlıq komplekslərinin maliyyələşdirilməsinə dəstək göstərilməsi davam etdirilmişdir. |
| 14 | 2.2.3. Sənaye üsulu ilə quş əti istehsalının müxtəlif seqmentlərin tələbatları üzrə genişləndirilməsinin stimullaşdırılması | “Sənaye üsulu ilə quş əti istehsalının müxtəlif seqmentlərin tələbatları üzrə genişləndirilməsinin stimullaşdırılmasına dair İnkişaf planı" hazırlanaraq icra edilmişdir. Eyni zamanda, Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikliklərə əsasən quş ətinin satışı – 2017-ci il yanvarın 1-dən 3 il müddətinə, daha sonra heyvan və quş ətinin satışı – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə əlavə dəyər vergisindən azad olunmuşdur (VM, maddə 164.1.37). |
| 15 | 2.2.4. Regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi | “Regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsinə dair İnkişaf planı” və dəstək mexanizmi hazırlanaraq icra edilmişdir. |
| 16 | 2.2.5. Arıçılıq, balıqçılıq, o cümlədən akvakultura sahəsində inkişafın dəstəklənməsi | "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli 3747 nömrəli Sərəncamı imzalanmış, arıçılıq təsərrüfatlarına dəstək mexanizmləri müəyyən edilmişdir. |
| 17 | 2.2.7. Şəkər çuğunduru və şəkərli-qənnadı məmulatlarının yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi | "Şəkərli qənnadı məmulatların istehsalının yerli xammal bazası hesabına təmin edilməsi ilə bağlı İnkişaf Planı" hazırlanaraq icra edilmişdir. |
| 18 | 2.2.8. Bitki yağları istehsalında istifadə olunan xammalın (günəbaxan, qarğıdalı, zeytun və s.) yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi | "Bitki yağları istehsalında istifadə olunan xammalın (günəbaxan, qarğıdalı, zeytun və s.) yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsinə dair İnkişaf Planı" hazırlanaraq icra edilmişdir. |
| 19 | 2.2.9. Çay plantasiyalarının genişləndirilməsinin stimullaşdırılması | Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2018-ci il tarixli 3660 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı” qəbul edilmişdir və icra olunmaqdadır. |
| 20 | 2.2.10. Tütün məmulatlarının istehsalının artırılmasının stimullaşdırılması | “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı” qəbul edilmişdir və icra olunmaqdadır. 2020-ci il ərzində ölkədə tütün istehsalı 2019-cu illə müqayisədə 15,1 faiz artaraq 6,9 min ton, hər hektardan məhsuldarlıq 14,5 faiz artaraq 22,1 sentner təşkil etmişdir. |
| 21 | 2.2.11. Pambıq, barama, yun, gön-dəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsi | “2019-2020-ci illərdə yun və gön-dəri xammalı məhsullarının tədarükü və emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsinə dair İnkişaf Planı” hazırlanaraq icra edilmişdir. |
| 22 | 2.3.1. Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”yə əsasən fermerlər sistem vasitəsilə müxtəlif assosiasiyalara və kooperativlərə üzv olmaq imkanına malikdirlər. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na əsasən, 50 hektardan çox əkin sahəsində aparılan əkinə görə kənd təsərrüfatı kooperativlərinə 10 faiz artıq əkin subsidiyası verilir. |

| | | |
|---|---|---|
| 23 | 2.4.5. Dəyər zəncirləri üzrə investisiya təşviqi sənədinin hazırlanması | “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”na uyğun olaraq 06.08.2021-ci il tarixədək 421 sahibkarlıq subyektinin 504 layihəsinə investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi verilmiş layihələrin 39%-i kənd təsərrüfatını əhatə edir. Təşviq edilmiş layihələrin 87%-i regionların payına düşür. |
| 24 | 2.5.1. Aqropark (aqrar sənaye klasterləri də daxil edilməklə) şəbəkəsinin formalaşdırılmasının dəstəklənməsi | Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq müvafiq sahələr üzrə yeni aqroparkların yaradılması və mövcud aqroparkların genişləndirilməsi tədbirləri icra edilmişdir.<br>01.10.2021-ci il tarixinə olan məlumata görə, ölkədə artıq 43 aqropark fəaliyyətə başlamışdır. 23 aqroparkın yaradılmasına indiyədək İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 173 mln. manat güzəştli kredit, Nazirlik tərəfindən 27 aqroparka isə 1 mlrd. manat dəyərində investisiya təşviqi sənədi verilmişdir. Bu günədək aqroparklara 1 mlrd. manatdan çox özəl investisiya qoyulmuşdur. Aqroparklarda ümumi olaraq 5000-dək insan daimi, 4500-dən çox insan isə mövsümü işlə təmin olunmuşdur. |
| 25 | 3.1.1. Kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi | Kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi üçün Birgə İşçi Qrupun formalaşdırılmış, maliyyə resurslarına daha yaxşı çıxışın təsirinin təhlili aparılmış və kənd təsərrüfatında maliyyə resurslarına çıxış imkanları üzrə müvafiq hesabat hazırlanmışdır. |
| 26 | 3.1.2. Kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması | Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2017-ci il tarixli 1760 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu yaradılmışdır. |
| 27 | 3.1.3. Kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması | “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və aqrar sahənin maliyyələşməsinin stimullaşdırılması ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 aprel tarixli 985 nömrəli Fərmanı imzalanmışdır. Həmin fərmana əsasən formalaşdırılan yeni mexanizm fermerlərə girovsuz mikrokreditlər vermək imkanı yaradır. |
| 28 | 3.1.4. Kreditlər üçün girov bazasının genişləndirilməsi | Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 aprel tarixli 985 nömrəli Fərmanından irəli gələrək zəruri tədbirlərin icrası təmin edilmişdir. |
| 29 | 3.1.5. Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması | Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması istiqamətində aidiyyəti dövlət qurumu tərəfindən zəruri tədbirlərin icrası təmin edilmişdir. Eyni zamanda, Avropa İttifaqı və Avropa Yenidənqurma və İnkişaf Bankının birgə layihəsi olan “Azərbaycan Kənd Təsərrüfatı Maliyyə Aləti” layihəsi (AZAFF) çərçivəsində maliyyə savadlılığının artırılması təlimləri keçirməklə fermerlərin potensialı artırılmış, hər bir regionda seçilmiş sektorlarda qabaqcıl texniki biliklər və ən yaxşı beynalxalq təcrübələr təqdim olunmuş və müvafiq borcalanlara isə xüsusi texniki yardım dəstəyi olunmuşdur. |
| 30 | 3.1.7. Kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması | Azərbaycan Respublikası Prezidentinin 8 aprel 2020-ci il tarixli 413 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nda dəyişikliklər edilmiş, Aqrar Kredit və İnkişaf Agentliyinə kənd təsərrüfatı sahəsində mikrokreditlərin stimullaşdırılması məqsədilə müvafiq səlahiyyətlər verilmişdir. |
| 31 | 3.2.1. Kənd təsərrüfatında sığorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi | "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 27 iyun 2019-cu il tarixli 1617-VQ nömrəli Qanunu qəbul edilmiş, “Aqrar Sığorta Fondu” qeyri-kommersiya hüquqi şəxsi yaradılmış, “Aqrar sığorta Qaydaları”, “Aqrar sığorta predmetinin Tərkibi”, “Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi” təsdiq edilmişdir. |
| 32 | 3.2.2. Kənd təsərrüfatı sahəsi üzrə sığorta fondunun yaradılması imkanlarının dəyərləndirilməsi | Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2019-cu il tarixli 809 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasında aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən “Aqrar Sığorta Fondu” qeyri-kommersiya hüquqi şəxsi yaradılmışdır. |
| 33 | 3.3.2. Aqrar sahədə investisiya mühitinin yaxşılaşdırılması | Sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər icra edilmişdir, Aqrar sahədə sahibkarların maliyyə resurslarına çıxış imkanları daha da sadələşdirilmiş və genişləndirilmişdir. |
| 34 | 4.1.2. Kənd təsərrüfatına yararlı torpaqların istifadəsiz saxlanılmasının qarşısını almaq üçün müvafiq mexanizmlərin tətbiqi | “Torpaq sahəsindən istifadənin iqtisadi əsaslandırılmasının Forması” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 noyabr 2018-ci il tarixli 512 nömrəli Qərarı ilə təsdiq edilmişdir. |

| | | |
|---|---|---|
| 35 | 4.2.1. Suvarma suyuna olan tələbatın öyrənilməsi | Respublikada suvarma suyuna olan tələbat təhlil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli 2178 nömrəli Sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçünTədbirlər Planı" təsdiq edilmişdir. |
| 36 | 4.2.3. Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına 2019-cu ildə Azərbaycan, ABŞ, İran, Türkiyə, İsrail və Fransanın istehsalı olan 102 sayda suvarma sistemi dəsti və avadanlığının ilkin dəyərinə 40 faiz güzəşt tətbiq edilərək 5 il müddətinə kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara lizinq yolu ilə satılmışdır. |
| 37 | 4.3.1. Kənd təsərrüfatı texnikası parkının inkişaf etdirilməsi | Respublika üzrə kənd təsərrüfatı texnikası parkının ümumilikdə 54 faizi, o cümlədən taxılyığan kombaynlar, traktorlar, pambıqyığan kombaynlar yenilənmişdir. |
| 38 | 4.3.2. İnnovativ, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatın yaxşılaşdırılması | "Aqroservis" ASC tərəfindən kənd təsərrüfatı məhsulları istehsalında (səpin, becərmə və yığım proseslərində) istifadə olunan ümumilikdə 6469 ədəd innovativ və kiçikhəcmli müxtəlif təyinatlı və markalı texnikalar alınaraq istifadəyə verilmişdir. Bu texnikaların 2299 ədədini kiçikhəcmli, 4170 ədədini innovativ texnologiyalar əsasında istehsal olunmuş, konstruktiv cəhətdən və iqtisadi texniki parametrlərinə görə müasir tələblərə cavab verən texnikalar təşkil etmişdir. |
| 39 | 4.3.3. Aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi | Həyata keçirilmiş tədbirlər hesabına respublikada hüquqi və fiziki şəxs statusunda özəl aqroservis xidmətləri göstərən qurumların sayı artmış, kənd təsərrüfatı məhsulları istehsalçılarının texniki təminatı yaxşılaşmış və respublikanın özəl aqroservis xidmətləri şəbəkəsi genişləndirilmişdir. |
| 40 | 4.4.3. Elektron məlumat bazasının yaradılması | 2018-ci ildə ölkədə fəaliyyət göstərən arpa və buğda toxum istehsaçılarının elektron məlumat bazası yaradılmışdır. Kənd təsərrüfatı sahəsində xidmətlərin göstərilməsini və bu məqsədlə informasiyanın yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılmasını təmin etmək üçün "Elektron kənd təsərrüfatı" informasiya sistemi yaradılmışdır. |
| 41 | 4.5.2. Gübrələrdən istifadənin təşviq edilməsi | Gübrələrdən istifadə və onun üstünlükləri barədə təsərrüfatların məlumatlandırılması istiqamətində tədbirlər görülmüşdür. |
| 42 | 4.5.3. Bitki mühafizə vasitələrilə təminatın yaxşılaşdırılması | Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2020-ci ildə faktiki tələbatın həcmi müəyyənləşdirilməklə "Aqrolizinq" ASC tərəfindən mineral gübrələrin, o cümlədən ammonium nitrat (azot), nitroammofoska, ammofos gübrələrinin alınması üçün tədbirlər görülmüşdür. |
| 43 | 4.5.4. Gübrə və bitki mühafizə vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi | Gübrə və bitki mühafizə vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, bu sahədə inzibatçılığın daha da təkmilləşdirilməsi və yeni avadanlıqlardan istifadə təmin edilmişdir. |
| 44 | 4.5.5. Gübrə istehsalında yerli istehsalın təşviq olunması | Gübrə istehsalında yerli istehsalın təşviq olunması istiqamətində zəruri tədbirlərin görülməsi təmin olunmuş, bu sahədə əməkdaşlıq əlaqələrinin qurulması, məlumatlandırma və maarifləndirmə işləri icra edilmişdir. Üzvü gübrələrin istehsalının genişləndirilməsi istiqamətində müvafiq addımlar atılmışdır. |
| 45 | 4.6.2. Süni mayalandırma və embrion köçürmə metodundan istifadənin genişləndirilməsi | "Regional süni mayalanma mərkəzlərinin modernləşdirilməsi, maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi üzrə Tədbirlər Planı" hazırlanaraq icra edilmiş, regionlarda süni mayalanma mütəxəssislərinin genetik material və ləvazimatlar ilə təmin edilməsi, süni mayalanma və embrion köçürülməsi üsullarının üstünlükləri barədə təşviqat və maarifləndirmə işlərinin aparılması sahəsində tədbirlər görülmüşdür. 2019-cu ilin göstəricilərinə görə ölkə üzrə süni mayalanma ümumilikdə inəklərin 14,4 faizini təşkil etmişdir. |
| 46 | 4.6.3. Damazlıq quşçuluğun inkişafının dəstəklənməsi | "Damazlıq quşçuluğun inkişafının dəstəklənməsi"nə dair Tədbirlər Planı" hazırlanaraq icra edilmiş, Əkinçilik Elmi Tədqiqat İnstitutu tərəfindən "Fateh "sortu yaradılmış, damazlıq yumurta istehsalı sahəsində maarifləndirmə işləri aparılmış, Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2019-cu il ərzində müasir texnologiyalara əsaslanan illik istehsal gücü 16.2 milyon ədəd damazlıq, 18.7 milyon ədəd əmtəəlik yumurta və 432 ton quş əti olan 1 quşçuluq təsərrüfatına güzəştli kredit vəsaiti ayrılmışdır. |
| 47 | 4.7.1. Özəl baytarlıq şəbəkəsinin inkişaf etdirilməsi | Azərbaycan Respublikası Prezidentinin "Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 22 aprel 2020-ci il tarixli 998 nömrəli Fərmanı imzalanmışdır. |
| 48 | 4.7.4. Bitki mühafizəsi sahəsində inteqrir mübarizə tədbirləri sistemlərinin hazırlanması və tətbiq edilməsi | Bitki mühafizəsi sahəsində inteqrir mübarizə tədbirləri sistemi yaradılmışdır. |

| | | |
|---|---|---|
| 49 | 4.7.5. Baytarlıq və fitosanitar xidmətləri üzrə laboratoriyaların modernləşdirilməsi | AQTİ-nin nəzdində fəaliyyət göstərən laboratoriyalarda keyfiyyət idarəetmə sisteminin beynəlxalq İSO/İEC 17025 standartının tələblərinə uyğun akkreditasiyaya hazırlanması istiqamətində sınaq laboratoriyaları üçün 16 prosedur layihəsi, 739 təlimat və 566 forma hazırlanıb təsdiq edilmiş, Agentliyin 4 laboratoriyası milli akkreditasiyadan keçirilmişdir. Mərkəzi Baytarlıq Laboratoriyasında müayinə metodları Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının metodlarına uyğunlaşdırılmışdır. |
| 50 | 5.1.1. Aqrar sahədə ali təhsilin inkişaf etdirilməsi | 2020-ci ildə aqrar ixtisaslar üzrə kurikulumların əmək bazarının tələblərinə, beynəlxalq standartlara uyğun hazırlanması məqsədilə müvafiq işlər aparılmış, kənd təsərrüfatı ixtisasları - "Aqronomluq", "Bağçılıq və tərəvəzçilik", "Balıqçılıq", "Baytarlıq təbabəti", "Bitki mühafizəsi", "Meşəçilik", "Şərabçılıq", "Su bioehtiyatları və akvakultura", "Torpaqşünaslıq və aqrokimya", "Yerquruluşu və daşınmaz əmlakın kadastrı", "Zoomühəndislik" ixtisasları, habelə texniki və texnoloji ixtisaslar qrupuna daxil olan "Aqromühəndislik" ixtisası üzrə müasir tələblərə cavab verən kurikulumlar işlənmişdir. Almaniyanın Akkreditasiya, Sertifikasiya və Keyfiyyətin Təminatı İnstitutunun 20 dekabr 2019-cu il tarixli Qərarı ilə magistr hazırlığı üzrə “Aqrar menecment” ixtisaslaşmasının tədris proqramı beynəlxalq akkreditasiyadan keçmişdir. |
| 51 | 5.1.2. Aqrar sahədə peşə təhsilinin inkişaf etdirilməsi | Aqrar sahədə peşə təhsili verən müəssisələrin potensialının artırılması məqsədilə tələbələrin təcrübə keçmə prosesinin təkmilləşdirilməsi, təhsil proqramlarının təkmilləşdirilməsi, aqrar sahədə fəaliyyət göstərən işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür. |
| 52 | 5.1.3. Aqrar təhsil müəssisələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları və emalı müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlərin işlənib hazırlanması | Hesabat dövründə Azərbaycan Dövlət Aqrar Universiteti ilə 60-dan çox müəssisə arasında əməkdaşlıq əlaqələri qurulmuşdur. |
| 53 | 5.2.2. Elmi tədqiqatların aparılmasının təşviqi mexanizminin işlənib hazırlanması | Aqrar elm müəssisələrinin Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və elmin maliyyələşdirilməsi ilə bağlı fəaliyyət göstərən digər yerli və xarici fondlarla əməkdaşlığın genişləndirməsi üçün Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən Tədbirlər planı hazırlanmış və icra edilmişdir. |
| 54 | 5.2.3. Kənd təsərrüfatı profilli elmi tədqiqat institutlarının müasir laboratoriya, cihaz və avadanlıqlarla təminatının yaxşılaşdırılması | Aqrar sahədə fəaliyyət göstərən elmi tədqiqat institutlarının cihaz və avadanlıqlarla təminatı istiqamətində tədbirlər davam etdirilmişdir. |
| 55 | 5.2.4. Elmi tədqiqatların nəticələrinin informasiya-məsləhət xidmətləri vasitəsilə fermerlərə ötürülməsinin təmin edilməsi | Elmi tədqiqatların nəticələrinin (texnologiyaların, yeni bitki sortları və heyvan cinslərinin, idarəetmə mexanizminin) informasiya-məsləhət xidmətləri vasitəsilə fermerlərə ötürülməsi məqsədilə 2019-cu il ərzində 48 elmi-praktiki konfrans, 441 elmi-prktiki təlim, 57 elmi-praktiki seminar keçirilmiş, ümumilikdə 12197 nəfər iştirak etmişdir. |
| 56 | 5.3.3. Ölkəni əhatə edən məsləhətçilər şəbəkəsinin yaradılması | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumlarından Əkinçilik Elmi Tədqiqat İnstitutu, Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu, Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutu, Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutu, Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutu, Heyvandarlıq Elmi Tədqiqat İnstitutu, Baytarlıq Elmi Tədqiqat İnstitutu, Beyləqan Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Gəncə Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Lənkəran Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Quba Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Şəki Regional Aqrar Elm və İnnovasiya Mərkəzi, Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzi və Azərbaycan Dövlət Aqrar Universitetinin əməkdaşları məsləhətçilər şəbəkəsinə cəlb edilmişdir. |
| 57 | 5.3.4. Elektron, media və çap informasiya-məsləhət xidmətləri sisteminin yaradılması | 2019-cu ilin mart-aprel ayları ərzində "Bir sual bir cavab" rubrikası "Asan-Radio FM"-də yayımlanmışdır. Rubrikanın mövzuları Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 1652 saylı Çağrı Mərkəzinə daxil olan və ən çox verilən suallar ətrafında formalaşmışdır. İnformasiya və məsləhət xarakterli posterlər, broşürlər və digər çap materialları hazırlanaraq nəşr edilmişdir. |
| 58 | 5.3.6. İstehsal vasitələri təchizatçıları, emal müəssisələri və maliyyə institutları vasitəsilə istehsalçılara informasiya-məsləhət xidmətlərinin göstərilməsi imkanlarının dəyərləndirilməsi | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən informasiya-məsləhət xidmətlərinin göstərilməsi ilə əlaqədar aqrar sahədə ixtisaslaşmış böyük şirkətlərin, peşəkar fermerlərin, kooperasiyaların (assosiasiya və ya birliklərin), pestisid və gübrə satıcılarının, toxumçu (tingçi) fermerlərin və maliyyə institutlarının iştirakı ilə görüşlər keçirilmiş, fermerlərə informasiya-məsləhət xidmətlərinin fərdi və qrup şəklində göstərilməsi imkanları müzakirə olunmuşdur. |

| | | |
|---|---|---|
| 59 | 6.1.1. Regionlarda meyvə, tərəvəz, kartof və bostan məhsulları üzrə topdansatış və logistika xidmətlərini həyata keçirən bazar infrastrukturu obyektlərinin qurulması | Meyvə, tərəvəz, kartof və bostan məhsulları üzrə topdansatış və logistika xidmətlərini həyata keçirməsi məqsədilə müvafiq ərazilərdə zəruri infrastruktur obyektləri qurulmuşdur. |
| 60 | 6.1.2. Paytaxt və regionlarda müasir standartlara uyğun ət kəsimi məntəqələri şəbəkəsinin qurulmasının dəstəklənməsi | “Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 199 nömrəli Sərəncamı imzalanmışdır. Həmin sərəncamın icrası ilə bağlı olaraq Qida Təhlükəsizliyi Agentliyi və yerli icra hakimiyyəti orqanlarının birgə faəliyyəti davam edir. |
| 61 | 6.1.3. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının saxlanılması üçün kiçik və orta həcmli soyuducu anbarların yaradılmasının dəstəklənməsi | Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2020-ci il ərzində müasir texnologiyalara əsaslanan ümumi tutumu 6.5 min ton olan 2 soyuducu anbara, eləcə də 3 kiçik həcmli soyuducu anbara güzəştli kredit vəsaiti ayrılmışdır. |
| 62 | 6.1.5. “Yaşıl market”lər və “fermer mağazası” şəbəkələrinin yaradılmasının dəstəklənməsi | Kiçik və orta fermer təsərrüfatı sahiblərinin yetişdirdiyi, eləcə də yerli istehsal ərzaq məhsullarının satışına dəstək məqsədilə “Kənddən Şəhərə” layihəsi həyata keçirilmiş, hər həftənin sonuncu və bayram günlərində Bakı şəhəri və Abşeron rayonunda yarmarkalar təşkil edilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına Bakı və Gəncə şəhərlərində, Şəmkir və İsmayıllı rayonlarında 4 ixtisaslaşdırılmış yaşıl marketin yaradılmasına güzəştli kredit verilib. 2017-ci ildə Bakının Nəsimi rayonunda 1,1 hektar ərazidə yaradılmış İxtisaslaşdırılmış Yaşıl Market Kompleksinin yaradılmasına 9,1 milyon manat dövlətin güzəştli krediti verilmişdir. |
| 63 | 6.1.6. Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satış qiymətləri üzrə elektron məlumat bazasının təkmilləşdirilməsi | Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satış qiymətləri üzrə Kənd Təsərrüfatı Məhsullarının Qiymət Məlumat Bazası (www.aqrarbazar.az) daha da təkmilləşdirilmişdir. Müvafiq məlumatlar qeyd olunan sayta daxil edilir (Sahədən satış: həftədə 2 dəfə, topdansatış: həftədə 3 dəfə; pərakəndə satış: həftədə 3 dəfə). |
| 64 | 6.2.4. Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə daxili bazarın ədalətsiz ticarət hallarından qorunması məqsədilə idxalın effektiv tənzimlənməsi sisteminin yaradılması | Daxili bazarı idxalın arzuolunmaz təsirlərindən qorumaq üçün kənd təsərrüfatı məhsulları üzrə müvafiq gömrük-tarif və qeyri-tarif siyasəti tədbirləri həyata keçirilmişdir. |
| 65 | 6.3.1. İxrac bazarlarının coğrafiyasının genişləndirilməsinə və ənənəvi ixrac bazarlarındakı mövqelərin möhkəmləndirilməsinə dəstək verilməsi | Kənd təsərrüfatı məhsullarının ixracı bazarlarının coğrafiyasının genişləndirilməsi məqsədilə beynəlxalq sərgi və yarmarkalarda fəal iştirak təmin olunmuş, yerli kənd təsərrüfatı məhsullarının təqdimatı aparılmış və zəruri əməkdaşlıq əlaqələrinin qurulmasına dəstək verilmişdir. |
| 66 | 6.3.2. “Made in Azerbaijan” brendinin təşviqi | “Made in Azerbaijan” brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə 10 fərqli mexanizm – dəstək tədbirləri icra olunmaqdadır. Dəstək tədbirlərindən asılı olaraq onların həyata keçirilməsi ilə bağlı xərclər tam və ya qismən dövlət büdcəsi hesabına qarşılanır. Azərbaycan mənşəli qeyri-neft məhsullarının, o cümlədən kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan hər bir ixracatçı bu dəstək tədbirlərinə müraciət etmək hüququna sahibdir. |
| 67 | 6.3.3. Potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması | Potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması həyata keçirilmiş, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən beynəlxalq səviyyəli sərgilər baədə məlumatlar mütəmadi olaraq potensial iştirakçılara təqdim olunmuş və bu sahədə müxtəlif dəstək tədbirləri icra olunmuşdur. Eyni zamanda, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən qeyri-neft sektoru üzrə ixraca və "Azexport" portalına daxil olan ixrac sifarişlərinə dair məlumatları əks etdirən, sahibkarları maarifləndirməyə xidmət edən informasiya bülleteni (İxrac icmal) hazırlanaraq aylıq əsasda yayımlanmışdır. |
| 68 | 6.3.4. Potensial ixracatçı fermerlərin müəyyənləşdirilməsi | İxrac bazarlarına uyğun məhsul istehsal edən əkin sahəsi 5 hektardan böyük olan təxminən 100 fermer müəyyən edilmişdir. |
| 69 | 6.3.6. İxrac sənədlərinin əldə edilməsinə dəstək verilməsi | İqtisadiyyat Nazirliyi və aidiyyəti dövlət qurumları tərəfindən ixrac sənədlərinin əldə edilməsinə dəstək verilmişdir. "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.06.2018-ci il tarixli 276 nömrəli və 29.02.2020-ci il tarixli 74 nömrəli qərarları ilə daha da təkmilləşdirilmişdir. |
| 70 | 7.1.2. Aqrometeoroloji məlumat bazasının təkmilləşdirilməsi | Torpaqda rütubətliyin təyin edilməsi üçün istifadə edilən sensor quraşdırılmış, müşahidə məlumatlarının toplanması və emalı üçün müasir proqram təminatının tədbiq edilməsinə başlanmış, "www.meteo.az" saytı vasitəsilə aqrometeoroloji məlumatların əlçatanlığı təmin edilmişdir. |
| 71 | 7.1.4. Qanunvericilik bazasının təkmilləşdirilməsi və müvafiq qurumlar arasındakı koordinasiyanın gücləndirilməsi | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 oktyabr 2019-cu il tarixli 425 nömrəli Qərarı ilə “Ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata keçirilməsi Qaydası” təsdiq edilmişdir. |

| | | |
|---|---|---|
| 72 | 7.2.4. Ətraf mühitin qorunmasına iqtisadi yanaşmanın tətbiqi | Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2019-cu il tarixli 935 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı” təsdiq edilmişdir |
| 73 | 7.2.5. Aqrobiomüxtəlifliyin qorunması | Fəaliyyəti Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən koordinasiya olunan Elmi-Tədqiqat Bitki Mühafizəsi və Texniki Bitkilər İnstitutda yaradılan perspektivli və rayonlaşmış pambıq sortlarının nümunələrinin toxumları AMEA-nın Genetik Ehtiyatlar İnstitutun milli genefondunda saxlanılır.<br>Ənənəvi seleksiya, damazlıq, biotexnologiya və molekulyar metodların tətbiqi ilə əldə edilmiş yerli bitki və heyvan genetik resurslarının toplanması, öyrənilməsi və mühafizəsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilmişdir. |
| 74 | 7.2.6. Aqrar sahədə “yaşıl iqtisadiyyat”a keçid potensialının qiymətləndirilməsi və istixanaların istilik təchizatında alternativ enerji mənbələrindən istifadə edilməsi | "Azərbaycan Respublikasında aqrar sahədə “yaşıl iqtisadiyyat”a keçidlə bağlı Energetika Nazirliyi üzrə Tədbirlər Planı" hazırlanaraq icra edilmiş, termal su potensialı barədə araşdırmalar aparılmış, istilik təchizatında günəş kollektorları, bioqazdan istifadə imkanları araşdırılmışdır. Azərbaycanda ilk və tək olmaqla Kürdəmir rayonu, Mollakənd kəndinin Carlı sahəsində geotermal su ilə isidilən əkinə yararsız torpaqlarda torpaqsız əkin üsulu ilə (kokopitlərdə) faraş tərəvəz məhsullarının sənaye üsulu ilə yetişdirilməsi üçün müasir istixana kompleksi yaradılmışdır. Quba rayonu Xınalıq kəndinin elektrik enerjisi və qaz təchizatı üçün alternativ enerji mənbələrindən istifadə etməklə hibrid sistemin yaradılması layihəsi üzrə külək, günəş enerjisindən, bioqaz və KSES-lərdən ibarət hibrid sistem qurulmuşdur. Eyni zamanda, Samux Aqroenerji Kompleksində günəş kollektorları ilə qızdırılan istixanalar yaradılmışdır. |
| 75 | 7.3.1. Torpaqların təyinatının dəyişdirilməsi prosesinin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi mexanizminin yaradılması | ”Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları“ Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmişdir.<br>Otlaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması və digər torpaqların təyinatının dəyişdirilməsi hallarının ətraf mühitə və torpaqlardan dayanıqlı istifadəyə təsirlərinin monitorinqi və qiymətləndirilməsi üçün Respublikanın rayonlarında mütəmadi monitorinqlər aparılmışdır. |
| 76 | 7.3.6. Suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və təkrar şoranlaşmanın qarşısının alınması | Mövcud suvarma və kollektor-drenaj şəbəkələrinin təmir-bərpası, yeni kollektor-drenaj şəbəkələrinin tikilməsi sahəsində tədbirlər davam etdirilmiş, şorlaşmış torpaqların duzlardan təmizlənməsi üzrə innovativ layihələr həyata keçirilmişdir. |
| 77 | 7.3.7. Su resurslarının qiymətləndirilməsi və informasiya təminatı | Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli 2178 nömrəli Sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçünTədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər Planına əsasən 2020-ci ildə su ehtiyatlarının qiymətləndirilməsi, mühafizəsi və onlardan davamlı istifadə üzrə zəruri tədbirlərin icrası təmin edilmişdir. 2020-ci il sentyabr ayında Elektron Su Portalı (http://e-su.az) istifadəyə verilmişdir. |
| 78 | 7.3.9. Dağ çaylarının idarə edilməsi | Çay məcralarında 20,2 mln m3 həcmində məcratəmizləmə işləri aparılmış, 6,8 min m3 şaxdaş və faşin , 3,5 min m3 qabion bəndlər quraşdırılmış, daş-beton bəndlərdə 24,4 min m3 həcmində təmir işləri yerinə yetirilmiş, sel və daşqın təhlükəli çaylarda 11086 pm sahilbərkitmə tədbirləri həyata keçirilmişdir.<br>Sel və daşqın sularından səmərəli istifadə edilməsi məqsədilə əlavə sututarların (göllərin) yaradılması istiqamətində müvafiq tədbirlər görülmüşdür. |
| 79 | 7.4.2. Ekoloji təmiz məhsul istehsalının təşviqi | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 sentyabr 2017-ci il 380 nömrəli qərarı ilə “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”na "Kənd təsərrüfatı ixtisasları qrupu" bölməsinin "060702 Aqronomluq" ixtisasına "Ekoloji kənd təsərrüfatı" ixtisaslaşması əlavə edilmişdir.<br>Azərbaycan Dövlət Aqrar Universitetində 2019-cu il 29-30 oktyabr tarixində “Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişafı” mövzusunda elmi-praktik konfrans keçirilimişdir.<br>AMEA-nın Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi tərəfindən ekoloji (orqanik) məhsul istehsalına keçmək istəyən istehsalçılar üçün Beynalxalq Ekoloji (Orqanik) Kənd Təsərrüfatı Hərəkatı Federasiyasının (İFOAM) standartlarına uyğun olaraq ekoloji təmiz məhsul istehsalının prinsipləri, tələbləri, üsulları, standartları və sertifikatlaşdırma problemləri də daxil olmaqla təlim kursları təşkil edilmiş və 200 fermer Avropa təşkilatları tərəfindən sertifikatlaşdırılaraq “Orqanik Fermer” statusunu qazanmışlar. |

| | | |
|---|---|---|
| 80 | 8.1.1. Aqrar sahədə lisenziya, icazə və sertifikatların verilməsinin təkmilləşdirilməsi | Azərbaycan Respublikasının 12 iyul 2019-cu il 1662-VQD Qanununa əsasən üzümçülük və şərabçılıq sahəsində bir sıra prosedurlar sadələşdirilmişdir.<br>2017-ci ildə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən yaradılmış "lisenziya.gov.az" elektron portalı istifadəyə verilmişdir. |
| 81 | 8.1.3. Biznes subyektlərinin  məhsul bazarına çıxısı və istehsal resurslarının əlyetərliyinin monitorinqinin aparılması və hesabatların hazırlanması | Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan EKTİS-də qeydiyyatdan keçmiş subyeklər arasında seçmə planı üzrə müvafiq anket formalarına uyğun monitorinq aparılıb. Bundan əlavə, ət satışı və süd emalı ilə məşğul olan subyektlər arasında monitoinqlər aparılmışdır. İntensiv quşçuluq və südçülük fermalarının mövcud problemlərinin həlli istiqamətində təkliflər hazırlanmışdır. |
| 82 | 8.1.4. Riskəsaslı yoxlama sisteminin qurulması | Beynəlxalq təcrübə araşdırılaraq insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yarada biləcək halların baş vermə risklərinin azaldılması, qarşısının alınması və qabaqlayıcı tədbirləri təmin etmək üçün müvafiq sisteminin qurulması imkanları nəzərdən keçirilmişdir. |
| 83 | 8.2.1. Torpaqların Elektron Kadastr Uçotu Sisteminin qurulması | Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2018-ci il tarixli 448 nömrəli Fərmanı ilə “Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları” təsdiq edilmişdir.<br>Torpaqların elektron kadastr uçotuna alınması, ərazilərin rəqəmsal xəritələrinin hazırlanması istiqamətində tədbirlər davam etdirilmiş, bir sıra rayonlar üzrə xəritələr hazırlanmışdır. |
| 84 | 8.2.2. “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sisteminin qurulmasının başa çatdırılması, subsidiyaların verilməsi prosesinin bu sistem vasitəsi ilə idarəedilməsi | Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (https://eagro.az/) yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2019-cu il tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”yə əsasən,  EKTİS-in strukturuna daxil olan “subsidiyalar” altsistemi vasitəsilə fermerlərə subsidiyaların verilməsinə dair müraciətlərin elektron qaydada qəbulu, emalı və cavablandırılması təmin edilir. |
| 85 | 8.2.3. “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sistemi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat subyektləri kimi qeydiyyata alınması ilə bağlı hüquqi bazanın yaradılması imkanlarına baxılması | Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2019-cu il tarixli 897 nömrəli Fərmanı ilə “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilmişdir. |
| 86 | 8.2.4. İstehsalçıların müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalında və fermer birliklərində iştirakı ilə bağlı statistik hesabatların hazırlanması | Dövlət Statistika Komitəsi tərəfindən "İstehsalçıların müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalında və fermer birliklərində iştirakına dair statistik müayinənin yekunları" hesabatı hazırlanmışdır. |
| 87 | 8.2.5. Həyətyanı sahələrdə yetişdirilən məhsullarla bağlı müayinələrin aparılması və statistik hesabatların hazırlanması | Dövlət Statistika Komitəsi tərəfindən "Həyətyanı sahələrdə yetişdirilən məhsullarla bağlı statistik müayinənin yekunları" hesabatı hazırlanmışdır. |
| 88 | 8.2.6. Meyvə bağları üzrə məlumatların ənənəvi, intensiv və superintensiv bağlar olmaqla qruplaşdırılması | Dövlət Statistika Komitəsi tərəfindən "Çoxillik əkmələrə dair statistik bülleten (ənənəvi, intensiv və superintensiv bağlar bölgüsündə)" hazırlanmışdır. |
| 89 | 8.2.7. Heyvandarlıqla bağlı spesifik statistik məlumatların hazırlanması və müayinələrin aparılması | Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Heyvandarlıqla bağlı spesifik statistik məlumatların hazırlanması və müayinələrin aparılması”na dair hesabat hazırlanmışdır. |
| 90 | 8.2.9. Baytarlıq və fitosanitar nəzarətin həyata keçirilməsinə və xidmətlərin göstərilməsinə dair məlumatların təsərrüfatlar üzrə elektron bazasının yaradılması | “Fitosanitar xidmətlərin monitorinqi” alt sisteminin yaradılması üçün proseslər öyrənilərək təhlil edilmiş, habelə “Baytarlıq xidmətlərinin monitorinqi” alt sisteminin hazırlanmasına başlanmışdır. |
| 91 | 8.2.10. Kənd təsərrüfatında ilkin uçotun təşviqi | “Fermerlər üçün ilkin uçot və qeydiyyat kitabçası” hazırlanaraq təsdiq edilmiş, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən müxtəlif rayonlarda müəyyən edilmiş 20000 (iyirmi min) fermerə “Fermerlər üçün ilkin uçot və qeydiyyat kitabçası” paylanılmış və onların maarifləndirilməsi ilə bağlı təlimlər keçirilmişdir. EKTİS-də uçot düzgün aparılması üçün fermerlərin məlumatlandırılması üçün 2019-cu ildə 29781 fermerə 2697 təlim keçirilmişdir. |
| 92 | 8.3.1. Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyindəki qurumların strateji inkişaf planının hazırlanması | “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 2020-ci ilədək Strateji İnkişaf Planı” hazırlanmışdır. |
| 93 | 8.3.2. Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyində olan qurumların fəaliyyətinə dair illik hesabatların hazırlanması və ictimaiyyətə açıqlanması | Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyində olan qurumların fəaliyyətinə dair illik hesabatlar hazırlanaraq ictimaiyyətə açıqlanmışdır. |
| 94 | 8.3.3. Kənd Təsərrüfatı Nazirliyinin aqrar sahə üzrə strateji təhlil, planlaşdırma və qiymətləndirmə fəaliyyətləri ilə bağlı potensialının gücləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarının bilik və bacarıqlarının artırılması məqsədilə onların strateji təhlil fəaliyyətləri ilə bağlı beynəlxalq və yerli seminar və təlimlərdə iştirakı təmin edilmişdir. |

| | | |
|---|---|---|
| 95 | 8.3.4. Kənd Təsərrüfatı Nazirliyinin rayon (şəhər) idarələrinin potensialının gücləndirilməsi | Dövlət Aqrar İnkişaf Mərkəzlərinin (rayon və şəhər idarələrinin) institusional potensialının gücləndirilməsi məqsədilə "İnsan Resurslarının idarəedilməsi" (61 nəfər), "Yeni Subsidiya Qaydaları" ( 468 nəfər), "Etik davranış qaydaları" (204 nəfər), "Karğüzarlığın aparılması qaydaları" (100 nəfər) və "Əmək bazarlarında ehtiyacların müəyyən edilməsi ilə bağlı sorğuların aparılması" (63 nəfər) mövzularında təlimlər keçirilmişdir. Təlimlərdən ümumilikdə 896 DAİM əməkdaşı yararlanmışdır. Bundan əlavə, Gədəbəy Dövlət Aqrar İnkişaf Mərkəzinin və Abşeron Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşlarının Çin Xalq Respublikasına təcrübə səfərləri təşkil edilmişdir. |
| 96 | 8.4.1. Subsidiyaların təkmilləşdirilməsinə dair qiymətləndirmələrin aparılması və təkliflərin hazırlanması | “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” təsdiq edilmişdir. |
| 97 | 8.4.2. Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən vergi güzəştləri və müvafiq istehsal vasitələrinin idxalına görə tətbiq edilən gömrük rüsumları siyasətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | İdxal gömrük rüsumlarından azad olunan kənd təsərrüfatı istehsal vasitələrinin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 avqust tarixli 337 nömrəli Qərarında qeyd edilmişdir. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 12 iyul 2019-cu il tarixli 1656-VQD nömrəli Qanunu ilə bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı ƏDV-dən azad edilmişdir.<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 dekabr tarixli 463 nömrəli qərarı ilə toyuq əti, damazlıq yumurta, ərzaqlıq yumurta, soğan, xurma, fındıq,armud, pomidor, xiyar, alma, təzə üzüm idxalına tətbiq edilən əlavə idxal rüsumunun qüvvədə olma müddəti 2 il uzadılmışdır. |
| 98 | 8.4.4. Kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun güzəştli satışı ilə bağlı texniki-iqtisadi əsaslandırmaların aparılması | "Kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun güzəştli satışı ilə bağlı texniki-iqtisadi əsaslandırmanın icrası üzrə Tədbirlər Planı" Nazirlər Kabinetinin 2017-ci il 28 dekabr tarixli 918 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. |
| 99 | 8.4.6. Çoxillik əkmələrin genişləndirilməsinin stimullaşdırılması | Çoxillik əkmələrin genişləndirilməsinin stimullaşdırılması üzrə müvafiq tədbirlər icra olunmuşdur. Eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin Elmi Şurasının 30 aprel 2019-cu il tarixli iclasının qərarı ilə təsdiq edilmiş "Aqrar Tədqiqatlar Mərkəzinin 2019-cu il üzrə İş Planı"na uyğun olaraq çoxillik əkmələrin genişləndirilməsinin stimullaşdırılması ilə bağlı təkliflərin hazırlanması təmin edilmişdir. |
| 100 | 8.5.1. Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə göstəricilər sisteminin və metodikasının hazırlanması | Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin 2019-cu il 30 dekabr tarixli 218 nömrəli Əmri ilə "Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə göstəricilər sistemi" təsdiq edilmişdir. |
| 101 | 8.5.2. Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə hesabatların hazırlanması | Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə hesabat" hazırlanmışdır. |
| 102 | 8.5.3. “Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi”nin fəaliyyətinin təkmilləşdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi üzrə Hesabat" hazırlanmışdır. |
| 103 | 9.1.3. Kənd yerlərinin sosial-iqtisadi inkişafı ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi | Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli 1169 nömrəli Fərmanı ilə “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də müvafiq dəyişikliklər edilmişdir. |
| 104 | 9.1.4. Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının hazırlanması | Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə ““Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. |
| 105 | 9.2.2. Qeyri-kənd təsərrüfatı istehsal sahələrinin inkişaf etdirilməsi | Azərbaycan Respublikasının 30.11.2018-ci il tarixli 1356-VQD nömrəli və 29.11.2019-cu il tarixli 1704-VQD nömrəli Qanunları ilə Vergilər Məcəlləsində dəyişikliklər edilmiş, turistlərin tələbatına müvafiq istehsal sahələrinin də daxil olduğu mikro sahibkarlıq subyektləri gəlir vergisindən 75%, mənfəət vergisindən 75%, əmlak və torpaq vergilərindən 100% azad olmuş, idxalda ƏDV-dən azad olunma, sürətli amortizasiya və vergi ödəyicisi olmayan istehsalçılar tərəfindən (kənd yerlərində ailə sənətkarları) istehsal olunan malların alınması prosedurlarının sadələşdirilməsi ilə bağlı hüquqlar əldə etmişlər. |
| 106 | 9.3.2. Kənd yerlərində icma səviyyəli gəlir gətirən sektorların təşviqi və dəstəklənməsi | “Sosial-İqtisadi İnkişaf Fəaliyyəti” (SEDA) layihəsi çərçivəsində 2020-ci il ərzində Qusar rayonunun Balaqusar kəndində "Meyvə Qurutma Məntəqəsinin tikintisi" layihəsinin, Xudat şəhərində, Astara rayonunun Siyaku kəndində və Lerik rayonunun Piran kəndində "Bal Qablaşdırma Məntəqəsinin tikintisi" layihələrinin və Yardımlı rayonunun Köryədi kəndində "Un Məmulatları İstehsalı Məntəqəsinin tikintisi" layihəsi icra olunmuş və istifadəyə verilmişdir. |

| | | |
|---|---|---|
| 107 | 9.3.3. Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi | “Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi” adlı layihənin icrası davam etdirilmiş, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Gənclər Fondunun birgə icra etdiyi “Gənclərin Dayanıqlı Məşğulluğu Proqramı” çərçivəsində ilk layihəyə - “Biznesini Yarat Marafonu”na start verilmiş, Dövlət Məşğulluq Agentliyi tərəfindən müəyyən edilən prioritet iqtisadi sahələr və peşələr (ixtisaslar) üzrə vakansiyası olan və ya yeni vakansiya yaradan işəgötürənlər əməkhaqlarının bir hissəsinin İşsizlikdən sığorta fondunun vəsaiti hesabına maliyyələşdirilməsi proqramına start verilmişdir. Özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilmişdir. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.1.1. Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması imkanlarının dəyərləndirilməsi | Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması imkanları təhlil edilmişdir. |
| 2 | 1.1.2. Ölkədə ərzaq məhsulları ilə təchizatın dayanıqlılığı baxımından risklərin qiymətləndirilməsi məqsədilə mütəmadi monitorinqlərin aparılması | Ölkədə ərzaq məhsulları ilə təchizatın dayanıqlılığı baxımından risklərin qiymətləndirilməsi məqsədilə mütəmadi monitorinqlərin aparılması istiqamətində beynəlxalq təcrübə araşdırılaraq təhlil edilmişdir. |
| 3 | 1.1.3. Rasional fizioloji normaların hazırlanaraq təsdiq olunması, bunun əsasında əhalinin ərzaq məhsulları üzrə cari və perspektiv tələbatının həcmi və ödənilməsi səviyyəsinin mütəmadi təhlili və qiymətləndirilməsi sisteminin qurulması | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 30.08.2019-cu il tarixli 57 nömrəli əmri ilə "Azərbaycan Respublikasının əhalisi üçün rasional fizioloji istehlak Normaları" təsdiq edilmişdir. |
| 4 | 1.1.4. Əhalinin müxtəlif təbəqələrinin ərzağa əlyetərliyi səviyyəsi və buna təsir edən amillərin qiymətləndirilməsi məqsədilə monitorinq sisteminin qurulması | Dövlət Statistika Komitəsi tərəfindən "Əhalinin ərzağa əlyetərliliyi üzrə statistik müayinənin yekunları" Hesabatı hazırlanmışdır. |
| 5 | 1.1.5. Ərzaq məhsullarının istehsalı, idxalı, ehtiyatları və ticarət axınları üzrə vahid elektron informasiya portalının yaradılması | Ərzaq məhsullarının istehsalı, idxalı, ehtiyatları və ticarət axınları üzrə vahid elektron informasiya portalının yaradılması sahəsində ilkin hazırlıq işləri görülmüşdür. Satınalan təşkilatların ərzaq məhsullarına tələbatı Portalı (http://tedaruk.az/) yaradılmışdır. |
| 6 | 1.2.1. Ərzağa əlyetərliyin təmin edilməsi məqsədilə ərzaq ehtiyatlarının formalaşdırılması | Ərzaq ehtiyatlarına tələbata uyğun məhsulun saxlanılması üçün infrastruktura, o cümlədən yeni elevatorlara və taxıl anbarlarına ehtiyaclar qiymətləndirilmişdir. |
| 7 | 1.2.2. Əhalinin bütün qruplarının ərzaq təminatının yaxşılaşdırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi | Əhalinin daha həssas sosial qruplarının ərzaqla təminatının yaxşılaşdırılması ilə bağlı beynəlxalq təcrübə araşdırılmışdır. |
| 8 | 1.2.3. Fövqəladə vəziyyət şəraitində əhalinin ərzaq məhsulları ilə təmin edilməsi imkanlarının genişləndirilməsi | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2020-ci il tarixli 433 nömrəli Qərarı ilə “Ərzaq mallarının və neft məhsullarının azaldılmaz ehtiyatlarının həcmi, nomenklaturu və istifadə qaydası" təsdiq edilmişdir. |
| 9 | 2.1.5. Qurudulmuş və dondurulmuş meyvə-tərəvəz məhsulları istehsalının artırılmasının dəstəklənməsi | “Qurudulmuş və dondurulmuş meyvə-tərəvəz məhsulları istehsalının artırılmasının dəstəklənməsinə dair İnkişaf planı” hazırlanmışdır. |
| 10 | 2.2.2. Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsinin digər regionlarda tətbiq edilməsi | Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsi təhlil edilmişdir. |
| 11 | 2.2.6. Ərzaq təyinatlı yumşaq və bərk buğda və digər dənli paxlalı bitkilər istehsalının həcminin artırılmasının dəstəklənməsi | Müvafiq rayonlarda makaron istehsalı müəssisələrinin yaradılması imkanları araşdırılmışdır. |
| 12 | 2.3.2. Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlərin müəyyən olunması və tətbiqi imkanlarının araşdırılması | Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlərin müəyyən olunması və tətbiqi üzrə beynəlxalq təcrübə araşdırılmışdır. |
| 13 | 2.3.3. Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi istiqamətində məlumatlandırma işlərinin aparılması və informasiya məsləhət xidmətlərinin göstərilməsi | Kənd təsərrüfatı kooperativlərinin nümunəvi nizamnamələri hazırlanmışdır.<br>Kooperativlərin yaradılmasının təşviq edilməsi məqsədilə müxtəlif rayonlarda və kəndlərdə fermerlərlə keçirilmiş görüşlərin, dünya üzrə işlək kooperativ modelləri, onların üstün cəhətləri barədə mütəmadi maarifləndirici təbliğat işlərinin nəticəsində 2020-ci il ərzində 6 yeni kooperativ yaradılmışdır. |
| 14 | 2.4.1. Dövlət-özəl tərəfdaşlığının inkişafı üçün dəstək mexaniziminin müəyyən edilməsi | Dövlət-özəl tərəfdaşlığının inkişafı üçün dəstək mexanizminin müəyyən edilməsi üzrə beynəlxalq təcrübə araşdırılmışdır. |
| 15 | 2.4.3. Dövlət-özəl investisiya fondunun yaradılması imkanlarının dəyərləndirilməsi | Dövlət-özəl investisiya fondu ilə bağlı beynəlxalq təcrübə araşdırılmışdır. |

| | | |
|---|---|---|
| 16 | 2.4.4. Dəstək paketi üzrə fəaliyyəti tənzimləyən normativ hüquqi bazanın yaradılması | Dəstək paketi üzrə fəaliyyəti tənzimləyən qanunvericilik layihələri hazırlanmışdır. |
| 17 | 2.4.6. Fəaliyyətin icra mərhələlərinin müəyyən edilməsi | Dövlət-özəl sektor əməkdaşlıq layihələrinin icrası çərçivəsində aqropark şəbəkəsinin genişləndirilməsinə yönəldilmiş investisiyaların həcmini artırmaq və biznes hədələrinə nail olmaq məqsədilə həyata keçirlən kompleks fəaliyyətlər üzrə icra mərhələləri müəyyənləşdirilmişdir. |
| 18 | 2.5.2. Sənaye məhəllələrinin yaradılmasının dəstəklənməsi | Aqroparka bitişik sənaye məhəllələrinin yaradılması ilə bağlı beynəlxalq təcrübə öyrənilmiş, “Sənaye məhəllələrinin yaradılmasının dəstəklənməsinə dair Fəaliyyət planı” hazırlanmışdır. |
| 19 | 2.5.3. Aqrobiznes inkubatorlarının yaradılmasının dəstəklənməsi | Aqrobiznes inkubatorlarının yaradılmasının dəstəklənməsi üzrə beynəlxalq təcrübə öyrənilmiş, ölkədə aqrar sahədə biznes mühitinin ümumi təhlili aparılmışdır. |
| 20 | 3.1.6. Aqrar sektora təsir edən risklərin idarəolunması üzrə mexanizmlərin hazırlanması | Aqrar sektora təsir edən risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması üzrə Birgə İşçi Qrupu formalaşdırılmış, ölkədə aqrar sektora təsir edən sistemli risklər qiymətləndirilmişdir. |
| 21 | 3.2.3. Sığorta Hadisələri Reyestrinin hazırlanması | Ölkədə kənd təsərrüfatı sığorta hadisələrinin qiymətləndirilməsi üzrə səmərəli fəaliyyət və nəzarət məqsədilə reyestr üçün hüquqi çərçivə işlənib hazırlanmışdır. |
| 22 | 3.2.4. Karantin rejiminin tətbiqi ilə bağlı kənd təsərrüfatı istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi mexanizminin yaradılması | Ölkədə karantin rejimi ilə bağlı mövcud vəziyyət araşdırılmış, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 23 | 3.3.1. Aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması | Qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq aqrosənaye sektoruna investisiya dəstəyinin təşkili üçün konsepsiya sənədi hazırlanmışdır. |
| 24 | 4.1.1. Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı, icarə və istifadəyə verilməsi ilə bağlı prosedurların sadələşdirilməsi və bu sahədə şəffaflığın artırılması | Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı, icarəyə və istifadəyə verilməsi ilə bağlı mövcud qanunvericiliyin monitorinqi aparılmış, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 25 | 4.1.3. Torpaqların konsolidasiyası istiqamətində tədbirlərin görülməsi | Qabaqcıl təcrübə nəzərə alınmaqla, torpaqların konsolidasiyası ilə bağlı imkanlar təhlil edilmiş, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 26 | 4.2.2. Suvarma suyu ilə təminatın yaxşılaşdırılması | Mövcud ehtiyacların və resursların qiymətləndirilməsi əsasında suvarma suyu ilə təminatın yaxşılaşdırılması ilə bağlı fəaliyyət planı hazırlanmışdır. |
| 27 | 4.2.4. Sudan İstifadəedənlər Assosiasiyalarının fəaliyyətinin genişləndirilməsi | Sudan istifadəedənlər assosiasiyalarının fəaliyyətlərinin genişləndirilməsi və təkmilləşdirilməsi üçün təkliflər hazırlanmışdır. |
| 28 | 4.4.1. Toxum və ting istehsalının təşviq edilməsi | Toxum və ting istehsalı ilə məşğul olan təsərrüfatların fəaliyyətinin gücləndirilməsinə dəstək vermək üçün fəaliyyət planı hazırlanmışdır. |
| 29 | 4.4.2. Toxum və ting istehsalında keyfiyyətə nəzarət sisteminin yaradılması və sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi | Toxum və ting istehsalında keyfiyyətə nəzarət sisteminin yaradılması və sertifikatlaşdırma mexanizmi ilə bağlı mövcud qanunvericiliyin monitorinqi aparılmışdır, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 30 | 4.4.4. Toxumçuluq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsi | Bir sıra toxumçuluq laboratoriyaları akkreditasiyadan keçirilmişdir. |
| 31 | 4.5.1. Gübrəyə olan tələbatın müəyyən edilməsi | Mineral gübrəyə olan tələbat əkin strukturu, bitkilərin bioloji xüsusiyyətləri, planlaşdırılan orta məhsuldarlıq və orta torpaq münbitliyi nəzərə alınmaqla balans metodu ilə müəyyən edilmişdir. |
| 32 | 4.6.1. Qarışıq qüvvəli yem bazarının strukturunun öyrənilməsi və bu sahənin inkişaf etdirilməsi | “Qarışıq qüvvəli yem bazarının strukturunun öyrənilməsi və bu sahənin inkişaf etdirilməsi”nə dair tədbirlər planı hazırlanmışdır. |
| 33 | 4.7.2. Heyvanların sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin yaradılması | Heyvanların sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin qurulması istiqamətində bir sıra institusional və texniki tədbirlər görülmüşdür. |
| 34 | 4.7.3. Bitkilərin sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin yaradılması | Bitki xəstəlikləri ilə bağlı risklərin idarə edilməsi üzrə effektiv sistemin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüş, o cümlədən respublika ərazisində bitki və bitkiçilik məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin vahid reyestrdə qeydiyyatı davam etdirilmiş və məlumatlar “Fitosanitar nəzarət modulu”na yerləşdirilmiş, müntəzəm fitosanitar monitorinqlər (müşahidələr) aparılmış, Respublika ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərə (yastıcalar, kolorado kartof böcəyi, alaq otları və s.) qarşı fitosanitar müşahidələr aparılmış, sirayətlənmə aşkarlanmış ərazilərdə bitki mühafizə tədbirləri həyata keçirilmişdir. |

| | | |
|---|---|---|
| 35 | 5.2.1. Kənd təsərrüfatı sahəsində elmi tədqiqatların prioritetlərinin müəyyən olunması və nəticəyönümlülüyünün artırılması | Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzi (AEİM) sisteminə daxil olan elmi-tədqiqat institutlarının hər birinin mandatına uyğun olaraq elmi tədqiqatların prioritet istiqamətləri müəyyənləşdirilmiş və respublikanın kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən torpaqların münbitliyinin yaxşılaşdırılması, biomüxtəlifliyin qorunması, saxlanması və istifadəsi, bitkiçilikdə heyvandarlıqda yeni yüksək məhsuldar sort və cinslərin yaradılması, mütərəqqi texnologiyaların hazırlanması, səmərəli bitki mühafizəsi və baytarlıq xidmətləri tədbirlərinin işlənməsi, elmi tədqiqatlardan alınmış nəticələrin heyvandarlıq və quşçuluq təsərrüfatlarında tətbiqi, aqrar sahənin sosial-iqtisadi inkişaf məsələlərinin öyrənilməsi və digər istiqamətlər üzrə tədqiqatlar davam etdirilmişdir. |
| 36 | 5.3.1. Aqrar sahədə informasiya-məsləhət xidmətlərini tənzimləyən mexanizmin hazırlanması | Aqrar sahədə informasiya-məsləhət xidmətləri ilə bağlı mövcud qanunvericiliyin monitorinqi aparılmış, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 37 | 5.3.2. AEİMM-in fəaliyyət mexanizminin təkmilləşdirilməsi | AEİMM-in illik fəaliyyət planı hazırlanmış və icra edilmişdir. |
| 38 | 6.1.4. Taxılçılıq regionlarında kiçik və orta həcmli taxıl anbarlarının yaradılmasının dəstəklənməsi | Emal müəssisələrinin və digər tədarükçülərin iştirakı, kiçik və orta təsərrüfatların istehsalçı birlikləri (assosiasiyalar) çərçivəsində birgə istifadədə olmaqla, adekvat həcmdə taxıl anbarlarının təchizatına dəstək verilməsi üzrə araşdırma aparılmışdır. Bundan əlavə, taxıl anbarı kompleksinin yaradılması Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurası tərəfindən 2020-ci il üzrə Fondun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadiyyatın sahələri üzrə müəyyən edilmiş prioritet istiqamətlərə daxil edilmişdir. |
| 39 | 6.2.1. Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi | Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı mövcud qanunvericiliyin monitorinqi aparılmış, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 40 | 6.2.2. Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə tədarük sisteminin inkişaf etdirilməsi | Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə tədarük sisteminin səmərəliliyinin artırılması və mövcud problemlərin aradan qaldırılması məqsədilə tədarük mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanmışdır. |
| 41 | 6.2.3. Bazar şərtlərinin əlverişsiz olduğu hallar üzrə intervensiya tədbirləri sisteminin qurulması | İntervensiya tədbirlərinin tətbiqi üçün qiymət və istehsal xərcləri ilə bağlı informasiya sistemlərinin və intervensiya alətlərinin yaradılması mexanizmlərinə dair təkliflər hazırlanmışdır. |
| 42 | 6.3.5. Sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi, beynəlxalq standartların təmin edilməsi | "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2019-cu il tarixli 1669-VQ nömrəli Qanunu qəbul edilmişdir. |
| 43 | 7.1.3. Kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin yaradılması imkanlarına baxılması | Kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin yaradılması ilə bağlı tədbirlər çərçivəsində atmosferdə baş verən hidrometeoroloji proseslərin və təhlükəli atmosfer hadisələrinin geniş öyrənilməsinə, hidrometeoroloji proqnozların dəqiqliyinin artmasına, o cümlədən dolu hadisələri barədə erkən xəbərdarlığın təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərəcək sistemlər quraşdırılmışdır. |
| 44 | 7.2.1. Kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğu üzrə müasir tələblərə cavab verən indikatorların hazırlanması və qiymətləndirmənin aparılması | “Yaşıl kənd təsərrüfatı”na dəstək üzrə Birgə Fəaliyyət Planı (2020-2023-cü illər)” çərçivəsində tədbirlər görülmüşdür. |
| 45 | 7.2.3. Tarlaqoruyucu meşə zolaqlarının salınması | Tarlaqoruyucu, torpaqqoruyucu və suqoruyucu meşə və meşə zolaqlarının salınması sahəsində tədbirlər planı hazırlanmış, bir sıra ərazilərdə tarlaqoruyucu meşə zolaqlarının salınması ilə bağlı işlər görülmüşdür. |
| 46 | 7.3.2. Torpaqdan səmərəli istifadənin təmini və torpaqların rekultivasiyası üzrə tədbirlərin həyata keçirilməsi | Kür-Araz ovalığında torpaqların yararlı hala salınması üçün hazırlanmış proqram çərçivəsində kollektor-drenaj şəbəkəsi, yeni suvarma kanalı, suvarma boru xəttləi tikilmiş, kanallar yenidən qurulmuşdur. Şorlaşmış və şorakətləşmiş torpaqlarda xüsusi tədbirlərin (məsələn, gipsləşdirmə tədbirləri, xüsusi növ toxumlardan istifadə olunmaqla məhsul istehsalı) həyata keçirilməsi üçün tövsiyələr hazırlanmışdır |
| 47 | 7.3.3. Torpaqların aqrokimya analizlərinin aparılması | Aqrokimya laboratoriyaları modernləşdirilmiş, bir sıra ərazilərdə torpaqların aqrokimyəvi analizləri aparılmışdır. |
| 48 | 7.3.4. Otlaqların idarəedilməsinin təkmilləşdirilməsi | Qış otlaqları, yay otlaqlarında müəyyən geobotaniki tədqiqat işləri aparılaraq ərazilərin geobotaniki xəritələri və tədbirlər kartoqramları hazırlanmışdır. Bundan başqa, yay, qış otlaqlarının və kəndətrafı örüş sahələrinin fərdi olaraq tutumu, məhsuldarlığı, bir hektarda otarılacaq xırdabuynuzlu heyvanların baş sayı, keyfiyyət qrupu, çətinlik dərəcəsi də müəyyənləşdirilmişdir. Otlaqların inventarlaşması üzrə mövcud vəziyyət qiymətləndirilmişdir. |

| | | |
|---|---|---|
| 49 | 7.3.5. Suvarma suyunun istehlakçıya çatdırılması zamanı itkilərin azaldılması | Suvarma sistemlərində lildən təmizləmə işləri aparılmış, suvarma kanalları təmizlənmişdir. Suyun daşınması zamanı itkilərin azaldılması üçün su kanallarına investisiya qoyuluşu istiqamətində tədbirlər həyata keçirilmişdir. |
| 50 | 7.3.8. Quraq regionlarda sudan istifadənin yaxşılaşdırılması | Yeni magistral suvarma və paylayıcı kanallar tikilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə sututarlarda yenidənqurma işləri aparılmışdır. |
| 51 | 7.4.1. Ekoloji təmiz kənd təsərrüfatı istehsalı ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi və dövlət proqramının hazırlanması imkanlarının dəyərləndirilməsi | Ekoloji təmiz kənd təsərrüfatı ilə bağlı mövcud qanunvericiliyin monitorinqi aparılmış, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə layihələr hazırlanmışdır. |
| 52 | 7.4.3. Ekoloji təmiz məhsul istehsal edən fermerlərin formalaşdırılması | Ekoloji təmiz məhsul istehsalının prinsipləri, tələbləri, üsulları, standartları və sertifikatlaşdırma problemləri də daxil olmaqla təlim kursları təşkil edilmiş və 200 fermer Avropa təşkilatları tərəfindən sertifikatlaşdırılaraq “Orqanik Fermer” statusunu qazanmışlar. |
| 53 | 8.2.8. Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı | Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı sahəsində beynəlxalq təcrübə öyrənilmiş, layihələr hazırlanmışdır. |
| 54 | 8.4.3. İstixanaların genişləndirilməsini stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirlərinə dair təkliflərin hazırlanması | İstixanaların genişləndirilməsinin stimullaşdırılması üzrə beynəlxalq təcrübə araşdırılmışdır. |
| 55 | 8.4.5. Heyvandarlığın inkişafı üçün dövlət dəstəyinin verilməsi ilə bağlı təkliflərin hazırlanması | Bir sıra təsərrüfatlara dövlət dəstəyinin verilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırmalar aparılmışdır. |
| 56 | 9.1.2. Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik bazanın və monitorinq sisteminin yaradılması | Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik baza və monitorinq sisteminin yaradılması prosedurları hazırlanmışdır. |
| 57 | 9.2.1. Kənd turizminin və ekoturizmin inkişaf etdirilməsi | “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nə müvafiq olaraq ölkənin turizm potensialı olan kəndləri barədə araşdırma aparılmış, bir sıra layihələr hazırlanmışdır. |
| 58 | 9.2.3. Kənd yerlərində xidmət sahələrinin inkişaf etdirilməsi | Xaçmaz KOB İnkişaf Mərkəzində və sahibkara məxsus təsərrüfatda kənd təsərrüfatına dair fərdi məsləhət xidmətləri keçirilmiş, məsləhət xidmətləri çərçivəsində KOB-larla torpağın münbitliyi, düzgün şumlanması, meliorasiya, yüksək məhsuldarlıq üçün əkin və suvarma sistemlərinin tətbiqi, hansı növ məhsulun əkilməsi üzrə müzakirələr aparılmışdır.<br>Yevlax KOB İnkişaf Mərkəzində Aran iqtisadi rayonundan olan mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün “Öz biznesinə başla” mövzusunda təlim keçirilmişdir.<br>KOBİA-nın dəstəyi ilə Füzuli rayonunda məcburi köçkün qadınlar üçün yeni biznes sahələri yaradılmışdır. Çörək, şirniyyat və inkubator sexləri, gözəllik salonu, damazlıq keçi və qoyunçuluq təsərrüfatlarının istifadəyə verilməsi ilə bağlı Füzuli rayonunda tədbir keçirilmişdir. |
| 59 | 9.2.4. Kənd yerlərində qadınların və gənclərin məşğulluğunun artırılması | KOBİA-nın təşkilatçılığı ilə Qəbələ və Oğuzda toxuculuq və tikiş bacarığı olan qadınlar üçün “MirvariStore” layihəsinin təqdimatı keçirilmişdir.<br>Xaçmaz KOB İnkişaf Mərkəzində gənclər və qadınlar üçün Biznes İnkubasiya Mərkəzi fəaliyyətə başlamış, mikro, kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınlar üçün “Satış kanallarına çıxış” mövzusunda məsləhət xidmətləri göstərilmişdir. |
| 60 | 9.2.5. Yeni ailə qurmuş gənclərin mənzillə təminatının yaxşılaşdırılması | Kənd yerlərində gənc ailələrin və gənc mütəxəssislərin mənzilə əlçatanlığının artırılması üçün tədbirlər müəyyənləşdirilmişdir. Müvafiq kəndlərdə yaşayan gənc ailələrin mənzil probleminin həllinə xüsusi yanaşma tətbiq olunaraq, 2020-ci il ərzində Biləsuvar rayonunda 43 gənc ailəyə fərdi ev tikilib verilmiş, Bərdə rayonunda 64 mənzil və fərdi ev tikilib istifadəyə verilmişdir. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA LOGİSTİKA VƏ TİCARƏTİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.3.1. Avtomobil nəqliyyatı infrastrukturu ilə bağlı əlavə tədbirlərin görülməsi | Azərbaycanda avtomobil yollarının, körpü və tunellərin yükgötürmə imkanlarına dair qiymətləndirmə aparılmış, avtomobil yollarının, körpü və tunellərin yükgötürmə qabilliyyətinin artırılması məqsədi ilə "Avtomobil yollarında körpülər, qurğular və suötürücü borular, yüklər və təsirlər AAY – Tİ – 2018" standartı hazırlanmış və tətbiq edilməyə başlanmışdır.<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2019-cu il ərzində 1376,6 km uzunluğunda avtomobil yolları, o cümlədən 139,8 km uzunluğunda respublika əhəmiyyətli, 908,8 km uzunluğunda yerli əhəmiyyətli yollar tikilmiş, yenidən qurulmuş və təmir olunmuşdur. 2020-ci il ərzində 1385,3 km uzunluğunda avtomobil yolları, o cümlədən 254,6 km uzunluğunda respublika əhəmiyyətli, 767,2 km uzunluğunda yerli əhəmiyyətli yollar, prospekt və küçələr tikilmiş, yenidən qurulmuş və təmir olunmuşdur.<br>2020-ci il ərzində respublikanın ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhərində 20 yeni körpü tikilmiş, 3 körpü təmir edilmiş, 2 avtomobil tuneli tikilmiş, bir yeni metal dəmiryolu yol ötürücüsü və 9 piyada keçidi tikilərək əhalinin istifadəsinə verilmişdir.<br>Qlobal Rəqabətlilik Hesabatına əsasən, 141 ölkə arasında Azərbaycan "Yol infrastrukturunun keyfiyyəti" indeksinə görə 27-ci yerdə qərarlaşmışdır (2019/2020). |
| 2 | 1.3.2. Logistika və ticarət sahəsində xarici ekspertlərlə əməkdaşlıq edilməsi | Logistika sahəsində həcm və dəyər artımı baxımından irəliləyişə nail olmaqda qarşıya çıxan əsas çatışmazlıqların müəyyən edilməsi məqsədilə xarici ekspertlərlə əməkdaşlıq qurulmuşdur. |
| 3 | 1.3.3. Çatışmazlıqların müəyyən edilməsi və həlli yollarının prioritetləşdirilməsi | Logistika sahəsində həcm və dəyər artımı baxımından irəliləyişə nail olmaqda qarşıya çıxan əsas çatışmazlıqlar qiymətləndirilərək prioritetləşdirilmiş, Azərbaycanda logistika sahəsinin inkişafı üzrə strategiya layihəsi hazırlanmışdır. |
| 4 | 1.3.5. Dəmiryol vaqonlarının təkər cütlüklərinin dəyişdirilməsi əməliyyatlarında Azərbaycanla Gürcüstan arasında daha üst səviyyədə əməkdaşlığın təmin edilməsi | Vaqonların təkər cütlüklərinin dəyişdirilməsi üzrə maddi-texniki bazanın təkmilləşdirilməsi üçün qiymətləndirmə aparılmış, əməkdaşlıq əlaqələri təkmilləşdirilmişdir. |
| 5 | 1.3.6. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə təhlillərin aparılması | Mövcud dəmiryol infrastrukturunun təhlili aparılmış, təkmilləşdirilmə istiqamətləri müəyyənləşdirilmişdir. Respublikamızın dəmir yolu sistemində korporativ, institusional, maliyyə və insan resursları sahəsində islahatların həyata keçirilməsini nəzərdə tutan "Dəmir Yolu Sektorunun İnkişafı Proqramı", habelə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin beşillik biznes-planı hazırlanmışdır. |
| 6 | 1.3.7. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması | "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində aparılan işlər çərçivəsində Astara stansiyasından İran İslam Respublikası ilə sərhədə qədər 8,3 km birxətli dəmir yolu çəkilmiş, Astaraçay üzərində dəmir yolu körpüsü inşa olunmuşdur. 2018-ci il fevralın 2-də Astara (Azərbaycan) – Astara (İran) dəmir yolu marşrutu ilə Rusiya Federasiyasından gələn 6 vaqondan ibarət ilk sınaq yük qatarı İrana yola salınmışdır. Həmçinin Astaraçay üzərində dəmiryol körpüsündən İran ərazisində tikilmiş yük terminalına qədər 1,4 km yol çəkilmişdir.<br>2017-ci il oktyabrın 30-da Bakı–Tbilisi–Qars dəmir yolunun təntənəli açılışı olmuşdur. Uzunluğu təxminən 850 kilometr olan dəmir yolunun 500 kilometrdən çoxu Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yük daşımalarının həcmi 2019-cu ildə 110 174 ton, 2020-ci ildə 224 944 ton təşkil etmişdir.<br>Dəmir yolu infrastrukturunun genişləndirilməsi, o cümlədən orta sürət həddinin artırılması və lokomotiv parkının yenilənməsi məqsədilə investisiya cəlb edilmişdir.<br>Qlobal Rəqabətlilik Hesabatına əsasən, 141 ölkə arasında Azərbaycan "Dəmiryollarının sıxlığı" indeksinə görə 34-cü, "Dəmiryolu xidmətlərinin səmərəliliyi" indeksinə əsasən isə 11-ci yerdə qərarlaşmışdır (2019/2020). |

| | | |
|---|---|---|
| 7 | 2.1.1. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasının hüquqi rejiminin hazırlanması | "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 18 may 2018-ci il tarixli 1143-VQ nömrəli Qanunu qəbul edilmişdir.<br>"Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 may 2020-ci il tarixli 1032 nömrəli Fərmanı ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu yaradılmışdır.<br>"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələrək aidiyyəti normativ hüquqi aktlarda müvafiq uyğunlaşma tədbirləri həyata keçirilmişdir. |
| 8 | 2.1.2. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonası üçün hədəflərin və əsas icra göstəricilərinin müəyyənləşdirilməsi | Azad ticarət zonasında potensial iqtisadi sektor və seqmentlərlə bağlı təfərrüatlı təhlillərin aparılması təmin edilmiş, müvafiq hədəflərin və əsas icra göstəricilərinin müəyyənləşdirilməsi üzrə zəruri işlər görülmüşdür. |
| 9 | 2.1.4. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasında qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün insan kapitalının qiymətləndirilməsi | Logistika sahəsində gənc kadrların yetişdirilməsi məqsədilə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC ilə bir sıra universitetlər arasında anlaşma memorandumları imzalanmış, beynəlxalq səviyyəli limanlarla gələcəkdə bilik və təcrübə mübadiləsinin aparılması, liman əməkdaşlarının ixtisas biliklərinin təkmilləşdirilməsi istiqamətində ölkə daxili və ölkə xarici təlimlərin təşkil olunması istiqamətinə əməkdaşlıq əlaqələri qurulmuşdur.<br>15 yanvar, 2021-ci il tarixində “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC ilə Avropanın isə ikinci ən böyük limanı olan Antverp Limanının “APEC Liman Təlim Mərkəzi” arasında Anlaşma Memorandumu imzalanmışdır. |
| 10 | 2.1.5. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonası üzrə normativ-hüquqi bazaya dəyişikliklərin edilməsi ilə bağlı təkliflər paketinin işlənib hazırlanması və bu sahədə islahatların aparılması | "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 18 may 2018-ci il tarixli 1143-VQ nömrəli Qanunu qəbul edilmişdir.<br>"Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 may 2020-ci il tarixli 1032 nömrəli Fərmanı ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu yaradılmışdır.<br>"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələrək aidiyyəti normativ hüquqi aktlarda müvafiq uyğunlaşma tədbirləri həyata keçirilmişdir. |
| 11 | 2.1.7. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasına beynəlxalq şirkətlərin cəlb edilməsi üçün sərgilərin, o cümlədən satış sərgilərinin təşkil edilməsi | Müvafiq tədbirin icrasından irəli gələrək aidiyyəti təhlillər aparılmış və hazırlıq işləri görülmüşdür. |
| 12 | 2.2.1. Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında müxtəlif sahələr üzrə klasterlərin inkişafı üçün sənaye və altsənaye sektorlarının potensialını qiymətləndirəcək işçi qrupun yaradılması | Azad ticarət zonasında klasterlərin inkişafı üçün potensial sənaye və altsənaye sektorlarının müəyyənləşdirilməsi üçün işçi qrupu yaradılmışdır. |
| 13 | 2.2.2. Ələt qəsəbəsində yerləşən azad ticarət zonasının güclü tərəflərinin və imkanlarının təqdim edilməsi | Ticarətyönümlü emal mərkəzinin yaradılması məqsədilə Ələt Azad Ticarət Zonasının texniki-iqtisadi əsaslandırılması hazırlanmışdır. Eyni zamanda, beynəlxalq məsləhətçi şirkətlə birlikdə Ələt Azad Ticarət Zonasının GZİT təhlili aparılmış, əlverişli coğrafı mövqedə yerləşməsi, geniş iqtisadi imkanların – 1000 km məsafədə olan böyük bazarlara yaxınlığı, Şərq – Qərb və Şimal – Cənub yük daşınması axınlarının kəsişmə nöqtəsində yerləşməsinin yaratdığı üstünlüklər müəyyən edilmişdir. |
| 14 | 2.3.1. Logistika və ticarət mərkəzlərinin yaradılması üçün təhlillərin aparılması və uyğun məkanların seçilməsi | Logistika və ticarət mərkəzlərinin yaradılacağı yerlər barədə texniki-iqtisadi əsaslandırmalar aparılmışdır. |
| 15 | 2.3.5. Heydər Əliyev Beynəlxalq Hava Limanı ərazisində logistika qovşağının (“hub”) yaxın gələcəkdə açılmasının nəzərdən keçirilməsi | Heydər Əliyev Beynəlxalq Hava Limanının ərazisində logistika qovşağının yaradılması imkanları təhlil edilmişdir. |
| 16 | 3.1.3. Hava limanlarının infrastrukturunun təkmilləşdirilməsi | Hava limanlarının infrastrukturunun təkmilləşdirilməsi sahəsində zəruri işlər icra olunmuşdur.<br>Qlobal Rəqabətlilik Hesabatına əsasən, 141 ölkə arasında Azərbaycan "Hava yolları xidmətlərinin səmərəliliyi" indeksinə görə 12-ci yerdə qərarlaşmışdır (2019/2020). |
| 17 | 3.1.4. Aşağıbüdcəli aviaşirkətin yaradılması | Azərbaycanın aşağı büdcəli aviadaşıyıcısı "Buta Airways" şirkəti 2017-ci ilin sentyabr ayından fəaliyyətə başlamışdır. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.1.1. Beynəlxalq ticarətdə logistika sahəsi üzrə Azərbaycanın hədəflərinin müəyyən edilməsi | “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC, “Azərbaycan Dəmir Yolları” QSC və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin cari imkanları, resursları və təkmilləşdirmə planları barədə məlumatlar toplanmış, beynəlxalq ticarətdə logistika sahəsi üzrə Azərbaycanın xüsusi hədəfləri müəyyən edilmiş, vaxt və xərclər baxımından tranzit daşımalarda rəqabət qabiliyyətinin artırılması, yüklərin cəlb edilməsi istiqamətində aparılmış araşdırma nəticəsində tədbirlər planları hazırlanmışdır. |

| | | |
|---|---|---|
| 2 | 1.1.2. Logistika üzrə nəzarət mexanizminin və normativ-hüquqi bazanın təkmilləşdirilməsi | Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2019-cu il tarixli 521 nömrəli Fərmanı ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009- cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilmişdir.<br>“Nəqliyyat haqqında”, “Aviasiya haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 24 aprel 2020-ci il tarixli 60-VIQD nömrəli Qanunu qəbul edilmişdir.<br>"Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və liman ərazisində sərnişin terminalının tikintisi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 06 avqust tarixli 386 nömrəli Sərəncamı imzalanmışdır.<br>"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Azərbaycan Respublikasının 2018-ci ilin 12 oktyabr tarixli 1277-VQ nömrəli Qanunu qəbul edilmişdir. |
| 3 | 1.1.3 Hədəflərə çatmaq üçün görüləcək mütəmadi tədbirlər və nəticələr barədə məlumatların təmin edilməsi | “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC, “Azərbaycan Dəmir Yolları” QSC və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC tərəfindən əsas icra göstəricilərinə və hədəflərə dair məlumatlar mütəmadi şəkildə toplanmış və müvafiq qaydada internet səhifələrində ictimaiyyətə açıqlanmışdır. |
| 4 | 1.2.1. Üç əsas layihənin icrasına nəzarət edilməsi və yaranacaq yeni problemlərin həllinə dəstək göstərilməsi | Üç əsas layihə üzrə işlərin gedişatının izlənilməsi üzrə xüsusi monitorinq sisteminin yaradılması ilə bağlı təkliflər hazırlanmışdır. |
| 5 | 1.2.2. Bu sahədə özəl sektorun iştirakının qiymətləndirilməsi | Özəl sektorun iştirakı imkanları qiymətləndirilmiş, "Gübrə terminalı", "Taxıl terminalı", "TIR parkı", "Gəmi təmiri emalatxanası" kimi müxtəlif layihələrin dövlət-özəl tərəfdaşlığı əsasında qurulması ilə bağlı təkliflər verilmişdir. |
| 6 | 1.2.4. Əsas icra göstəricilərinin müəyyən edilməsi | “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC, “Azərbaycan Dəmir Yolları” QSC və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC tərəfindən marşrutlardan istifadəyə dair əməliyyat göstəricilərinin izlənilməsi təmin edilmişdir. |
| 7 | 1.2.5. Sahə üzrə təhlillərin aparılması və həmin təhlillər əsasında yeni hədəflərin müəyyən edilməsi | Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı Kompleksi layihəsinin, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin və Astara-Astara dəmir yolu layihəsinin təsir etdiyi marşrutlar üzrə tranzit yük axınları və yük axınlarının həcmindəki dəyişikliklərlə bağlı təhlillər aparılmış, marşrutlar üzrə yükdaşımaların həcminin artırılmasının təşviqi üzrə tədbirlər həyata keçirilmişdir. |
| 8 | 1.3.4. Azərbaycanda yükdaşıma və yükaşırma təkmilləşdirilməsi | Yükdaşıma və yükaşırma sahəsində rəqabət qabiliyyətinin artırılması üçün xidmətlərin təkmilləşdirilməsi məqsədilə texniki-iqtisadi əsaslandırma aparılmışdır. |
| 9 | 2.1.3. Yeni Bakı Limanı infrastrukturunda və yardımçı xidmətlərdə özəl xidmətlərinin sektorun iştirakının təmin edilməsi | Bakı Limanı tərəfindən gübrə və taxıl terminalının texniki-iqtisadi əsaslandırılması aparılmış, "Tik-idarə et-təhvil ver" kimi mexanizmlər vasitəsilə özəl sektor tərəfindən maliyyələşdirilməsi üzrə müxtəlif variantlar təklif edilmişdir. |
| 10 | 2.3.2. Bölgələrdəki logistika və ticarət mərkəzləri üçün infrastruktur layihələrində özəl sektorun iştirakının təmin edilməsi | Bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması üzrə tələb edilən infrastrukturla bağlı investisiya tələbləri dəyərləndirilmişdir. |
| 11 | 2.3.3. Bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması onların idarəolunma mexanizminin müəyyən edilməsi | Logistika və ticarət mərkəzlərində göstərilməli olan xidmətlərin növləri və potensial miqyası müəyyən edilmişdir. |
| 12 | 3.1.1. Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin və yüksəldilməsi üçün proqramın hazırlanması | Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi üçün proqram layihəsi hazırlanmışdır. |
| 13 | 3.1.2. Hava yolları sahəsində görüləcək işlərdə özəl sektorun iştirakının qiymətləndirilməsi | Hava yollarında əməliyyatların qabaqcıl dünya ölkələrinin təcrübələri ilə müqayisəli təhlili aparılmışdır. |
| 14 | 3.1.5. Dəmir yolları sahəsində özəl sektorun iştirakının təmin edilməsi | Logistika və ticarət sahəsinin inkişafı üçün dəmir yollarında ən çox investisiya tələb edən sahələr müəyyən edilmiş, özəl sektorun iştirakının təmin edilməsi imkanları araşdırılmışdır. |
| 15 | 3.1.6. Dəniz nəqliyyatı sahəsində özəl sektorun iştirakının təmin edilməsi | Özəl sektorun dəniz nəqliyyatının inkişaf etdirilməsində rolunun artırılması imkanları araşdırılmışdır. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA MALİYYƏ XİDMƏTLƏRİNİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Bank sektorunun hərtərəfli diaqnostikasının aparılması | Banklar üzrə hərtərəfli diaqnostika aparılmış, bank sektorunun likvidlik mövqeyi və kreditləşmə imkanları müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 11 mart 2019-cu il tarixli qərarı ilə “Bankın sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi Meyarları” təsdiq edilmişdir. |
| 2 | 1.1.2. Problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planının hazırlanması | Maliyyə sisteminin sağlamlaşdırılması prosesləri çərçivəsində problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planı hazırlanmışdır. |
| 3 | 1.1.3. Planın icrası və monitorinqin aparılması | Problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planına əsasən həmin banklarda aktivlərin keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə yoxlamalar keçirilmişdir. Eyni zamanda, “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”na uyğun olaraq "Bank sektorunun sağlamlaşdırılması tədbirlərinin sürətləndirilməsi" üzrə müvafiq tədbirlər icra olunmuşdur. |
| 4 | 1.1.4. Problemli bankların restrukturizasiyası üzrə institusional və hüquqi mexanizmlərin yaradılması | Azərbaycan Respublikasının 7 aprel 2017-ci il tarixli 569-VQD nömrəli Qanunu ilə “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1360 nömrəli Fərmanı ilə "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası" təsdiq edilmişdir.<br>"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli 551 nömrəli Fərmanı imzalanmışdır. |
| 5 | 1.1.7. Likvidliyin verilməsi alətlərinin genişləndirilməsi | Likvidliyin verilməsi alətlərinin genişləndirilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür. |
| 6 | 1.3.1. Müvafiq işçi qrupların yaradılması | Kənd təsərrüfatı sığortası, mikrosığorta, müştərək sığorta və icbari tibbi sığorta üzrə müvafiq işçi qruplar yaradılmışdır. |
| 7 | 1.3.2. Cari vəziyyətin diaqnostikasının aparılması | Kənd təsərrüfatı sığortası, mikrosığorta, müştərək sığorta və icbari tibbi sığorta üzrə cari vəziyyətin diaqnostikası aparılmış və qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, hüquqi, tənzimləyici və institusional çərçivənin formalaşdırılması məqsədilə tədbirlər müəyyən edilmişdir. |
| 8 | 1.3.3. Məlumat sisteminin yaradılması | Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 iyul 2020-ci il tarixli 238 nömrəli Qərarı ilə “Aqrar sığorta” informasiya sisteminin Əsasnaməsi” və “Aqrar sığorta” informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı təsdiq edilmişdir. |
| 9 | 1.4.1. Maliyyə xidmətlərinin çatdırılması kanallarının inkişaf etdirilməsi | 2016-cı il 28 oktyabr tarixli “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunması ilə kredit məlumatlarına çıxış sürətləndirilmişdir. “Daşınar əmlakın yüklülüyü haqqında” 2017-ci il 2 may tarixli Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. 2019-cu ilin fevral ayında "ASAN finans” layihəsi fəaliyyətə başlamışdır.<br>Dünya Bankının "Doing Business 2020" hesabatına əsasən Azərbaycan "Getting Credit (Kreditlərin alınması)" indikatoru üzrə 190 ölkə arasında 1-ci yerə yüksəlmişdir ("DB 2018" üzrə 122-ci yer). |
| 10 | 2.1.1. Listinqə çıxışı məhdudlaşdıran amillərin təhlili | Mövcud səhm və istiqraz seqmentləri üzrə listinq tələbləri təhlil olunmuş və çatışmazlıqlar müəyyən edilmişdir. Habelə qiymətli kağızlar bazarında tətbiq olunan mövcud tarif siyasətinin emitentlərə və investorlara təsiri simulyasiyalar aparılmaqla təhlil edilmişdir. "Bakı Fond Birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" daha da təkmilləşdirilərək 6 mart 2020-ci il tarixdə təsdiq edilmişdir. |

| | | |
|---|---|---|
| 11 | 2.1.2. Stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi | Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il 16 dekabr tarixli Qərarı ilə “Milli Depozit Mərkəzinin xidmət haqları” təsdiq edilmişdir. Yeni tarif siyasəti çərçivəsində fond birjasında listinqdə çıxan şirkətlər tərəfindən Milli Depozit Mərkəzinə ödənilən tariflər iki dəfədən çox azaldılmış, fond birjasında korporativ qiymətli kağızlarla təkrar bazar, marketmeyker və repo əqdlərinin qeydiyyatı üzrə investorlardan tutulan tariflər optimallaşdırılmış, ipoteka istiqrazları üzrə sərəncamçı xidmətlərindən tutulan tariflər azaldılmışdır. |
| 12 | 2.1.3. Yeni listinq prosedurlarının müəyyənləşdirilməsi | 2021-ci il 18 noyabr tarixində “Bakı Fond Birjasında qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" yenilənərək təsdiq olunmuşdur (06.03.2020-ci il tarixli qaydalar qüvvədən düşmüşdür). Yenilənmiş qaydalara əsasən listinqlə bağlı sənəd dövriyyələri azaldılmışdır. Eyni zamanda, ən yaxşı bençmarklar nəzərə alınmaqla BFB-nin internet səhifəsinin təkmilləşdirilməsi və istifadəyə daha yararlı olması istiqamətində işlər aparılmışdır.<br>Kapital bazarının infrastrukturunun təkmilləşdirilməsi çərçivəsində qiymətli kağızların emissiyası prosesinin elektronlaşdırılması üzrə müvafiq layihə üzrə ilkin hazırlıq işləri görülmüşdür. |
| 13 | 2.1.4. Sahiblik düşüncə tərzinin dəyişdirilməsi | Sahiblik düşüncə tərzinin dəyişdirilməsi tədbirləri çərçivəsində Mərkəzi Bank tərəfindən 2020-cu ildə təşviqat və maarifləndirmə işləri təşkil edilmiş, kapital bazarında iştirakın stimulaşdırılması üzrə müvafiq layihələr icra edilmiş, beynəlxalq konfranslarda və təcrübə mübadisəsi proqramlarında iştirak təmin edilmiş, bir ali təhsil ocaqlarında kapital bazarlarına dair seminarlara cəlb edilmiş, həmçinin onlayn platformalar və kütləvi informasiya vasitələri ilə geniş ictimaliyyətə kapital bazarına dair maarifləndirici məlumatlar təqdim edilmişdir. |
| 14 | 2.1.5. Yol xəritəsinin hazırlanması və icrası | "Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması" prioritetinin icrasına dair 2018-2020-ci illər üzrə Tədbirlər Planı hazırlanaraq icra edilmişdir. |
| 15 | 2.2.1. Maliyyə bazarlarına çıxış imkanlarının təhlili | İnvestorların kapital bazarlarına inteqrasiyasının təmin olunması üçün beynəlxalq təcrübə və mövcud qanunvericilik araşdırılmış, təkmilləşdirmə imkanları müəyyən edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli 497 nömrəli Sərəncamının icrası ilə əlaqədar İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən “www.enterpriseazerbaijan.com” internet portalı istifadəyə verilmişdir. Portal Azərbaycana birbaşa xarici investisiyaların cəlb edilməsi potensialının təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə ölkədə alternativ maliyyələşməyə açıq layihələr və yeni investisiya imkanları haqqında məlumatları əks etdirən, həmçinin investisiya layihələrini yerli və xarici investorların maliyyələşdirməsi üçün əlverişli platformadır. |
| 16 | 2.2.2. Fərdi və institusional investorlar üçün stimulların diferensiallaşdırılması | Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilmiş, investorlar üçün bir sıra stimullar müəyyən edilmişdir. |
| 17 | 2.2.4. Şəffaflığın artırılması üzrə təşəbbüslərin müəyyənləşdirilməsi | “Məlumatların Elektron Açıqlanması Sistemi (MEAS)” daha da təkmilləşdirilmiş və genişləndirilmişdir. Bakı Fond Birjasının internet səhifəsi üzrə emitent profilində emitent haqqında məlumat çeşidliliyi artırılmış, əlavə hesabatlar və məlumatlar yüklənmişdir. İnsayder ticarəti üzrə nəzarət tədbirlərinin sərtləşdirilməsi ilə bağlı tədbirlər müəyyən edilmişdir. |
| 18 | 2.3.1. Banklararası pul bazarının təşviqi | Banklararası əməliyyatların vahid ticarət platformasında aparılması ilə bağlı təşviqedici tədbirlər görülmüş, Blumberq ticarət sistemində banklararası pul bazarı əməliyyatlarının aparılması və onlayn rejimdə Mərkəzi Bank tərəfindən bu əməliyyatlarla bağlı məlumatların əldə edilməsi imkanını yaradan “E-Bond” platforması bankların istismarına verilmişdir. |
| 19 | 2.3.2. Təminat çeşidinin artırılması | Mərkəzi Bank tərəfindən pul siyasəti əməliyyatları zamanı təminat qismində qəbul olunan qiymətli kağızların siyahısı genişləndirilmişdir. |
| 20 | 3.1.1. Özəl kredit bürolarının yaradılmasının təşviqi | Azərbaycanın ilk özəl kredit bürosu “Azərbaycan Kredit Bürosu” MMC (AKB) 15 yanvar 2018-ci il tarixində ölkənin 8 böyük bankının təsisçiliyi ilə yaradılmışdır. |

| | | |
|---|---|---|
| 21 | 3.1.2. MKR və özəl kredit büroları arasında məlumat mübadiləsinin təşkili | "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununun 23.1-ci maddəsinə əsasən, kredit təşkilatlarının borcalanları barədə mərkəzləşdirilmiş kredit reyestrində olan bütün məlumatlar həmin Qanunun qüvvəyə mindiyi gündən üç il müddətində fəaliyyətə başlayan istənilən kredit bürosuna onun müraciəti əsasında birdəfəlik və ödənişsiz verilir.<br>Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Mərkəzləşdirilmiş kredit reyestri tərəfindən "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununun 23.1-ci maddəsinə uyğun olaraq kredit təşkilatlarının borcalanları barədə məlumatların "Azərbaycan Kredit Bürosu" MMC-ə ötürülməsi təmin edilmişdir. |
| 22 | 3.2.1.Məhkəmə qərarlarının icrasının diaqnostikası və təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsi | Hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarlarının icrası proseslərinin sürətləndirilməsi istiqamətində müvafiq araşdırmalar aparılmış və mövcud vəziyyətin diaqnostikası həyata keçirilmişdir. Aparılmış diaqnostika nəticəsində icra prosesini mürəkkəbləşdirən və ləngidən faktorlar müəyyən olunmuşdur.<br>"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli 551 nömrəli Fərmanına əsasən, fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası ilə əlaqədar məhkəmədə olan işlər üzrə müvafiq tapşırıqlar icra edilmişdir. |
| 23 | 3.2.2. Kompleks həll yollarının müəyyənləşdirilməsi | Kompleks həll yollarının müəyyənləşdirilmiş, girovların satışının alternativ üsullarla həyata keçirilməsi imkanları qiymətləndirilmişdir. |
| 24 | 4.1.1. Bank sektorunda risk idarəetməsinin diaqnostikası | Banklarda risklərin idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə cari vəziyyətin diaqnostikası aparılmış və Bazel II/III prinsipləri ilə müqayisə həyata keçirilmişdir.<br>Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının 11 iyul 2019-cu il tarixli Qərarı ilə "Banklarda korporativ idarəetmə Standartları" təsdiq edilmişdir. |
| 25 | 4.1.3. Sistem əhəmiyyətli bankların tənzimləmə mexanizminin müəyyən edilməsi | Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 11 mart 2019-cu il tarixli qərarı ilə "Bankın sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi Meyarları", habelə 29 dekabr 2018-ci il tarixli Qərarı ilə "Bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin tənzimlənməsi haqqında Qaydalar" təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 24 aprel 2020-ci il tarixli Qərarı ilə "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" təsdiq edilmişdir. |
| 26 | 4.2.1.Konsolidasiya edilmiş prudensial nəzarət mexanizminin araşdırılması | Konsolidasiya edilmiş prudensial nəzarət mexanizmi ilə əlaqədar beynəlxalq təcrübə araşdırılmış, o cümlədən konsolidasiya edilmiş nəzarət üzrə Bazel Komitəsinin prinsipləri və Avropa İttifaqının tənzimlənmə və nəzarət direktivləri tədqiq edilmişdir. |
| 27 | 4.2.3. Konsolidasiya edilmiş riskəsaslı nəzarət yanaşmasının araşdırılması | Konsolidasiya edilmiş riskəsaslı nəzarət modeli ilə bağlı araşdırma aparılmışdır. |
| 28 | 4.3.1. Banklarda rəqəmsallaşma ilə bağlı cari vəziyyətin qiymətləndirilməsi | Bankların rəqəmsal hazırlığının qiymətləndirilməsi üçün bir sıra məsələləri əhatə etməklə banklarda fərdi qaydada sorğu keçirilmişdir.<br>"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq rəqəmsal bankçılığın inkişaf etdirilməsi və digər istiqamətlərdə müvafiq tədbirlərin icrası həyata keçirilmişdir. |
| 29 | 4.3.2. Tənzimləmə çərçivəsində zəruri dəyişikliklərin müəyyən edilməsi | Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün kağızəsaslı əməliyyatlara və onlar üzərində nəzarət tədbirlərinə, nağdsız əməliyyatlar üzrə məhdudiyyətlərə və izafi hesabatlılıq kimi məsələlərə fokuslanmaqla, tənzimləmə mexanizmində zəruri dəyişiklikləri əhatə edən tədbirlər müəyyən edilərək prioritetləşdirilmişdir. |
| 30 | 4.3.3. Müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi | Banklarda rəqəmsallaşdırma proseslərinin sürətləndirilməsinin dəstəklənməsi məqsədilə tədbirlər görülmüş, o cümlədən təmassız ödəniş imkanlarının artırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının 28 oktyabr 2019-cu il tarixli qərarı ilə "Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"na dəyişiklik edilmişdir. |

| | | |
|---|---|---|
| 31 | 4.4.1. Hesabatlılıq və məlumatların açıqlanması üzrə cari vəziyyətin diaqnostikası | Hesabatlılıq və məlumatların açıqlanması sahəsində beynəlxalq təcrübə araşdırılmış, xüsusilə Bazel Komitəsinin Kapital Sazişi üzrə III sütunu, Avropa Direktivləri, qabaqcıl bankların ictimaiyyətə açıqladığı məlumatlar, sığortanın əsas prinsipləri, prosessinq mərkəzləri ilə bağlı bir sıra ölkə təcrübələrinə baxılmışdır. Hesabatların diaqnostikası iki istiqamətdə aparılmışdır: (i) ictimaiyyətə məlumatların açıqlanması üzrə normativ-hüquqi aktların (qanunvericiliklə müəyyən edilmiş tələblərin) diaqnostikası; (ii) qanunvericiliyin tələblərinin icra vəziyyəti. Maliyyə bazarı iştirakçılarının ictimaiyyətə açıqlanmalı hesabatlarının standartlaşdırılması imkanları təhlil edilmişdir. |
| 32 | 4.4.3. Məlumatların açıqlanması mexanizmlərinin müəyyən edilməsi | Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının 11 iyul 2019-cu il tarixli Qərarı ilə “Banklarda korporativ idarəetmə Standartları” təsdiq edilmişdir. |
| 33 | 4.5.1. Sığorta sektoru üzrə tənzimləmə və nəzarət mexanizminin diaqnostikasının aparılması | Sığorta sektoru üzrə tənzimləmə və nəzarət mexanizminin diaqnostikası aparılmışdır. Bu çərçivədə sığorta qanunvericiliyinin Beynəlxalq Sığorta Nəzarətçilərinin Assosiyasiyası tərəfindən hazırlanmış ICP (Insurance Core Principles) prinsiplərinə uyğunluğu qiymətləndirilmişdir. Qiymətləndirmə nəticəsində aşkar edilmiş çatışmazlıqlar nəzərə alınaraq, tənzimləmə və nəzarət çərçivəsinin gücləndirilməsi istiqamətləri müəyyən edilmişdir. |
| 34 | 4.5.2. Yeni mexanizmlərin tətbiqi üzrə tədbirlər planının hazırlanması | “Sığorta sektorunun tənzimlənməsi və nəzarəti üzrə Tədbirlər Planı (2017-2019)” təsdiq olunmuşdur. Plan 3 əsas istiqamətlərə bölünmüşdür:<br>1) sığorta bazarının sağlamlaşdırılması, dayanıqlılığın və sabitliyin təmin olunması;<br>2) dayanıqlı sığorta bazarının formalaşdırılması;<br>3) effektiv sığorta sisteminin yaradılması. |
| 35 | 5.1.1. Potensialın artırılması üzrə tədbirlərin əlaqələndirilməsi | "Peşəkar bilik və bacarıqların artırılması üzrə Tədbirlər Planı" hazırlanmış və icra edilmişdir. |
| 36 | 5.2.1. Maliyyə savadlılığının artırılması istiqamətlərinin müəyyənləşdirilməsi | Mərkəzi Bankın Maliyyə Savadlılığı Strategiyası yenidən işlənmişdir. Eyni zamanda, yerli və beynəlxalq təşkilatların ölkə əhalisi arasında keçirdiyi sorğuların nəticələri təhlil edilərək tərəfdaş qurumlarla birgə müxtəlif hədəf qrupların maliyyə savadlılığı səviyyəsinin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən edilmişdir. |
| 37 | 5.2.2. Tədbirlərin müəyyənləşdirilməsi | “İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi” prioritetinin icrası üzrə Tədbirlər Planı hazırlanmışdır. |
| 38 | 5.2.3. Pilot layihələrin həyata keçirilməsi | Mərkəzi Bankın Virtual Təhsil Platforması (https://edu.e-cbar.az/) yaradılaraq istifadəyə verilmişdir. VTP iqtisadiyyat və bank-maliyyə sahəsində bilik və bacarıqların əldə edilməsini dəstəkləyən ödənişsiz platformadır. |
| 39 | 5.2.4. Tədbirlərin icrası və monitorinqi | Ali və orta ixtisas təhsili müəssisələrinin qeyri-iqtisad yönümlü ixtisaslar üzrə təhsil alan tələbələri üçün müxtəlif mövzularda maarifləndirici seminarlar; tələbə və gənclər üçün “Gənclər üçün Maliyyə Savadlılığı” adlı təlimlər; peşə təhsili müəssisələrində maarifləndirici təlimlər; kiçik ev təsərrüfatları, eləcə də “ABAD”çı ailələr üçün təlimlər; iş yerlərində maliyyə savadlılığı ilə əlaqədar təlim və seminarlar; təqaüdçülər üçün maliyyə savadlılığı ilə əlaqədar təlim və seminarlar; karantin rejimində bank xidmətlərindən istifadə ilə bağlı animasiyalar; rəqəmsal ödənişlər üzrə infoqrafika müsabiqəsi və digər layihələr həyata keçirilmişdir. |

| S/s | Qismən icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.6. Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi | Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanmışdır. |
| 2 | 1.2.1. Qeyri-işlək aktivlərin idarə edilməsi üzrə hüquqi mexanizmlərin yaradılması | Qeyri-işlək aktivlərin idarə olunması bazarının formalaşdırılması ilə bağlı normativ hüquqi aktların layihələri hazırlanmışdır. |
| 3 | 1.2.3. Restrukturizasiya strategiyasının müəyyən edilməsi | Qeyri-işlək aktivlər portfeli ilə iş üzrə strategiyalar araşdırılmış, layihə hazırlanmışdır. |
| 4 | 1.3.4. Tədbirlər planının hazırlanması və icrasına başlanılması | Kənd təsərrüfatı sığortası, mikrosığorta, müştərək sığorta və icbari tibbi sığorta sistemlərinin inkişafına dair tədbirlər planları hazırlanmışdır. |
| 5 | 1.4.2. Maliyyə inklüzivliyinə xidmət edən maliyyə institutları üçün əlverişli tənzimləmə və dinamik nəzarət çərçivəsinin yaradılması | Sağlam kreditləşmə və məsuliyyətli borclanma prinsiplərinin maliyyə xidməti göstərən institutlarda tətbiqinin təmin olunması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. |
| 6 | 2.1.6. Gəlirlilik əyrisinin formalaşdırılması | Dövlət qiymətli kağızları üzrə gəlirlilik əyrisinin formalaşdırılması məqsədilə tədbirlər planı hazırlanmışdır. |
| 7 | 2.1.7. Sekyuritizasiya prosesinin təşviqi | Sekyuritizasiya prosesinin tənzimlənməsi və tətbiqi sahəsində beynəlxalq təcrübə öyrənilmişdir. |
| 8 | 2.2.5. Müəyyən edilmiş tədbirlərin icrası | Maliyyə bazarlarına çıxış imkanlarının təhlili üzrə və şəffaflığın artırılması üzrə təşəbbüslərin müəyyənləşdirilməsi üzrə tədbirlərin icrası təmin edilmişdir. |
| 9 | 2.3.3. Marketmeyker institutunun yaradılması | Marketmeyker institutunun yaradılması ilə bağlı qanunvericilik layihələri hazırlanmışdır. |
| 10 | 3.1.3. Milli reytinq agentliklərinin yaradılması imkanlarının qiymətləndirilməsi | Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, milli reytinq agentliklərinin yaradılması imkanları qiymətləndirilmişdir. |
| 11 | 3.2.3. Tədbirlər planının hazırlanması və tətbiqinə başlanılması | 3,2-ci prioritet üzrə qanunvericiliyə dəyişikliklər, qurumlararası inteqrasiya və maarifləndirmə işlərinin təşkili tədbirlərindən ibarət Tədbirlər Planı hazırlanmışdır. |
| 12 | 3.2.4. Tədbirlər planının monitorinqi | Sistemin təkmilləşdirilməsi məqsədilə görülmüş tədbirlərin nəticələri üzrə monitorinq və qiymətləndirmə aparılmışdır. |
| 13 | 4.1.2. Yol xəritəsinin hazırlanması | Bazel II standartının 2-ci sütununun tam tətbiqi üçün tədbirlər planı hazırlanmış və bazar risklərinə dair prudensial tənzimləmə mexanizmi formalaşdırılmışdır. |
| 14 | 4.2.2. Prudensial nəzarətin konsolidasiyaəsaslı təşkil edilməsi | Prudensial nəzarətin konsolidasiyaəsaslı təşkil edilməsi ilə bağlı yol xəritəsi hazırlanmışdır. |
| 15 | 4.2.4. Konsolidasiya edilmiş riskəsaslı nəzarətə keçidin təmin edilməsi | Konsolidasiya edilmiş riskəsaslı nəzarətə keçidin təmin edilməsi üçün tədbirlər planı müəyyən edilmişdir. |
| 16 | 4.4.2. Yeni hesabatvermə formalarının hazırlanması | Yeni hesabatvermə formalarının hazırlanması məqsədilə araşdırmalar və diaqnostika nəticələri əsasında təkmilləşdirmə istiqamətləri müəyyən edilmişdir. |
| 17 | 4.5.3. Tədbirlər planının icrası | "Sığorta sektorunun tənzimlənməsi və nəzarəti üzrə Tədbirlər Planı"nın icrası üzrə işçi qrup yaradılmış və tədbirlər planının monitorinqi mexanizmi hazırlanmışdır. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA UYĞUN QİYMƏTƏ MƏNZİL TƏMİNATININ İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Qanunvericilik bazasının nəzərdən keçirilməsi və müvafiq səlahiyyətlərin Mənzil İnşaatı Dövlət Agentliyinə ötürülməsi, qanunvericilikdə aparılmalı dəyişikliklərin layihəsinin maraqlı tərəflərə təqdim edilməsi | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası" təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2019-cu il tarixli 469 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında dəyişiklik edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 7 fevral 2018-ci il tarixli 1819 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin Nizamnaməsi" təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1418 nömrəli Fərmanı ilə "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə" təsdiq edilmişdir. |
| 2 | 1.1.2. Mənzil İnşaatı Dövlət Agentliyi üçün effektiv təşkilati inkişaf planının hazırlanması | Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin 2020-2022-ci illər üçün təşkilati inkişaf planı hazırlanmışdır. |
| 3 | 1.1.3. Mənzil İnşaatı Dövlət Agentliyi üçün büdcənin hazırlanması, təsdiqlənməsi və dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi üzrə tədbirlərin həyata keçirilməsi | Mənzil İnşaatı Dövlət Agentliyi üçün orta və uzun müddətli dövr üzrə ayırmalar ilə bağlı proqnozlar hazırlanmış, Mənzil İnşaatı Dövlət Agentliyinin dövlət tərəfindən maliyyələşdirilməsinin minimuma endirilməsi məqsədilə özəl investisiyaların cəlb olunması üzrə tədbirlər həyata keçirilmişdir.<br>Ümumilikdə 5 il ərzində dövlət-özəl tərəfdaşlığı çərçivəsində MİDA-nın reallaşdırdığı layihələrə çoxmənzilli yaşayış binalarının tikintisi, telefon, televiziya və internet xətlərinin çəkilməsi və sakinlərə müvafiq xidmətlərin göstərilməsi üzrə 80 milyon manata yaxın özəl investisiya cəlb edilmişdir. |
| 4 | 1.2.3. Uyğun qiymətə mənzil təminatı üçün dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi və təsdiqi, eləcə də normativ hüquqi bazanın təkmilləşdirilməsi | Uyğun qiymətə mənzil təminatı üçün dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi ilə bağlı qanunvericilik təkmilləşdirilmişdir. |
| 5 | 2.1.1. Uyğun qiymətə mənzil təminatı layihələri üçün ölkə miqyasında araşdırmaların aparılması və zəruri torpaq sahələrinin müəyyən edilməsi | Əhalinin güzəştli şərtlərlə mənzillərə sahib olmasını təşkil etmək məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyinə 2016-cı ildə Bakı şəhərinin Yasamal rayonunda əvvəlcə 11,6 hektar, 2017-ci ildə Suraxanı rayonunda 20 hektar və daha sonra Yasamal rayonunda 15,4 hektar, 2019-cu ilin əvvəlində Sumqayıt şəhərində 0,75 hektar, iyun ayında isə Gəncə şəhərində 6,23 hektar, 2020-ci ildə Suraxanı rayonunda 23,25 hektar torpaq sahələri ayrılmışdır. Bununla yanaşı, 2021-ci ilin mart ayında Lənkəran şəhərində 1,5 hektar və Sumqayıt şəhərində isə 2 hektar torpaq sahəsi güzəştli mənzillərin tikintisinin reallaşdırılması məqsədi ilə Agentliyin sərəncamına verilmişdir. |
| 6 | 2.1.2. Seçilmiş torpaq sahələri üzərində mülkiyyət hüququnun uyğun qiymətə mənzil təminatı layihələrinin həyata keçirilməsi üçün "MİDA" MMC-yə ötürülməsi | Mülkiyyət hüququnun Mənzil İnşaatı Dövlət Agentliyinə verilməsi ilə bağlı müvafiq mexanizmin tətbiqi ilə əlaqədar müvafiq işlər görülmüş və bu sahədə təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. |
| 7 | 2.2.1. Seçilmiş kateqoriyalara uyğun benefisiarların müəyyən edilməsi | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3.2-ci bəndində güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik şəxslərin siyahısı müəyyən edilmiş və genişləndirilmişdir. |
| 8 | 2.2.2. İnfrastrukturun yaradılması, benefisiarlarla bağlı meyarların ictimaiyyətə çatdırılması, müraciətlərin qəbulu, mənzillərin bölüşdürülməsi, nəzarət və illik hesabatın təqdim edilməsi | Hesabat dövrü ərzində (2016-2020) Yasamal Yaşayış Kompleksi və Hövsan Yaşayış Kompleksində ümumilikdə 4805 mənzil, 2 orta təhsil məktəbi, 3 uşaq bağçası, 1 tibb mərkəzi inşa olunmuşdur. Yasamal Yaşayış Kompleksində yerləşən 1633 güzəştli mənzilin satışı tam başa çatdırılmış, Hövsan Yaşayış Kompleksində satışa çıxarılan mənzillərdən isə 655-nin rəsmiləşdirilməsi yekunlaşdırılmışdır.<br>5 il ərzində Agentliyin fəaliyyəti nəticəsində ümumilikdə 3 279 ailə mənzil ilə təmin edilmişdir. |
| 9 | 2.2.3. Mənzil üçün dövlət dəstəyi alan benefisiarların müəyyən edilməsi prosesinin koordinasiya edilməsi | Dövlət sifarişi əsasında dövlət orqanları, təşkilatları və müəssisələrinin işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyinin layihələrindən ümumilikdə 1418 mənzil dövlət sifarişi əsasında ayrılmışdır. Bu mənzillərdən 991-nin rəsmiləşdirilməsi başa çatdırılmışdır. |
| 10 | 2.3.1. Müxtəlif icra modellərinin seçilməsi prinsipinin müəyyən edilməsi | Müxtəlif icra modellərinin mexanizmlərinin forma və üsulları ilə bağlı təkliflər hazırlanmış və icra modellərinin seçilməsi prinsipləri müəyyən edilmişdir. |

| | | |
|---|---|---|
| 11 | 2.3.2. Özəl tikinti-investisiya şirkətinin seçilməsi üçün uyğun meyarların müəyyən edilməsi | Özəl tikinti-investisiya şirkətinin seçilməsi üçün uyğun meyarlar təsdiq edilmişdir. |
| 12 | 2.4.1. İpoteka bazarının inkişafı istiqamətində tədbirlər görülməsi üçün tələb olunan ilkin şərtlərin və qanunvericiliyə ediləcək dəyişikliklərin müəyyənləşdirilməsi, təsdiq üçün təqdim edilməsi və dəyişikliklərin dərc edilməsi | Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 13 iyul 2017-ci il tarixli 1530 nömrəli və “Elektron ipoteka və kredit zəmanət” sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 30 nömrəli fərmanları qəbul olunmuşdur. |
| 13 | 2.4.2. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu ilə Mənzil İnşaatı Dövlət Agentliyi arasında əməkdaşlığın və tərəfdaşlığın yaradılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi | “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2019-cu il tarixli 469 nömrəli Fərmanı qəbul olunmuşdur. |
| 14 | 2.4.3. İpoteka kreditinin verilməsi qaydalarına “MİDA” MMC-nin benefisiarlarının seçilməsi ilə bağlı meyarların daxil edilməsi | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası” təsdiq edilmişdir.<br>“Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2019-cu il tarixli 469 nömrəli Fərmanı qəbul olunmuşdur. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.2.1. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə mənzil tikintisi proqnozunun və dövlət proqramının layihəsinin hazırlanması | Mənzil ehtiyacları, mənzil bazarı ilə bağlı ölkəni əhatə edən kompleks araşdırmanın aparılması məqsədilə tələblər və araşdırma istiqamətləri müəyyənləşdirilmiş, mənzil tikintisi proqnozunun və dövlət proqramının layihəsinin hazırlanması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. |
| 2 | 2.1.3. Əlverişli torpaq sahələrinin istifadəyə cəlb edilməsi üçün təşəbbüslərin həyata keçirilməsi və sağlam mənzil bazarının yaradılması | Uyğun qiymətə mənzil təminatı layihələri üçün torpaq sahələrinin cəlb edilməsi ilə bağlı qanunvricilik layihəsi hazırlanmışdır. |
| 3 | 2.3.3. Yerli investorlarla əlaqənin yaradılması, inkişaf planlarının onlara izah edilməsi və potensial beynəlxalq investorların əməkdaşlığa dəvət edilməsi | Yerli investorlarla əməkdaşlıq əlaqələri qurulmuşdur. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA PEŞƏ TƏHSİLİ VƏ TƏLİMİNİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması | Azərbaycan Respublikası Prezidentinin 4 iyul 2019-cu il tarixli 775 nömrəli Fərmanı ilə əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsini, inkişaf meyillərinin öyrənilməsini və monitorinqləri həyata keçirən, bu sahələrdə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlayan, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu “Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya” yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli Qərarı ilə “Peşə və kvalifikasiya standartının hazırlanması, yenidən hazırlanması, təsdiq edilməsi, qeydiyyatının aparılması və müddətinin uzadılması Qaydaları” təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 iyun tarixli 261 nömrəli Qərarı ilə "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası" təsdiq edilmişdir. |
| 2 | 1.1.2. Peşə təhsili və təlimi müəssisələrinin mövcud vəziyyətinin hərtərəfli araşdırılması və optimallaşdırma ilə bağlı tədbirlər planının hazırlanması | "Peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 noyabr 2018-ci il tarixli 507 nömrəli Qərarı qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 1816 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nda regional peşə təhsili mərkəzləri şəbəkəsinin genişləndirilməsi və idarəetmə sisteminin təkmilləşdirilməsi, ikili peşə təhsili (“dual təhsil”) sisteminin tətbiqi və peşə təhsili ilə bağlı digər mühüm tədbirlər nəzərdə tutulmuşdur. "Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanunu qəbul edilmişdir. |
| 3 | 1.1.3. İri sənaye mərkəzlərində və regionlarda optimallaşdırma prosesinin həyata keçirilməsi | Peşə təhsili müəssisələrinin rasionallaşdırılması və optimallaşdırılması tədbirləri davam etdirilmişdir. 2018-ci ildə regionlarda rasionallaşdırma və optimallaşdırma tədbirlərinin davamı olaraq 20 peşə təhsili müəssisəsinin bazasında 10 ixtisaslaşmış Peşə Təhsil Mərkəzi yaradılmışdır. Ümumilikdə 55 peşə təhsili müəssisəsinin bazasında müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış 24 Peşə Təhsil Mərkəzi yaradılmışdır. |
| 4 | 1.1.4. Pilot peşə təhsili müəssisələrinin qurulması | Seçilmiş pilot peşə təhsili müəssisələrinin qurulması üzrə tədbirlər planı hazırlanmışdır. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi Koreya təhsil standartları əsasında yenidən qurulmuş, 9 istiqamət üzrə texniki peşə, 2 istiqamət üzrə isə yüksək-texniki peşə təhsilinin tədrisi imkanı yaradılmışdır. |
| 5 | 1.1.5. Pilot peşə təhsili müəssisələrində işəgötürənlərlə əməkdaşlıq mexanizminin qurulması və peşə standartlarının və kurikulumların işlənilməsi | Pilot peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında tərəfdaşlıq əlaqələri qurulmuşdur. 2020-ci il ərzində 14 işəgötürən ilə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmış, istehsalat təcrübəsinin təşkilinə ümumilikdə 1189 işəgötürən dəstək göstərmiş və 13269 tələbə cəlb edilmişdir. |
| 6 | 1.1.6. Pilot peşə təhsili müəssisələri haqqında ictimai məlumatlılığın təmin edilməsi və qəbulun aparılması | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı ilə "Peşə təhsili müəssisələrinə qəbul Qaydası" təsdiq edilmişdir. Peşə təhsili müəssisələri ilə işəgötürənlər arasındakı tərəfdaşlıq barədə məlumatlar Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəsmi internet səhifələri, digər sosial media vasitələri, kütləvi informasiya vasitələri, həmçinin “Azərbaycan müəllimi” qəzetində məlumatlar yayımlanmış, Təhsil TV və digər televiziya kanallarında veriliş və süjetlər hazırlanmışdır. Uğurlu dövlət-özəl əməkdaşlığını özündə əks etdirən layihələr haqqında mediada müsahibələr verilmiş və sosial şəbəkələrdə məqalələr dərc edilmişdir. |

| | | |
|---|---|---|
| 7 | 1.2.1. Peşə təhsili müəssisələrinin mövcud müəllim–pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi və onların bilik və bacarıqlarının artırılması | "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası" 3 aprel 2019-cu il tarixdə təsdiq edilmişdir.<br>2018-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılmışdır.<br>2018-ci il ərzində peşə təhsili müəssisələri üzrə mühəndis-pedoqoji heyətin diaqnostik qiymətləndirilməsi başa çatdırılmışdır. |
| 8 | 1.2.2. Yeni müəllim heyətinin peşə təhsili və təlimi prosesinə cəlb edilməsi ilə bağlı tədbirlərin müəyyənləşdirilməsi | İşəgötürənlərin müvafiq işçilərinin müəllim kimi təhsil prosesinə cəlb edilməsi üçün aidiyyəti üzrə müraciət edilmiş və bir sıra mütəxəssislər peşə təhsil müəssisələrində işlə təmin olunmuşdur. |
| 9 | 1.2.3. İstehsalat təcrübəsinə malik yeni pedaqoji kadrların seçilməsi və müvafiq təlimlərin təşkili | Təhsil Nazirliyinin müraciəti əsasında tərəfdaş işəgötürənlərdən dəvət olunan və peşə təhsili müəssisələrində dərs demək istəyi olan mütəxəssislər müəyyənləşdirilmiş, gələcək müəllimlərin pedaqoji proseslə tanışlığını və dərs prosesinə hazırlığını təmin etmək məqsədilə pedaqoji təlimlər keçirilmişdir.<br>Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Müəssisəsinin bazasında yaradılan təhsil müəssisəsinin yeni fəaliyyətə başlamış mühəndis-pedaqoji heyəti üçün 2019-cu il ərzində pedaqogika və didaktika üzrə ixtisasartırma təlimləri keçirilmişdir. |
| 10 | 1.2.4. Yeni pedaqoji heyətin fəaliyyətinin monitorinqinin aparılması | Yeni pedaqoji heyətin fəaliyyətinin qiymətləndirilməsi üzrə müvafiq meyarlar və qiymətləndirmə metodologiyası hazırlanmış, müvafiq dövrlərdə monitorinqinin aparılması üzrə aidiyyəti tədbirlər görülmüşdür. |
| 11 | 2.1.2. Peşə təhsili müəssisələrində istehsalı nəzərdə tutulan məhsulların və xidmət sahələrinin, həmin məhsul və xidmətlər üzrə minimum standartların müəyyən edilməsi | Peşə təhsili müəssisələri tərəfindən müvafiq məhsulların (şərab, maska və s.) təşkil edilmiş, həmin məhsullar üzrə minimum standartların müəyyən edilməsi üzrə müvafiq işlər görülmüşdür. |
| 12 | 2.1.4. Peşə təhsili müəssisələrində istehsal edilən məhsul və xidmətlərin satışının təşkili | İsmayıllı Peşə Tədris Mərkəzi və "İsmayıllı Şərab 2" ASC-nin birgə əməkdaşlığı çərçivəsində şərab istehsalı üçün "PeŞərab" brendinin yaradılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Hazırda, 5400 ədəd qırmızı və ağ şərabın istehsal olunduğu təşəbbüs çərçivəsində İsmayıllı Peşə Tədris Mərkəzinin xüsusi əmtəə nişanı altında hazır məhsulun satışa çıxarılacağı nəzərdə tutulur.<br>Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi "SAVE Tekstil" MMC ilə birgə tibbi maska istehsalına başlamışdır.<br>İsmayıllı Peşə Tədris Mərkəzinin "Xalçaçı" ixtisası üzrə təhsil alan tələbələrin əl işləri "Abad" vasitəsi ilə satışa çıxarılmışdır, satılmış xalçalardan əldə olunan gəlir əsasında yeni xammal alınmışdır. |
| 13 | 3.1.3 Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili mexanizminin hazırlanması | Peşə Təhsili üzrə Dövlət Agentliyinin tabeliyində olan təhsil müəssisələrində 2020-ci il üzrə 17 ixtisas üzrə 200-dən çox şəxs qısamüddətli peşə hazırlığı kurslarına cəlb olunmuşdur. |
| 14 | 4.1.2. Peşə təhsili sistemində sahibkar düşüncə tərzinin təşviqi | "Azərbaycanda Peşə Təhsili və Təliminin (PTT) inkişafına Avropa İttifaqının dəstəyi" layihəsi çərçivəsində hazırlanmış "Sahibkarlıq" modulunun təqdim olunması məqsədilə 25 sentyabr 2018-ci il tarixində Bakı şəhərində təlim keçirilmişdir. Təlimdə "Sahibkarlıq" modulunu tədris edən 48 nəfər müəllim iştirak etmişdir.<br>Həmçinin, layihə çərçivəsində "Səriştə əsaslı, nəticəyönümlü kurikulumların tətbiqi"nə dair Bakı şəhərində təlimlər keçirilmişdir. Təlimlərdə pilot məktəblərdə "Sahibkarlıq" modulu üzrə təhsil verəcək müəllimlər də iştirak etmişlər.<br>Azərbaycan Gənclərinin Nailiyyəti İB-in icra etdiyi layihələr çərçivəsində "Sahibkarlığın əsasları" təlimi təşkil edilmişdir. |
| 15 | 4.2.1. Sektorlar üzrə ümumi tələblərin qarşılanmasına dəstək verilməsi | Sektorlar üzrə ümumi tələblərin qarşılanmasına dəstək verilməsi məqsədilə, müvafiq sektorların tələblərinə uyğun, ölkədə və dünyada mövcud inkişaf meyilləri nəzərə alınmaqla, yeni tələb olunan ixtisaslar üzrə peşə standartları yeni tədris proqramları (kurikulumlar) hazırlanmışdır. |

| | | |
|---|---|---|
| 16 | 4.2.2. Sektorlar üzrə spesifik tələblərin qarşılanmasına dəstək verilməsi | "Aqrar sahə üzrə müvafiq ixtisasların tədris olunduğu peşə təhsili müəssisələrinin potensialının artırılması üçün Yol Xəritəsi" təsdiq edilmişdir.<br>"Azərbaycanda regional turizmin təhlili" hesabatı hazırlanaraq təlim ehtiyacları müəyyən edilmiş, turizm sektoru üzrə spesifik tələblərə dair tədbirlər planı hazırlanmışdır. |
| 17 | 5.1.1. İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizminin müəyyənləşdirilməsi | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı ilə "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası" təsdiq edilmişdir. |
| 18 | 5.2.2. Məlumat bazasının yaradılması | Peşə təhsili üzrə məlumat bazası yaradılmışdır. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.1.7. Tərəfdaşlıq proqramları üzrə monitorinq və nəzarətin təşkili | İşəgötürənlərlə rərəfdaşlıq proqramları üzrə monitorinq və nəzarət mexanizmi müəyyən edilmişdir. |
| 2 | 2.1.1. Peşə təhsili müəssisələrində istehsal olunan məhsul və xidmətlərin satışı ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi və seçilmiş pilot peşə təhsili müəssisələrinin istehsal imkanları üzrə qiymətləndirmənin həyata keçirilməsi | Seçilmiş pilot peşə təhsili müəssisələrində maliyyə vəziyyəti və büdcədənkənar gəlirlərin artırılması imkanları təhlil edilmişdir. |
| 3 | 2.1.3. Büdcədənkənar vəsaitlərin idarə olunması və monitorinqi sisteminin hazırlanması | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 avqust tarixli 299 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondu yaradılmışdır. Fond peşə təhsili sahəsində gəlir və xərclərin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını və Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələri arasında ədalətli bölgüsünü təmin edən, peşə təhsili sahəsinin inkişafına dəstək göstərən publik hüquqi şəxsdir. |
| 4 | 2.1.5. Peşə təhsili müəssisələrində satış məqsədli istehsal fəaliyyətinin qiymətləndirilməsi | Bir sıra pilot peşə təhsili müəssisələrində məhsul və xidmətlərin istehsalı və satışı üzrə fəaliyyət qiymətləndirilmişdir. |
| 5 | 2.1.6. Alternativ maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi | Peşə təhsili müəssisələrinin idarəetmə və müəllim-pedaqoji heyəti üçün təlimlərin təşkili və təhsil proqramlarının (kurikulumların) hazırlanması kimi sahələrin maliyyələşdirilməsinə beynəlxalq təşkilatlar cəlb edilmişdir. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla birgə layihələr çərçivəsində kurikulum və modul dərslik vəsaitləri hazırlanmış, təlimlər təşkil edilmişdir. |
| 6 | 2.2.1. Peşə təhsili müəssisələri üzrə əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi | Peşə təhsili müəssisələrinin ixtisaslaşma sahələrini nəzərə almaqla, müvafiq əsas fəaliyyət göstəriciləri müəyyən edilmişdir. |
| 7 | 2.2.2. Nəticələrə əsaslanan maliyyələşmə sisteminin yaradılması | Peşə təhsili müəssisələrində nəticələrə əsaslanan maliyyələşmə sistemi üzrə qabaqcıl beynəlxalq təcrübə öyrənilmişdir. |
| 8 | 3.1.1. Peşə təhsili müəssisələrində yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı müvafiq qanunvericilik bazasının yaradılması | Peşə təhsili müəssisələrində yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı qanunvericilik layihəsi hazırlanmışdır. |
| 9 | 3.1.2 Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı aidiyyəti tərəflərlə  müzakirələr aparılması | Yaşlıların təhsili və ixtisasartırma kursları üçün təhsil proqramları (kurikulumlar) tərtib edilmiş, müəllim-pedaqoji heyət seçilmişdir. |
| 10 | 5.1.2. İşə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsinin hüquqi bazasının formalaşdırılması | İşə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsinin hüquqi bazasının formalaşdırılması ilə bağlı təkliflər hazırlanmışdır. |
| 11 | 5.2.1. Mövcud məlumat infrastrukturunun təhlili | Peşə təhsili müəssisələrində mövcud məlumat infrastrukturu təhlil edilmişdir. |
| 12 | 5.2.3. Peşə təhsili sistemi üzrə məlumatları əks etdirən internet səhifəsinin yaradılması | Peşə təhsili müəssisələrinin təqdim etdiyi məlumatların dəqiqliyini təmin etmək üçün audit və yoxlama mexanizmləri müəyyən olunmuşdur. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARININ İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.2.1. Xarici investorların cəlb edilməsi və NRYTN-nin tabeliyində olan telekommunikasiya qurumlarının özəlləşdirilməsinin nəzərdən keçirilməsi | NRYTN-nin tabeliyində olan telekommunikasiya müəssisələrinin, habelə nazirliyin digər müəssisələrdəki dövlətə məxsus paylarının özəl investisiyalar cəlb edilməklə özəlləşdirilməsi imkanları təhlil edilmişdir. |
| 2 | 1.2.2. Genişzolaqlı infrastrukturun əhatə dairəsinin artırılması üzrə yanaşmanın seçilməsi | “Respublikada fiber-optik şəbəkənin 2018-2020-ci illərdə genişləndirilməsi üzrə İnkişaf Planı” hazırlanaraq həyata keçirilmiş və inkişaf planının monitorinqi aparılmışdır. |
| 3 | 1.2.5. Tranzit trafik xəttinin yaradılması | TASİM layihəsi üzrə fiberoptik internet xəttinin Xəzər dənizinə düşən hissəsinin çəkilməsi istiqamətində texniki-iqtisadi əsaslandırma işlənib hazırlanmış, texniki-iqtisadi əsaslandırmanın tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülmüşdür. |
| 4 | 1.2.6. Sabit şəbəkədə istismardan çıxarılmış mis xammaldan istifadə edilməsi | Rekonstruksiya nəticəsində istismardan çıxarılmış kabellərdə olan mis xammalın realizasiyası üsulları təhlil edilmişdir. Çıxarılmış mis məftillərin satışından daxil olmuş maliyyə vəsaiti kabellərin və müxtəlif avadanlıqların alınması və quraşdırılmasına yönəldilmişdir. |
| 5 | 1.3.1. LTE bölgüsünün effektiv həyata keçirilməsi üçün müvafiq qaydaların hazırlanması və prosedurların müəyyən edilməsi | LTE bölgüsünün effektiv həyata keçirilməsi üçün müvafiq qayda və prosedurlarla bağlı hazırlanmış fəaliyyət planı tətbiq edilmişdir. |
| 6 | 2.1.1. Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə işçi qrupun yaradılması | Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə işçi qrup yaradılmış, ölkədə rəqəmsal ödənişlərin inkişafına mane olan amillər araşdırılmışdır. |
| 7 | 2.1.2. İşçi qrup tərəfindən təkliflərin verilməsi | Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2018-ci il tarixli 508 nömrəli Sərəncamı ilə “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. |
| 8 | 2.1.3. Rəqəmsal ödənişlərin daha geniş tətbiqi üçün maarifləndirmə, təbliğat və təşviqat işinin aparılması | Maliyyə savadlılığının yüksəldilməsi və rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür. Maliyyə Savadlılığı Portalı (https://bizimpullar.az/) vasitəsilə rəqəmsal ödənişlərə dair materiallar hazırlanaraq təqdim olunmuşdur. |
| 9 | 2.2.1. Biznes fəaliyyətində texnologiyanın daha geniş tətbiqi imkanlarını araşdırmaq məqsədilə işçi qrupun yaradılması | Biznes fəaliyyətində texnologiyanın daha geniş tətbiqi imkanlarını araşdırmaq məqsədilə müvafiq işçi qrupu yaradılmışdır.<br>Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2019-cu il tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na əsasən “Bulud” xidmətlərindən sahibkarlıq subyektlərinin geniş istifadəsi onların biznes əməliyyatlarında səmərəliliyin və məhsuldarlığın artırılmasına zəmin yaradan əsas amillərdən biri olacaq, həmçinin kiçik və orta biznes (KOB) subyektlərinin rəqəmsal texnologiyalardan istifadə səviyyəsini yüksəltməklə, onların rəqabət qabiliyyətinin artmasına xidmət edəcəkdir. |
| 10 | 2.2.2. Biznes subyektlərinin rəqəmsal mühitə keçidinin stimullaşdırılması | Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanununa əsasən mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs (və ya fərdi sahibkar) kimi fəaliyyət göstərən startaplara münasibətdə müvafiq vergi azadolmaları Vergi Məcəlləsinə əlavə edilmiş, bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarı ilə “Startapın müəyyən olunması meyarları”nın təsdiq edilmişdir.<br>“2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”na uyğun olaraq rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi və digər istiqamətlərdə müvafiq tədbirlərin icrası həyata keçirilmişdir. |
| 11 | 2.2.3. Yerli infrastrukturun inkişafının dəstəklənməsi | Yerli infrastrukturun inkişafının dəstəklənməsi ilə bağlı müvafiq tədbirlər görülmüşdür. |
| 12 | 2.3.1. "Texnoloji Təhsil Qrupu"nun yaradılması | Texnoloji Təhsil Qrupu yaradılmış, funksiyaları müəyyən edilmiş, fəaliyyət planı hazırlanaraq təsdiq edilmişdir. |

| | | |
|---|---|---|
| 21 | 2.5.1. Daha yüksək İKT bilik və bacarıqlarının təmin edilməsi üçün rəqəmsal təhsilin inkişafı üzrə islahatların aparılması | "Rəqəmsal bacarıqlar" layihəsinin əhatə dairəsi genişləndirilmiş, STEAM layihəsinin tətbiqinə başlanmış, ölkə üzrə dörd minə yaxın təhsil müəssisəsinin təhsil sisteminin korporativ İntranet və İnternet şəbəkələrinə çıxışı təmin edilmiş, kadr potensialının gücləndirilməsi və elektron tədris resurslarının zənginləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmiş, təhsil müəssisələri kompüter, robot texnologiyaları, proyektor və e-lövhələrlə təmin olunmuşdur. Bundan əlavə, ölkədə "COVİD-19" pandemiyası ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejimində təhsilin davam etdirilməsi məqsədi ilə 2020-ci ilin aprel ayından etibarən Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsinə start verilmişdir. |
| 22 | 2.5.2. "Elektron məktəb" sisteminin tətbiqi və inkişaf etdirilməsi | Təhsil informasiya sistemi çərçivəsində bütün məktəblərdə "Elektron məktəb" sisteminin tətbiqi məqsədilə fəaliyyət planı hazırlanmış və icrası istiqamətində müvafiq tədbirlər görülmüşdür.<br>Elektron məktəb sistemi üzrə fəaliyyətin vahid mərkəzdən əlaqələndirilməsi və vahid məlumat bazasının yaradılması imkanlarının təhlili aparılmışdır. Ümumi təhsil müəssisələrinin informasiya sistemi (ÜTİS) yaradılmış, ümumtəhsil məktəbləri haqqında bütün məlumatlar (hər bir müəssisənin infrastrukturu, şagirdləri, pedaqoji və inzibati-köməkçi heyəti barədə) bazaya daxil edilmişdir. ÜTİS sistemi vasitəsilə statistik hesabatların alınması imkanı yaradılmışdır. |
| 23 | 2.5.3. Təkmilləşdirmə kurslarının təşkil edilməsi | Təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə heyəti üçün İKT savadlılığının artırılması istiqamətində tədbirlər davam etdirilmiş, 2020-ci ildə peşə təhsili sahəsində fəaliyyət göstərən təhsilverənlər üçün tədrisdə İKT və müasir texnologiyalar üzrə 600 nəfərə təlim təşkil olunmuşdur.<br>Bununla yanaşı, ümumtəhsil, peşə, ali təhsil müəssisələrinin pedaqoji, inzibati idarəetmə və köməkçi heyətini, həmçinin təhsil idarələrinin işçilərini əhatə edən təhsildə İKT-nin tətbiqi üzrə ixtisasartırma və stajkeçmə təlimləri keçirilmişdir. "Microsoft Teams", "STEM", "Python" proqramlaşdırma dili, "PolyUp" platforması, müxtəlif elektron resurslar və interaktiv həllərin tədrisdə tətbiqini əhatə edən bu təlimlərdə ümumilikdə 25 min nəfər iştirak etmişdir. |
| 24 | 3.1.2. NRYTN və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən elektron xidmətlərlə bağlı zəruri standartların işlənib hazırlanması. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 25 yanvar 2019-cu il tarixli Qərarı ilə "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələblər"in, "Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən göstərilən elektron xidmətlərin qeydiyyatı qaydaları"nın və "Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən elektron xidmətlərin təşkili və göstərilməsi üzrə tələblər" təsdiq edilmişdir. |
| 25 | 3.2.1. Elektron səhiyyə proqramının yaradılmasının nəzərdən keçirilməsi | Elektron səhiyyə proqramının yaradılması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. |
| 26 | 3.2.2. Mərkəzi elektron tibbi uçot sisteminin yaradılması və mövcud olan müxtəlifplatformalı tibbi informasiya sistemlərinin milli səhiyyə şəbəkəsinə inteqrasiya olunması | Ölkə üzrə tibb müəssisələrində Xəstəxana İdarəetmə Sistemi (XİS) üzrə proqram təminatı qurulmuş, təlimlər keçirilmişdir. |
| 27 | 3.2.3. Ümumi standartlaşdırma sisteminin yaradılması | Aidiyyəti qurum tərəfindən bir sıra standartlar və təsnifatlar dərc edilmişdir. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.1.1. Telekommunikasiya sahəsində aparılacaq islahatlar çərçivəsində görüləcək tədbirlərin müəyyən edilməsi üçün işçi qrupun yaradılması | Azərbaycanda telekommunikasiya sektorunun inkişafı ilə bağlı çərçivə planı və tənzimləyici qurumun yaradılması ilə bağlı üçillik keçid planı hazırlanmışdır. |

| | | |
|---|---|---|
| 2 | 1.1.3. Tənzimləyici qurumun yaradılması və fəaliyyəti | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təqdim edilən elektron xidmətlər üzrə Nazirliyin internet səhifəsində “E-Xidmətlər” bölməsi, həmin bölmədə “İnteraktiv” və “İnformativ” alt bölmələri yaradılmış, təqdim olunan e-xidmətlər barədə ətraflı məlumat, o cümlədən prosedur qaydaları barədə məlumat, ərizə formaları, tariflər, ödənilməli bank hesabı və s. məlumatlar yerləşdirilmiş və qeyd olunan məlumatlar mütəmadi olaraq yenilənmişdir. Bununla yanaşı, Nazirliyin saytında e-müraciət imkanları yaradılmışdır. |
| 3 | 1.2.4. Genişzolaqlı şəbəkənin tətbiqinin artırılması üçün digər üsulların nəzərdən keçirilməsi | Simsiz mobil şəbəkə şirkətləri ilə tərəfdaşlıq əlaqələri qurulmuş, nəticədə 4G mobil şəbəkənin ərazi və əhali üzrə əhatə göstəriciləri yüksəldilmişdir. |
| 4 | 1.3.2. LTE-nin tətbiqi üçün mülki tezlik spektrinin mobil operatorlar arasında şəffaf və səmərəli bölgüsünün təmin edilməsi | Tezliklərin bölgüsü üzrə hərrac keçirilməsi ilə bağlı qanunvericilik layihəsi hazırlanmışdır. |
| 5 | 2.3.3. İKT sektorunun rəqabətədavamlılığını təmin edən məhsulların istehsalı və xidmətlərin göstərilməsi üzrə kadr hazırlığının gücləndirilməsi | “Seçilmiş təhsil müəssisələrində texnologiya biliklərinə malik olan peşəkar təlimçilərin iştirakı ilə pilot proqramların həyata keçirilməsi” ilə əlaqədar 2018-2020-ci illər üzrə Tədbirlər Planı hazırlanmışdır. |
| 6 | 2.4.6. Elektron imzanın, o cümlədən “Asan imza”nın beynəlxalq səviyyədə qarşılıqlı tanınmasının təmin olunması | Elektron imzanın və “Asan imza”nın beynəlxalq səviyyədə qarşılıqlı tanınmasının təmin olunması məqsədilə bir sıra tədbirlər görülmüşdür. |
| 7 | 2.5.4. Bilik və bacarıqların qiymətləndirilməsi | Tələbələrin İKT bacarıqlarının qiymətləndirilməsi sahəsində mövcud vəziyyət araşdırılmışdır. |
| 8 | 3.1.1. Dövlət İT sistemlərinin modernləşdirilməsi | Dövlət müəssisələrində kompüter avadanlığı və proqram təminatından istifadə səviyyəsi, o cümlədən onlar arasında infrastrukturun inteqrasiyası imkanları təhlil edilmiş, dövlət orqanları üçün mərkəzləşdirilmiş infrastrukturun yaradılması imkanları araşdırılmışdır. Mövcud “Data mərkəz”in texniki imkanlarından istifadə nəzərə alınmaqla, mərkəzləşdirilmiş infrastrukturun yaradılması ilə bağlı tədbirlər görülmüşdür. |
| 9 | 3.2.4. Rəqəmsal reseptin verilməsi | "Səhiyyə informasiyası - Rəqəmsal reseptlərə dair tələblər" Dövlət Standartı təsdiq edilmişdir. |

| | | |
|---|---|---|
| 13 | 2.3.2. Texnologiyaların tədrisində çatışmazlıqların araşdırılması və müvafiq təkliflərin irəli sürülməsi | Texnoloji Təhsil Qrupu tərəfindən informasiya və kommunikasiya texnologiyaları sahəsində kadr hazırlığını aparan 4 ali təhsil müəssisəsində (Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) araşdırmalar aparılmış, tədrisin infrastrukturu dəyərləndirilmişdir. |
| 14 | 2.3.4. Biznes subyektlərinin texnologiya savadlılığının artırılması | KOB inkişaf mərkəzləri tərəfindən KOB subyektləri üçün müxtəlif mövzularda, o cümlədən biznesdə innovasiya menecmenti, KOB-lar üçün rəqəmsal marketinq və s. təlim və seminarlar keçirilmiş, bu sahədə məlumatlandırma və maarifləndirmə tədbirlər görülmüşdür. |
| 15 | 2.4.1. Dövlət sektoru daxilində yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması | “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanı qəbul edilmişdir. Həmin Fərmanın 5.1-ci bəndinə əsasən dövlət-özəl tərəfdaşlığı çərçivəsində dövlət sektoru daxilində yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması ilə bağlı Elektron sənəd dövriyyəsi sitemi yaradılmışdır. |
| 16 | 2.4.1-1. Dövlət sektoru ilə əlaqələr zamanı yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması | Dövlət sektoru ilə əlaqələr zamanı yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması istiqamətində proseslərin elektronlaşması və inteqrasiyaların təmin edilməsi üçün tədbirlər həyata keçirilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2019-cu il tarixli 647 nömrəli Fərmanı ilə “Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə” təsdiq edilmişdir.<br>Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilmişdir.<br>“Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanına əsasən ölkə üzrə ekspertizasının keçirilməsi tələb olunan və olunmayan tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsi üzrə “Tikintiyə icazələrin verilməsi” informasiya sistemi yaradılmışdır. |
| 17 | 2.4.2. Dövlət orqanlarının informasiya sistemlərinin yaradılması üçün vahid prinsiplərin və standartların işlənib hazırlanması | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları” təsdiq edilmişdir. |
| 18 | 2.4.3. Dövlət xidmətlərinin həyata keçirilməsinin keyfiyyət standartlarının hazırlanması | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 19 oktyabr 2020-ci il tarixli Qərarı ilə “Dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 2016-cı il 17 oktyabr tarixli 1/1-06 nömrəli Qərarında dəyişikliklər edilmişdir. |
| 19 | 2.4.4. eGov 2.0 versiyasında mobil hökumət (mGov) konsepsiyasının hazırlanması | eGov 2.0 versiyasında mobil hökumət (mGov) konsepsiyasının layihəsi hazırlanmışdır. |
| 20 | 2.4.5. “Hökumət bulud”un (G-cloud) yaradılması | Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2019-cu il tarixli 718 nömrəli Fərmanı ilə "“Hökumət buludu” (G-cloud) Konsepsiyası" təsdiq edilmişdir. “Hökumət buludu” (G-cloud) dövlət orqanlarının malik olduğu informasiya sistemlərinin beynəlxalq standartlara cavab verən vahid data mərkəzi infrastrukturunda dayanıqlı, çevik, təhlükəsiz və optimallaşdırılmış xərclərlə fəaliyyətinə zəmin yaradan, “bulud” xidmətlərindən istifadəni təmin edən və istənilən məkandan məlumatın əldə edilməsinə imkan verən “bulud hesablama” texnologiyasıdır. |

# AZƏRBAYCAN RESPUBLİKASINDA İXTİSASLAŞMIŞ TURİZM SƏNAYESİNİN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ

| S/s | Tam icra edilmiş tədbirlərin adı | Qeyd |
|---|---|---|
| 1 | 1.1.1. Azərbaycan Turizm Bürosunun yaradılması | "Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2016-cı il tarixli 1179 nömrəli Fərmanı ilə Azərbaycan Turizm Bürosu yaradılmışdır. |
| 2 | 1.1.2. Büronun fəaliyyətinin təmin edilməsi istiqamətində zəruri təşkilati işlərin yerinə yetirilməsi | Azərbaycan Turizm Bürosu bütün lazımi infrastrukturla təmin edilmiş, Büro tərəfindən onlayn kommunikasiya platformaları yaradılmışdır. |
| 3 | 1.1.3. Büro tərəfindən müxtəlif yönümlü tədbirlərin keçirilməsi | Azərbaycanın Turizm Bürosu tərəfindən ölkənin yeni turizm brendi “Take another look” yaradılmış, marketinq tədbirləri keçirilmişdir. Eyni zamanda, “WhereisKarabakh.com” (“Qarabağ harada yerləşir?”) veb-saytı istifadəyə verilmişdir.<br>Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 23 yanvar 2020-ci il tarixli 16 nömrəli Qərarı ilə "Turizm Reyestrinin aparılma Qaydası” təsdiq edilmişdir. |
| 4 | 1.1.4. Bakı şəhəri üçün 2017–2020-ci illər üzrə marketinq və kommunikasiya planının hazırlanması | Müvafiq illər üzrə marketinq və kommunikasiya planları hazırlanaraq icrası təmin edilmişdir. |
| 5 | 1.1.5. Bütün əsas tədbirləri əlaqələndirmək üçün Bakı şəhəri üzrə turizm təqviminin yaradılması | Ölkənin turizm potensialını təbliğ edən “www.azerbaijan.travel” və “www.salambaku.travel” internet səhifələrində ölkənin və Bakı şəhərinin turizm təqvimi yaradılmışdır. |
| 6 | 1.2.1. Bakı şəhəri ilə bağlı məlumatlılığın qənaətbəxş səviyyəyə çatdırılması məqsədilə onlayn məlumatların təmin edilməsi və turistlərin təkrar rastlaşdığı çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi | Bakı şəhəri ilə bağlı məlumatlılığın qənaətbəxş səviyyəyə çatdırılması məqsədilə kompleks məlumatlandırma tədbirləri keçirilmiş, habelə müvafiq onlayn məlumat platformaları hazırlanaraq istifadəyə verilmişdir. |
| 7 | 1.2.2. Bakı şəhərinə gələn və oradan regionlara səfər edən turistlərin məlumatlılığının artırılması üçün bir sıra tədbirlərin görülməsi | Turistlərin istiqamətləndirilməsi və regionlara səfərlərinin təşkili istiqamətində Turizm İnformasiya Mərkəzləri və turist məlumat ofisləri yaradılmış, müvafiq yerlərdə məlumamatlandırıcı nəşrlərin yerləşdirilməsi və paylanması təmin edilmişdir. |
| 8 | 1.2.4. Büro tərəfindən müxtəlif dəstəkverici mexanizmlərin həyata keçirilməsi | Turizm sahəsində çalışan mütəxəssislərin peşəkarlığını və əmək bazarında rəqabətqabiliyyətliliyini artırmaq üçün 2020-ci ildə Turizm Təlim və Sertifikasiya Mərkəzi yaradılmışdır. Mərkəz tərəfindən müxtəlif mözularda təlim və seminarlar keçirilmişdir. Eyni zamanda, ölkənin turizm potensialının təbliği məqsədilə bir sıra xarici ölkələrdə keçiriləcək turizm sərgilərində turoperatorların iştirakı təmin edilmişdir. |
| 9 | 1.2.5. Şəhər turu nəqliyyat vasitələrinin təklif etdiyi xidmətlərin təkmilləşdirilməsi | Bakı şəhərində şəhər gəzintisi təşkil edən şəhər turu nəqliyyat xidmətləri vaxt, səmərəlilik və əhatə dairəsi baxımından təkmilləşdirilmiş, bu xidmətlərə təcrübəli tur bələdçiləri, eləcə də rus və ingilis dillərində səsləndirilən audioyazılar əlavə edilmiş, turizm mərkəzləri barədə turistlərin məlumatlılığının artırılması məqsədilə hava limanında, mehmanxana və digər yerləşdirmə vasitələrində müvafiq məlumatlar yerləşdirilmişdir. |
| 10 | 1.2.7. Novruz bayramı paketlərinin hazırlanması və təbliği | “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi 21-22 mart tarixlərində “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda “İçərişəhər” Muzey Mərkəzinin təşkilatçılığı ilə “Sənətkarlıq məhəlləsi - 2019” adlı festival keçirmişdir. Festival münasibətilə qonaqlara xüsusi endirimli Novruz bayramı biletləri təklif edilmiş, həmçinin əhalinin Qala Qoruğuna rahat gediş-gəlişini təmin etmək məqsədilə ödənişsiz nəqliyyat xidməti təmin edilmişdir. Bunlarla yanaşı, özəl sektor tərəfindən Novruz bayramı ərəfəsində müxtəlif bayram paketlərinin (ölkədaxili və xarici turlar üzrə) hazırlanması və təbliği təşviq olunmuşur. |
| 11 | 1.2.8. F1 yarışları zamanı müxtəlif tədbirlərin keçirilməsi | F1 yarışları zamanı müxtəlif tədbirlərin, o cümlədən müsabiqələrin, əyləncəli yarışların, konsertlərin və s. keçirilməsi təmin edilmişdir. Eyni zamanda, Bakı Şəhər Halqası (BŞH) Akademiyası tərəfindən karyera yarmarkaları, konüllülər üçün müxtəlif kurslar və digər tədbirlər təşkil edilmişdir. |

| | | |
|---|---|---|
| 12 | 1.2.9. Büro tərəfindən hazırlanacaq turist xidmət paketlərinin təşviqi | Turist avtobuslarından və bütün turizm məkanlarından istifadə üçün turist kartları hazırlanmış və istifadəyə verilmişdir. Eyni zamanda, turist xidmət paketlərinin təşviqi istiamətində zəruri işlər görülmüşdür. |
| 13 | 1.2.10. Ticarət festivallarının keçirilməsi | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli 1252 nömrəli Fərmanı ilə "Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" təsdiq edilmişdir. Eyni zamanda, 2017-ci il 3 mart tarixində “Ticarət festivallarının təşkili Qaydası” təsdiq edilmişdir.<br>2017-ci il 10 aprel – 10 may və 15 oktyabr – 15 noyabr tarixlərində Bakı ticarət festivalları keçirilmişdir. |
| 14 | 1.3.1. Əsas hədəf bazarların seçilməsi | Hədəf bazarlar üzrə araşdırma aparılaraq, prioritet ölkələrin siyahısı müəyyən edilmişdir. |
| 15 | 1.3.2. Hədəf ölkə və şəhərlərin seçilməsi | Azərbaycanı turizm istiqaməti kimi təbliğ etmək və ölkəyə daha çox turist cəlb etmək üçün Azərbaycan Turizm Bürosunun 6 nümayəndəlik ofisi fəaliyyət göstərir. Bu ofislər Turizm Bürosuna hədəf ölkələrində B2B marketinq fəaliyyətlərini həyata keçirməyə kömək edir. Rusiya Federasiyası, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Çin, Hindistan, Almaniyada nümayəndəlik ofisləri fəaliyyətə başlamışdır. |
| 16 | 1.3.3. Təbliğat-təşviqat tədbirlərinin keçirilməsi üçün bazar araşdırmalarının aparılması | Azərbaycanın Turizm Bürosu tərəfindən ölkənin yeni turizm brendi “Take another look” yaradılmış, marketinq tədbirləri keçirilmişdir. |
| 17 | 1.3.4. Marketinq və media şirkətlərini cəlb etməklə hədəf şəhərlərdə Bakı şəhərinin təbliğat-təşviqat tədbirlərinin keçirilməsi | Turizm və səyahət platformaları, televiziya kanalları, beynəlxalq sərgi və turizm tədbirləri, tanışlıq səfərləri, çap materialların nəşri, sosial media təbliğatı, jurnallarda məqalələrin yerləşdirilməsi, müxtəlif veb-saytlarda rəqəmsal kampaniyalar, xarici media nümayəndələri üçün təşkil olunan tədbirlər şəklində təbliğat-təşviqat tədbirləri keçirilmişdir. |
| 18 | 1.3.5. Bazar kanallarının müəyyən edilməsi | Turizm və səyahət platformaları, televiziya kanalları, beynəlxalq sərgi və turizm tədbirləri, tanışlıq səfərləri, çap materialların nəşri, sosial media təbliğatı, jurnallarda məqalələrin yerləşdirilməsi, müxtəlif veb-saytlarda rəqəmsal kampaniyalar, xarici media nümayəndələri üçün təşkil olunan tədbirlər şəklində təbliğat-təşviqat tədbirləri keçirilmişdir. |
| 19 | 1.3.6. Xarici prioritet bazarlarda nümayəndəlik ofislərinin yaradılması | Rusiya Federasiyası, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Çin, Hindistan, Almaniyada nümayəndəlik ofisləri fəaliyyətə başlamışdır. |
| 20 | 1.4.1. Sahibkarlığa Kömək Milli Fondunun turizm sektoruna ayıracağı maliyyə vəsaitinin miqdarının müəyyən olunması | "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli 24 nömrəli Fərmanına əsasən, Fondun Müşahidə Şurasında Dövlət Turizm Agentliyinin məsul nümayəndəsi üzvü kimi təmsil olunur. Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının müvafiq qərarları ilə turizm sektoruna maliyyə vəsaiti ayrılmışdır. |
| 21 | 1.4.2. 2017–2020-ci illərdə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitindən istifadə üzrə təşviqat planının hazırlanması | Turizmin inkişafı üzrə layihələrin dəstəklənməsi "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadiyyatın sahələri üzrə prioritet istiqamətlər"ə daxil edilmişdir. Eyni zamanda, müvafiq təşviqat tədbirlərinin icrası təmin olunmuşdur. |
| 22 | 1.4.3. Azərbaycanın özünəməxsus dəyərlərinin və məhsullarının, o cümlədən sənətkarlıq nümunələrinin təşviqi üçün Bakı şəhərində müxtəlif tədbirlərin keçirilməsi | “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi 21-22 mart tarixlərində “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda “İçərişəhər” Muzey Mərkəzinin təşkilatçılığı ilə “Sənətkarlıq məhəlləsi - 2019” adlı festival keçirmişdir. Festival münasibətilə qonaqlara xüsusi endirimli Novruz bayramı biletləri təklif edilmiş, həmçinin əhalinin Qala Qoruğuna rahat gediş-gəlişini təmin etmək məqsədilə ödənişsiz nəqliyyat xidməti təmin edilmişdir.<br>“El sənəti” I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı keçirilmişdir. |
| 23 | 1.4.4. 2020-ci ildən sonra çimərlik turizminin təşviqi üzrə fəaliyyət planının hazırlanması | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 mart tarixli 2784 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı”nın icrası nəticələri təhlil edilmiş, növbəti dövr üzrə çimərlik turizminin təşviqi üzrə təkliflərin hazırlanması istiqamətində müvafiq tədbirlər icra olunmuşdur. |

| | | |
|---|---|---|
| 24 | 1.4.5. Bakı üçün iri flaqman layihələrin dəyərləndirilməsi | Bakı şəhərinin imicini formalaşdıran, onun turizm potensialını aşkarlayan, turist axınını artıra bilən bir sıra iri layihələr dəyərləndirilmişdir. |
| 25 | 1.4.6. "Duty free" dükanları da daxil olmaqla məqsədli infrastrukturun formalaşdırılması | Dövlət Gömrük Komitənin bir sıra gömrük postlarında "duty free" dükanlarının fəaliyyəti təmin olunmuşdur. |
| 26 | 1.4.7. Məşhur brend mehmanxanaların Bakı şəhərində tikilməsinə şərait yaradılması | Hazırda ölkədə bir çox beynəlxalq mehmanxana brendləri (Hilton, Marriott, Sheraton, Four Season, Firmont, Accor, Holiday İnn, Radisson) franşize və menecment kontraktları əsasında fəaliyyət göstərir. |
| 27 | 2.1.1. Turizm Şurasının fəaliyyətinin təmin edilməsi | Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2018-ci il tarixli 441 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1179 nömrəli Fərmanında dəyişiklik edilmişdir. |
| 28 | 2.1.2. Turizm sektorunun inkişafı istiqamətində düzgün koordinasiyanın qurulması məqsədilə işçi qrupların yaradılması | Turizm sənayesində özəl investisiyanın təşviqi üzrə işçi qrup yaradılmış və onun nəzdində maliyyə dəstəyi, vergi güzəştləri, gömrük güzəştləri, kommunal güzəştlər, marketinq dəstəyi, əmlak və torpaq güzəştləri üzrə alt qruplar formalaşmışdır. |
| 29 | 2.1.3. Strateji Yol Xəritəsinin prioritetlərinin nəzərdən keçirilməsi və icrasına başlanılması üçün mövcud proqramlara zəruri dəyişikliklərin edilməsi məqsədilə təkliflərin verilməsi | Mövcud proqramlara zəruri dəyişikliklərin edilməsi məqsədilə təkliflər verilmişdir. |
| 30 | 2.2.1. TRZ-lərin idarəetmə strukturunun yaradılması | Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının (TRZ) idarə edilməsi məqsədilə Qusar, Quba və Xızı-Xaçmaz TRZ-ləri idarəetmə şuraları yaradılmışdır. |
| 31 | 2.2.5. Yeni TRZ-nin yaradılması ilə bağlı təhlillərin aparılması | Yeni turizm və rekreasiya zonalarının yaradılması məqsədilə təhlillər aparılmış, təkliflər hazırlanmışdır. |
| 32 | 2.3.1. İlk növbədə Bakı şəhərinin, daha sonra isə bütün ölkənin turizm təqviminin hazırlanması | Ölkənin turizm potensialını təbliğ edən "www.azerbaijan.travel" və "www.salambaku.travel" internet səhifələrində ölkənin və Bakı şəhərinin turizm təqvimi yaradılmışdır. |
| 33 | 2.3.4. Bakı şəhərinin marketinq tədbirlərində qeyri-mövsümiliyə üstünlük verilməsi | Aşağı turizm mövsümü dövründə press-reliz, media tədbirləri və onlayn kampaniyalar vasitəsilə turistlərin gəlişini dəstəkləyən məlumatların yayılması ilə bağlı təkliflər hazırlanmış, təbliğat-təşviqat işləri davam etdirilmiş, "Qış Kampaniyası" həyata keçirilmişdir |
| 34 | 2.3.5. Ov mövsümünün müvafiq tələblər gözlənilməklə aşağı turizm mövsümünə çəkilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq əmri ilə vəhşi heyvanların və quşların ovlanmasının müddətləri və normaları təyin edilmişdir. |
| 35 | 2.4.1. Beynəlxalq hava limanlarında, eləcə də bütün sərhəd buraxılış məntəqələrində viza verilməsi mexanizminin asanlaşdırılmasının nəzərdən keçirilməsi | Viza verilməsi mexanizminin asanlaşdırılması imkanları nəzərdən keçirilmiş və bu sahədə müvafiq işçi qrupu yaradılmış, beynəlxalq təcrübə və mövcud vəziyyət təhlil edilmişdir. |
| 36 | 2.4.2. Ölkəyə daxil olan turistlərə xidmət məqsədilə viza ilə bağlı formaların doldurması və ödəmənin həyata keçirilməsi üçün özünəxidmət köşklərinin istifadəyə verilməsi | Elektron vizalar sistemin tətbiqinə dair genişhəcmli araşdırma aparılmış, özünəxidmət terminallarının və elektron ödənişlərin tətbiqi ilə bağlı beynəlxalq təcrübə araşdırılmış, hava limanında 14 özünəxidmət terminalı quraşdırılmışdır |
| 37 | 2.4.3. Elektron vizanın verilməsi prosesinin təkmilləşdirilməsi | Elektron vizanın verilməsi prosesinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmiş, "ASAN Viza" portalı vasitəsilə e-viza verilən ölkələrin sayı artırılmışdır.<br>"ASAN Viza" sistemində təkmilləşdirmə işləri aparılaraq, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına səfər etmək üçün elektron vizanın sürətləndirilmiş qaydada alınması ilə bağlı müraciətlərinə "ASAN Viza" sistemi vasitəsilə 3 saat ərzində baxılma təmin edilmişdir. |
| 38 | 2.4.4. Sərhəd buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi | "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2017-ci il tarixli 2677 nömrəli Sərəncamı imzalanmışdır. Sərəncama əsasən müvafiq ölkələr ilə dövlət sərhədinin buraxılış məntəqələrindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidini təmin etmək məqsədi ilə xüsusi ayrılmış hərəkət zolaqlarının müəyyən edilməsi üçün müvafiq infrastrukturun yaradılması və digər mühüm işlərin icrası nəzərdə tutulmuşdur. Sərhəd buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi istiqamətində zəruri işlər görülmüşdür. |

| | | |
|---|---|---|
| 39 | 2.5.5. Əsas hava yolları, kurort şəbəkələri və ya səyahət şirkətləri ilə strateji tərəfdaşlığın qurulması üçün müxtəlif variantların nəzərdən keçirilməsi | Dövlət Turizm Agentliyi Asiya və Sakit Okean bölgəsi üzrə səyahət və turizm (inbound və outbound) üzrə ixtisaslaşmış təşkilat olan Pasifik Asiya Səyahət Assosiasiyasına (PATA) üzv qəbul olunmuşdur. Assosiasiyaya üzv olmaqla ölkəmiz PATA-nın geniş üzv şəbəkəsinə və Asiya bazarı üzrə dərin araşdırma məlumatlarına çıxış imkanı əldə etmişdir. |
| 40 | 3.1.2. Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi | Naftalan neftinin tədqiqat qrupu yaradılmış, bu sahədə araşdırma və təhlillər aparılmışdır. Naftalan nefti əsasında hazırlanan məhsulların “Made in Azerbaijan” brendi ilə dünya bazarına çıxarılması istiqamətində müvafiq işlər görülmüşdür. |
| 41 | 3.1.3. Qalaaltı, Naftalan və Duzdağdakı mövcud yerləşdirmə alternativlərində, sağlamlıq xidməti göstərən müəssisələrdə və turistlər üçün digər cəlbedici yerlərdə bərpa və yenidənqurma işlərinin aparılması | Qalaaltı, Naftalan və Duzdağdakı müalicə-istirahət mərkəzlərin yenidənqurulması təmin edilmiş, ən müasir müalicə bərpa imkanları yaradılmış, mərkəzlərin işi daha da təkmilləşdirilmiş və imkanları genişləndirilmişdir. |
| 42 | 3.1.4. Bakı və Naftalan arasında sürətli və yüksəkkeyfiyyətli avtobus və qatar xidmətlərinə başlanılması | Bakı və Naftalan arasında sürətli və yüksəkkeyfiyyətli avtobus və qatar xidmətlərinin təmin olunması istiqamətində müvafiq tədbirlər görülmüşdür. |
| 43 | 3.2.1. Nəqliyyat seçimlərinin yaxşılaşdırılması | Qış turizm mərkəzləri ilə potensial turistlərin yaşadığı regionlar arasında nəqliyyat əlaqəsinin yaxşılaşdırılması istiqamətində təkliflər işlənib hazırlanmışdır. |
| 44 | 3.2.5. Seçilmiş məktəblərdə dağ-xizək təlimi proqramının işlənib hazırlanması və genişləndirilməsi | "Şahdağ Turizm Mərkəzi" və “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksində dağ-xizək təlimi proqramının işlənib hazırlanması və genişləndirilməsi istiqamətində müvafiq işlər icra olunmuşdur. |
| 45 | 3.3.4. Yeni mədəni turizm marşrutlarının təşviqi | Ölkəmizin zənginliklərini tanıdan turizm marşrutları, o cümlədən paytaxt və bölgələrin tarixini, mədəni irsini, mətbəx zənginliyini əks etdirən turizm marşurutlarının təşviqi üzrə zəruri tədbirlər həyata keçirilmişdir. |
| 46 | 3.4.1. Yeni hədəf bazarların təyin edilməsi və inkişaf etdirilməsi | İşgüzar turist sayına görə qabaqcıl ölkələrdən işgüzar tədbirlərin cəlb olunması üçün müvafiq bazar araşdırması aparılmış, Strategiya hazırlanmışdır. |
| 47 | 3.4.2. Rusiya Federasiyası və Yaxın Şərq bazarlarında mövqelərimizin möhkəmləndirilməsi | Rusiya Federasiyası və Yaxın Şərq bazarlarında mövqelərimizin möhkəmləndirilməsi üçün yerli Konqres Büroları, işgüzar turizm nümayəndəlikləri ilə mütəmadi olaraq görüşlər və müzakirələr aparılır. |
| 48 | 3.4.5. Beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak və təbliğat səfərlərinin təşkili | 2019-cu il ərzində beynəlxalq alıcılar və Görüşlər Sənayesi üzrə ixtisaslaşan şirkətlər üçün tanıtım səfərləri təşkil olunmuşdur.  2020-ci ilin fevral ayında Rusiyanın “MICE&more” jurnalının nümayəndələri üçün infotur təşkil edilmişdir. |
| 49 | 3.4.6. İşgüzar turizm üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması | 2019-cu ildə ABŞ-ın Hyuston şəhərində keçirilmiş 58-ci İCCA Konqres tədbirində iştirak təmin olunmuşdur. |
| 50 | 4.1.1. Turizm sahəsində peşə təhsili və təlimi proqramlarının əlaqələndirilməsi üçün işçi qrupun yaradılması | Turizm sahəsində peşə təhsili və təlimi proqramları ilə bağlı işlərin əlaqələndirilməsi məqsədilə işçi qrup yaradılmışdır. |
| 51 | 4.1.6. Turizm üzrə MBA proqramının yaradılması üçün tədbirlərin görülməsi | Azərbaycan Dövlət İqtisad Universitetində turizm və otelçiyinin idarəedilməsi ixtisaslaşması üzrə MBA proqramı, Azərbaycan Turizm və Menecment Universitetində müvafiq MBA proqramı yaradılmışdır. |
| 52 | 4.2.2. Yeni milli standartların və metodiki vəsaitlərin hazırlanması | Turizm sahəsində milli standartların və metodiki vəsaitlərin hazırlanması istiqamətində müvafiq işlərin icrası təmin edilmişdir. |
| **S/s** | **Qismən icra edilmiş tədbirlərin adı** | **Qeyd** |
| 1 | 1.2.6. Bakı şəhərinin biznes potensialından tam faydalanmaq məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi | Bakı şəhərinin biznes potensialından tam faydalanmaq məqsədilə keçirilən işgüzar tədbirlərin təqvimi tərtib edilmişdir. |
| 2 | 1.4.8. Universitet yataqxanalarının yay aylarında uyğun qiymətə yerləşdirmə vasitəsi olaraq turistlərə təklif edilməsi istiqamətində təkliflərin hazırlanması və təşviqi | Bakıda yerləşən və müasir tələblərə cavab verən universitet yataqxanalarından uyğun qiymətə turist yerləşdirmə obyektləri kimi istifadə imkanları qiymətləndirilmiş, təkliflər hazırlanmışdır. |
| 3 | 2.2.2. TRZ-lərdə fəaliyyətin turizm klasterinə uyğun qurulması | TRZ-lərin baş inkişaf planının hazırlanması məqsədilə beynəlxalq təcrübə araşdırılmış, müəyyən danışıqlar aparılmışdır. |

| | | |
|---|---|---|
| 4 | 2.3.2. Müxtəlif turizm növləri üzrə (sağlamlıq, ekoloji, işgüzar, kənd və s.) turistlərin aşağı mövsümi zamanlarda gəlməsinin təşviqi | Ənənəvi tədbirlərin daha az turistin gəldiyi dövrə çəkilməsi siyasətinin həyata keçirilməsinə məqsədilə təkliflər hazırlanmış, aqroekoturizmin və kənd turizminin inkişafına həsr olunan “Şəhərdən Kəndə” layihəsi, Qubanın Xınalıq kəndində keçirilən “Dağların Başı” musiqili festivalı, “Quba Regional Mətbəx Festivalı”, Şamaxıda “Azərbaycan Üzüm və Şərab Festivalı”, “Qusar Yay Fest düşərgəsi”, Gədəbəydə “Milli Yaylaq Festivalı”, Şəki şəhərində “İpək Yolu” Beynəlxalq Musiqi Festivalı kimi tədbirlər təşkil edilmişdir. |
| 5 | 2.3.3. Azərbaycan Respublikasında turizmin təşviq siyasətində mövsümiliyi azaldan tədbirlərin və layihələrin xüsusi olaraq dəstəklənməsinin təmin edilməsi | Mövsüm amilinin təsirlərinin azaldılması məqsədilə sahibkarların dəstəklənməsi ilə bağlı təkliflər hazırlanmış, 2020-ci ildə Lerik rayonu üzrə 2 sahibkara, Astara rayonu üzrə 1 sahibkara, Qusar rayonu üzrə 1 sahibkara, Naftalan şəhəri üzrə 1 sahibkara (sanatoriya və turizm mərkəzinə), Şamaxı rayonu üzrə 1 sahibkara və Zaqatala rayonu üzrə 1 sahibkara güzəştli kredit vəsaiti ayrılmışdır. |
| 6 | 2.3.6. TRZ-lərdə qeyri-mövsümi turizmin təşviqi | TRZ-lərin baş inkişaf planlarında mövsümiliyi azaldacaq tədbirlərin həyata keçirilməsi ilə bağlı təkliflər hazırlanmışdır. |
| 7 | 2.5.1. 1.1-ci prioritetdə müəyyən edilmiş Bakı şəhərinin 2017–2020-ci illər üzrə marketinq və kommunikasiya planına paralel olaraq liberal hava nəqliyyatı üzrə razılaşmaların əldə edilməsi məqsədilə işçi qrupun yaradılması | Hava nəqliyyatının ölkə iqtisadiyyatında, o cümlədən turizm sektorunun inkişafında rolunun daha da artırılması məqsədilə Dövlət Turizm Agentliyi tərəfindən təkliflər hazırlanmışdır. |
| 8 | 2.5.2. Azərbaycanda aviaşirkətlərin sayının artırılması məqsədilə uyğun qiymətə xidmətlər təklif edən şirkətlərin və milli aviaşirkətlərin formalaşdırılmasının dəstəklənməsi | Azərbaycanın aşağı büdcəli aviadaşıyıcısı "Buta Airways" şirkəti 2017-ci ilin sentyabr ayından fəaliyyətə başlamışdır. |
| 9 | 2.5.4. Azərbaycanın regional hava limanlarında göstərilən xidmətlərin cari səviyyəsinin müəyyən edilməsi, hava limanlarının genişləndirilməsi ehtiyaclarının dəyərləndirilməsi və 2020–2025-ci illər üzrə hava limanlarına investisiya qoyuluşu planlarının icrası ilə əlaqədar vəsaitlərin təmin edilməsi | Hava limanları şəbəkəsinin genişləndirilməsi üçün zəruri ehtiyacların dəyərləndirilməsi istiqamətində araşdırma aparılmışdır. |
| 10 | 3.1.1. Sağlamlıq turizminə dair 2017–2020-ci illəri əhatə edən fəaliyyət planının hazırlanması | Sağlamlıq turizminin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi tərəfindən fəaliyyət planı hazırlanmışdır. |
| 11 | 3.2.4. Qış turizmi ərazilərindəki dövlət mülkiyyətində olan mehmanxanaların mövcud vəziyyətini qiymətləndirmək üçün təhlillərin aparılması və yerləşdirmə imkanlarının təkmilləşdirilməsi | Qış turizmi ərazilərindəki dövlət mülkiyyətində olan mehmanxanalarda mövcud idarəçiliyində çevikliyin təmin edilməsi və fəaliyyətinin optimallaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. |
| 12 | 3.3.1. Azərbaycanın şimal, şimal-qərb və qərb dəhlizləri boyunca bütün mədəni-tarixi görməli yerləri üzrə gündəlik-həftəlik avtomobil və piyada marşrutlarının tərtib edilməsi | Böyük İpək yolu mədəni turizm marşrutunun turistlərin tələbinə uyğun layihələndirilməsi üçün tədbirlər görülmüşdür. |
| 13 | 3.3.2. “Böyük İpək Yolu” və digər mədəni turizm marşrutları üzrə bələdçilik etmək üçün sertifikasiya proqramının işlənib hazırlanması | Beynəlxalq təşkilatların dəstəyi ilə “Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində dualabənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” qrant layihəsi çərçivəsində “Mehmanxana inzibatçısı”, “Turizm sahəsində iaşə üzrə mütəxəssis”, “Turizm təşkilatçısı” ixtisasları üzrə təhsil proqramları hazırlanmış və təsdiq edilmişdir. Həmin ixtisaslar üzrə tədris Bakı, Gəncə, Şəki, Quba, Qəbələ, İsmayıllı, Naftalan, Lənkəran kimi regionlarda yerləşən peşə təhsili müəssisələrində təşkil edilmişdir. Azərbaycan Bələdçilik Assosiasiyası tərəfindən Zaqatala və Balakən regionunda Tematik marşrutlar üzrə turist bələdçilərinin hazırlanması ilə bağlı təlim keçirilmişdir. |
| 14 | 3.3.3. Marşrut boyu turizm infrastrukturunun inkişafını stimullaşdırmaq üçün 1.4-cü prioritetə müvafiq olaraq maliyyə vəsaitinin ayrılması və sahibkarlara məsləhətlərin verilməsi | Turizm sahəsi üzrə 4 sahibkarlıq subyektinə 5 investisiya təşviqi sənədi və 9 təsdiqedici sənəd təqdim edilmişdir.<br>Tturizm marşrutları boyunca infrastrukturun daha da inkişaf etdirilməsi ilə bağlı layihələri dəstəkləmək məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən "Şərab yolu" turizm marşrutu üzrə Şamaxı rayonunda 1 sahibkara, "Erkən xristianlıq irsi" turizm marşrutu üzrə Zaqatala rayonunda 1 sahibkara güzəştli kredit verilmişdir. Eyni zamanda turizm marşrutları üzrə fəaliyyət göstərən və pandemiyadan zərərçəkən sahibkarlara subsidiya və zəmanət mexanizmləri vasitəsilə də dəstək göstərilmişdir. |

| | | |
|---|---|---|
| 15 | 3.4.3. Görüşlər Sənayesi üzrə Fəxri Səfirlər Klubunun yaradılması | Fəxri Səfirlər Klubu yaradılmış, klub üzvləri üçün "İşgüzar tədbirlər sənayəsinin inkişaf istiqamətləri" mövzusu üzrə təlim təşkil edilmişdir. |
| 16 | 3.5.1. Azərbaycanın ekoloji turizm potensialının araşdırılması və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili | Azərbaycanda ekoturizmin davamlı inkişafı üçün konsepsiya hazırlanmışdır. |
| 17 | 3.5.2. Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi | Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi üzrə tədbirlər planı hazırlanmışdır. |
| 18 | 3.5.3. Şamaxı Safari Parkının yaradılması və təşviqi | Şamaxı Safari Parkı yaradılmışdır. |
| 19 | 4.1.2. İşçi qrup tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsi | Turizm sahəsində təlimçilərin potensialının artırılması məqsədilə Avstriyanın "Think-Modular" təlim və təqdimat platforması tərəfindən təlimçilər üçün 4 günlük təlim proqramı keçirilmişdir.<br>Turizm Təlim və Sertifikasiya Mərkəzi tərəfindən 3 mövzu üzrə təlim modulları və kurrikulumlar hazırlanmışdır: Qəbul Şöbəsi ( Front Office), Qida və İçki ( Food and Beverage) və Təmizlik şöbəsi ( Housekeeping). |
| 20 | 4.1.4. Turizm sektoru üzrə peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) hazırlanması və turizm bələdçilərinin sertifikatlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi | Beynəlxalq təşkilatların dəstəyi ilə “Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində dualabənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” qrant layihəsi çərçivəsində “Mehmanxana inzibatçısı”, “Turizm sahəsində iaşə üzrə mütəxəssis”, “Turizm təşkilatçısı” ixtisasları üzrə təhsil proqramları hazırlanmış və təsdiq edilmişdir. Həmin ixtisaslar üzrə tədris Bakı, Gəncə, Şəki, Quba, Qəbələ, İsmayıllı, Naftalan, Lənkəran kimi regionlarda yerləşən peşə təhsili müəssisələrində təşkil edilmişdir. |
| 21 | 4.2.1. Qanunvericilikdə müvafiq əlavə və dəyişikliklərin edilməsi | “Turizm haqqında” yeni qanun layihəsi hazırlanmışdır. |
| 22 | 4.2.3. Mövcud standartların təkmilləşdirilməsi | "Turizm xidmətləri.+C12:D79 Peşəkar turist bələdçisi üçün təlim və ixtisasartırma proqramlarının təşkilinə dair tələblər" Dövlət Standartı yenilənmiş, "Yerləşdirmə vasitələrinin təsnifatı. Minimum tələblər" Dövlət Standartının layihəsi hazırlanmışdır. |

Buraxılışa məsul şəxslər:
Səmərəliliyin Qiymətləndirilməsi Departamentinin Rəhbəri - Yusif Səfərov
Dizaynerlər – Elvira Zeynalova və Elmar Təhməzli

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

https://ereforms.gov.az